EVDƏ QAL, SAĞLAM QAL!

Media nümayəndələrindən Prezidentə təşəkkür MƏKTUBLARI



Bax 7

Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri erməniləri təşvişə salıb



Bax 6



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 127 (6091) 28 iyul 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezident açıqladı: "Təhsildə islahatlar dərinləşməlidir"



Bax 2

*Prezident İlham Əliyev Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

## İtaliya mətbuatı erməni yalanlarını ifşa edir!




İtaliyanın "Agenzia Stampa Italiana", "Askanews", "Notizie Yahoo", "Agenzia Nova", "Giornale Diplomatico", "The Daily Cases" və sair kimi kütləvi informasiya vasitələri Azərbaycanın İtaliyadakı səfirliyinin Ermənistanın yeni təhdidləri və media təxribatlarını ifşa edən mətbuat açıqlamasını dərc edib. AZƏRTAC xəbər verir ki, məlumatlarda media...

Bax 4

## Tomas Qolts: ASALA bütün dünyaya təhdiddir



ASALA terror təşkilatı bütün dünyaya təhdiddir. Bunu Trend-ə amerikalı jurnalist, Montana Universitetinin professoru, ADA Universitetinin fəxri doktoru Tomas Qolts deyib. O bildirib ki, ASALA-nın fəaliyyəti təkcə Avropada deyil, həm də ABŞ-da yayılıb...

Bax 6

## Türkiyədən ŞAD XƏBƏR: COVID-19-a qarşı peyvənd istehsal undu

"2 milyon ədəd COVID-19 peyvəndi istehsal etdik və oktyabrın sonunda kliniki testlərə başlayacağıq". Bu sözləri komandası ilə birlikdə özünü karantinə alan və koronavirusa qarşı effektiv müalicə üsulu tapmaq üçün işlər görən türkiyəli professor Ərcüment Ovalı deyib. İHA-ya açıqlama verən professor bildirib ki...




Bax 16

## DTX: Təxribat xarakterli paylaşımlar edən şəxslərin müəyyənləşdirilməsi davam etdirilir

Bəzi internet resurslarında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kiçik qızı Arzu Əliyevanın adından sosial şəbəkədə yayılmış mürаciətdə, guya istifadəçilərə hərbi məsələlərlə bağlı paylaşım etməməyə çağırışlar yer almışdır. SİA bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadən məlumat verir. Məlumatda bildirilir ki, aparılmış ilkin araşdırmalarla...



Bax 6

## "Barselona"dan Messi açıqlaması

"Barselona"nın prezidenti Josep Maria Bartomeu komandanın kapitanı Lionel Messinin gələcəyi haqda danışıb. Qol.az "Mundo Deportivo"ya istinadən xəbər verir ki, o, argentinalı hücumçunun komandada qalacağına inandığını deyib: "Messi bir neçə dəfə...



Bax 16

Türkiyədən yazırlar: Osmanqızının ötürdüyü mesajlar nəyə hesablanıb, bunu bilirik...



Bax 14

"Osmanqızı son bəyanatı ilə azərbaycanlı olmaqdan imtina edib"



Bax 13

Bakıya yeni Şollar su kəməri çəkiləcək



Bax 9

# Prezident açıqladı: "Təhsildə islahatlar dərinləşməlidir"

## *Prezident İlham Əliyev Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*



*"Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir"*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, yeni təyinat eyni zamanda, gənclərə göstərilən etimadın növbəti təzahürüdür: -Bu gün siz Təhsil naziri vəzifəsinə təyin olunursunuz. Sizə çox böyük etimad göstərilir. Bu etimadı siz öz işinizlə doğrultmalısınız. Siz gəncsiniz, sizin təyinatınız, eyni zamanda, gənclərə göstərilən etimadın növbəti təzahürüdür.***

Bildiyiniz kimi, ölkəmizdə gəncləşmə siyasəti aparılır, gənclər çox önəmli vəzifələrə təyin edilir və hesab edirəm ki, hazırda Azərbaycanda idarəetmə sahəsində çox müsbət təcrübə əldə olunub. Yaşlı nəslin təcrübəsinin və gənc nəslin müasirliyinin, novatorluğunun sintezi ölkəmizin uğurlu inkişafına xidmət göstərir. Gənc olmağınıza baxmayaraq, sizin təhsil sahəsində təcrübəniz var. Təhsil Nazirliyində müxtəlif vəzifələrdə çalışmısınız. Bu günə qədər Təhsil İnstitutunun direktoru vəzifəsində işləyirsiniz. Ona görə əminəm ki, təhsil qarşısında duran problemlərlə bağlı sizin geniş fikriniz, məlumatınız var. Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir.

Son illərdə bu sahədə çox böyük işlər görülüb, təhsil sahəsi daim diqqət mərkəzindədir və bu da təbiidir. Çünki hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də böyük dərəcədə şərtləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, görürük ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad, təhsil və elmin inkişafıdır. Ona görə artıq 17 ildir ki, mənim təşəbbüsümlə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır. Bu illər ərzində tamamilə yeni, müasir nəsil yetişib və gənclər bu gün bütün sahələrdə özlərini göstərirlər. Onların fəallığı, bilikləri, müasir texnologiyalara marağı ölkəmizi gücləndirir. Bizim sərhədlərimizi də, xalqımızın əmin-amanlığını da səngərdə düşmənlə üz-üzə olan döyüş məntəqələrində gənclərimiz ləyaqətlə qoruyur.

Təhsildə islahatlar dərinləşməlidir. Deyə bilərəm ki, son illər ərzində təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub, 3500-dən çox məktəb ya yenidən tikilib, ya da ki, əsaslı təmir edilib. Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb. Hesab edirəm ki, bu sahədə işlərin böyük hissəsi görülüb. Ancaq həllini gözləyən məsələlər də həyatda öz həllini tapmalıdır və burada vaxt itirmək olmaz. Xüsusilə, dağ kəndlərində və ucqar kəndlərdə modul tipli məktəblərin tikintisi layihəsi də yaxın iki il ərzində başa çatmalıdır. İndi bir çox ucqar kəndlərdə bu layihə icra edilir. Kənd sakinləri də, uşaqlar da bundan çox razıdırlar. Bu proqram dövlət büdcəsinin xətti ilə icra edilir və ona görə yenə də deyirəm, bunun tamamlanması 2021-2022-ci ildə başa çatmalıdır. Bununla paralel olaraq, təhsilin keyfiyyəti artmalıdır və artır. Bunu müxtəlif reytinqlər göstərir və əlbəttə, burada əsas məsələlərdən biri müəllimlərin peşəkarlığıdır. Çünki təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından asılıdır. Müəllimlər uşaqları necə öyrədirlərsə, uşaqlar da buna uyğun şəkildə biliklər əldə edirlər.

Son illərdə Azərbaycanda müəllim peşəsinə ənənəvi hörməti bərpa etmək üçün çox böyük işlər görülüb. Dövlət xətti ilə həyata keçirilən xərclər bu sahədə xüsusi rol oynayır. 2015-2018-ci illərdə yeni yanaşma tətbiq olunmuşdur - müəllimlərin diaqnostik qiymətləndirilməsi keçirilmişdir. Bu diaqnostik qiymətləndirmədən uğurla keçmiş müəllimlərin əməkhaqları orta hesabla 2 dəfə artırılmışdır. Əlbəttə ki, bu, müəllimlər üçün əlavə bir stimul idi. Eyni zamanda, müəllim peşəsini seçənlərin də sayı buna uyğun şəkildə artdı və bu da məni çox sevindirir. Çünki bir neçə il bundan əvvəl müəllim olmaq istəyənlərin sayı kifayət qədər az idi. Ancaq son bir neçə ildə müəllim peşəsinə maraq artıb. Çünki müəllimlər indi daha yaxşı maaş alırlar. Onların cəmiyyətdə hörməti yüksək səviyyədədir. İndi onlar gözəl, təmir edilmiş, yenidən tikilmiş məktəblərdə, ali məktəblərdə çalışırlar. Mən hər il tədris ilinin ərəfəsində yeni tikilmiş və təmir edilmiş məktəblərə baş çəkirəm. Hər il bilik günündə də uşaqlarla, müəllimlərlə görüşürəm və qeyd edirəm ki, məktəb, eyni zamanda, müəllimin iş yeridir. Bu gün bu sahədə görülmüş işlər əlbəttə ki, müəllimləri həvəsləndirir. Ona görə təhsilin səviyyəsinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır.

Təbii ki, dünyada gedən müsbət tendensiyalara daim fikir verilməlidir. İnkişaf etmiş ölkələrdə aparılan islahatlar dərindən təhlil edilməlidir və onların bizə uyğun olan hissəsi Azərbaycanda tətbiq olunmalıdır.

Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycan gənclərinin xaricdə təhsil almaları üçün xüsusi proqram qəbul edilmişdir. Bu proqram çərçivəsində minlərlə Azərbaycan gənci dövlət vəsaiti hesabına xarici ölkələrin aparıcı ali məktəblərinə ezam edilmişdir. Onlardan biri də sizsiniz və siz bu proqramla əhatə olunmusunuz. Bildiyiniz kimi, biz bu proqramı Dövlət Neft Fondunun xətti ilə həyata keçirdik. Bu da rəmzi xarakter daşıyır. Biz bu proqramı dövlət büdcəsi hesabına həyata keçirə bilərdik, ancaq mən bunu məhz Dövlət Neft Fondunun xətti ilə keçirilməsinə qərar verəndə qeyd etmək istəyirdim ki, bu, strateji əhəmiyyət daşıyır. Çünki bu günə qədər Dövlət Neft Fondunun xətti ilə həyata keçirilən layihələr strateji əhəmiyyətli layihələrdir. Onların arasında, ilk növbədə, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması layihələridir. Böyük infrastruktur layihələri və bu proqram məhz bu xətlə icra edilib. Ona görə bu proqram qəbul olunanda həm bu məsələ öz əksini tapdı, eyni zamanda, mənim yadımdadır, o vaxt bəzi hökumət üzvləri təklif edirdilər ki, bir halda, biz gəncləri dövlət hesabına xaricdə oxudururuq, onların qarşısında şərt qoyulmalıdır ki, onlar təhsili başa vurandan sonra mütləq ölkəyə qayıtsınlar və məcburi qaydada 5-10 il ölkəmizdə işləsinlər.

Mən buna müsbət yanaşmadım. Yadımdadır, o vaxt mən dedim, biz bu işi görürük ki, ölkəmiz, xalqımız üçün gənc kadrlardan ibarət intellektual potensial yaradaq. Biz bunu edirik ki, gənclərimiz dünyanın aparıcı ali məktəblərində oxusunlar. Biz onları necə məcbur edə bilərik, onların qarşısına necə şərt qoya bilərik? Biz Azərbaycanda elə bir şərait yaratmalıyıq ki, onlar özləri qayıtsınlar. Çünki Azərbaycan vətəndaşları, onların mütləq əksəriyyəti öz Vətəninə, torpağına bağlı olan insanlardır. Siz də bunun şahidisiniz, o vaxt heç bir şərt qoyulmadan biz gəncləri xaricə ezam etdik, oxutdurduq. Hətta demişdim ki, onların bəziləri ölkəmizə qayıtmasa belə, yenə də onlar Azərbaycan torpağının övladlarıdır. Əgər onların istənilən ölkədə yaşaması onları qane edirsə, onlar orada da Azərbaycanla öz əlaqələrini kəsməyəcəklər. Artıq bu gün dünyada mövcud olan və fəallaşan Azərbaycan icmaları ölkəmizə də dəstəkdir. Biz də onları dəstəkləyirik. Dəfələrlə demişəm ki, bütün Azərbaycan vətəndaşları, xaricdə yaşayan azərbaycanlılar bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır. Buna görə bu müsbət təcrübə öz bəhrəsini verdi və siz bu proqram xətti ilə xaricdə təhsil almış insan kimi bunu görürsünüz. Siz qayıtdınız, burada çalışdınız, gənc olmağınıza baxmayaraq, sizə böyük vəzifələr etibar edilmişdir və bu gün siz nazir vəzifəsinə təyin olunursunuz.

Ardı Səh. 3

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Emin Əmrullayevin Azərbaycan Respublikasının Təhsil naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Emin Eldar oğlu Əmrullayev Azərbaycan Respublikasının Təhsil naziri təyin edilsin.

Prezident İlham Əliyev su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# Prezident açıqladı: “Təhsildə islahatlar dərinləşməlidir”

*Prezident İlham Əliyev Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

**Əvvəli Səh. 2**

Bununla paralel olaraq, o vaxt növbəti bir təşəbbüs irəli sürüldü. Aparıcı xarici ali məktəblərin Azərbaycanda filiallarının yaradılması məsələsi gündəliyə salınmışdı. Artıq qısa müddət ərzində Azərbaycanda 3 xarici ali məktəbin filialı fəaliyyət göstərir. Hesab edirəm ki, onların sayı daha da çox ola bilər və bu məsələlərlə siz bilavasitə məşğul olacaqsınız.

Bir məsələni də qeyd etmək istərdim. Bizim təhsilimizin ümumi səviyyəsi təbii ki, qalxmalıdır və təhsilli insan nə qədər çox olarsa, ölkəmizin intellektual potensialı o qədər də çox artacaqdır. Bununla paralel olaraq, bizim təhsil sistemimiz ölkəmizin ümumi iqtisadi və sənaye inkişafı ilə uzlaşmalıdır. Ona görə xüsusilə ali məktəblərə qəbul mərhələsində bütün bu məsələlər dərindən təhlil edilməlidir. Bizə hansı sahə üzrə nə qədər mütəxəssis lazımdır? Humanitar sahədə fəaliyyət göstərəcək nə qədər mütəxəssis lazımdır? Nə qədər texniki peşə sahibləri lazımdır? Ona görə bütün bunları siz mütləq aidiyyəti dövlət qurumları ilə birlikdə həll etməlisiniz. Bizim iqtisadi və sənaye inkişafımız planlı şəkildə həyata keçirilir. Həm dövlət siyasəti aparılır, eyni zamanda, dövlətin dəstəyi ilə yaradılmış şərait nəticəsində özəl sektor böyük investisiyalar qoyur və hansı sahələrə bu sərmayə qoyulur, bunu da hər kəs bilir. Bundan sonra bizə hansı peşələr lazım olacaq? Biz bunu da bilirik. Ona görə bizim təhsilimizin əsas istiqamətləri ölkəmizin sənaye və iqtisadi inkişafı ilə tam bağlı olmalıdır. Bir daha demək istəyirəm ki, siz bu işləri gərək aidiyyəti qurumlarla düzgün təhlil edib konkret təkliflər verəsiniz.

Digər vacib məsələ. Hesab edirəm, vaxt gəlib çatıb ki, biz bu məsələ ilə daha fəal məşğul olaq. Bu da Dördüncü Sənaye İnqilabının mövcudluğu, dünyada gedən rəqəmsallaşma tendensiyaları ilə bağlıdır. Rəqəmsallaşma, müasir texnologiyaların geniş yayılması və tətbiq edilməsi bəzi peşələri lazımsız edir. Artıq bu peşələrin siyahısı var. Bu peşələr artıq aradan qalxır və olmayacaq. Ona görə buna da daim fikir verməlisiniz. O peşələr ki, beş ildən sonra olmayacaq, bu peşələr üzrə mütəxəssislərin hazırlanmasına ehtiyac yoxdur. Amma bununla paralel olaraq, yeni peşələr ortaya çıxacaq, hansılar ki, bu gün yoxdur. Lakin hansı peşələrin olacağı ehtimal edilir, bu peşələr üzrə bizdə mütəxəssislər hazırlanmalıdır. Eyni zamanda, bəzi peşələrin aradan qaldırılması bizim üçün başqa bir problem yarada bilər. Çünki Azərbaycan demoqrafik baxımdan inkişaf edən ölkədir, bizim əhalimiz artır. Peşələrin aradan qaldırılması nəticəsində işsizlik arta bilər. Aradan qalxacaq peşələr o qədər də böyük peşəkarlıq və ixtisaslaşma tələb etməyən peşələrdir. Amma yeni yaradılacaq peşələr böyük bilik, savad və müasir texnologiyalar tələb edəcək. Odur ki, bütün bunları biz indi düzgün planlaşdırmasaq, böyük problemlərlə üzləşəcəyik.

Biz imkan verə bilmərik ki, Azərbaycanda işsizlik sürətlə artsın, baxmayaraq ki, pandemiya şəraitində bütün ölkələrdə işsizlik artır. Biz elə etməliyik ki, Azərbaycanda vətəndaşlar işlə təmin edilsinlər. Ona görə xüsusi əhəmiyyət daşıyan bu məsələyə Təhsil Nazirliyi aidiyyəti qurumlarla birlikdə mütləq böyük diqqət yetirməlidir, konkret təkliflər hazırlayıb təqdim etməlidir və cəmiyyətdə bu məsələ ilə bağlı maarifləndirmə aparılmalıdır. Müxtəlif tədbirlər, diskussiyalar, müzakirələr keçirilməlidir, vətəndaşlara bu haqda məlumat verilməlidir ki, onlar özlərini və yaxud da, öz övladlarını yeni dövrə uyğun hazırlayıb onlara düzgün tövsiyələr versinlər.



> *“Dəfələrlə demişəm ki, bütün Azərbaycan vətəndaşları, xaricdə yaşayan azərbaycanlılar bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır”*

Peşə təhsili xüsusi əhəmiyyət daşıyan məsələdir, xüsusilə indiki şəraitdə. Bu gün Azərbaycanda yaradılan yeni peşə məktəbləri əlbəttə ki, sovet vaxtında mövcud olan peşə məktəblərindən böyük dərəcədə fərqlənir. Sovet vaxtında daha çox orta məktəbdə böyük nəticələr əldə edə bilməyən uşaqlar 8-ci sinifdən peşə məktəblərinə üz tuturdular və bu, adi bir praktika idi. Bu gün isə peşə məktəbləri çox böyük hörmətə layiq məktəblər olmalıdır. Son illərdə bəzi xarici tərəfdaşlarla Azərbaycanda bir neçə peşə məktəbi açılıbdır və bu peşə məktəblərinə orta məktəbdə yaxşı oxuyan uşaqlar da üz tuturlar. Bunu həvəsləndirmək vacibdir, çünki bizə peşəkar kadrlar lazımdır.

Bu gün ölkəmiz elə sürətlə inkişaf edir ki, kadr hazırlığı ölkəmizin sənaye, iqtisadi inkişafına uyğun inkişaf edə bilmir. Bunun nəticəsində bizim son illər ərzində yaradılmış bir çox müasir müəssisələrdə xarici mütəxəssislər bütün rəhbər orqanlarda təmsil olunurlar. Mən buna normal baxıram, burada problem görmürəm. Bu, bütün dünyada belədir və peşəkar kadrların miqrasiyası təbii prosesdir. Amma mən çox istərdim ki, bizim kadrlarımız da yetişsin və həm Azərbaycanda, həm də başqa ölkələrdə azərbaycanlı kadrlar yüksək vəzifələrdə işləsinlər. Ona görə peşə məktəblərinin bu sahədə çox böyük əhəmiyyəti var. Əlbəttə ki, burada da, ilk növbədə, ümumi inkişaf meyilləri nəzərə alınmalıdır, hansı peşələr bizə nə vaxt lazım olacaq. Misal üçün, bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafının sürəti çox yüksəkdir və bilirəm ki, bu sahəyə maraq artır. Ona görə bu sahə üzrə peşə məktəbləri olmalıdır. Turizm, menecment sahələrinin, texniki peşələrin müasir standartlara cavab verməsi üçün addımlar atılmalıdır. Odur ki, peşə məktəblərinin gələcək inkişafı daim diqqət mərkəzində olmalıdır.

Bir neçə ölkədən ilkin təkliflər də irəli sürüldü. Artıq bizim təcrübəmiz var. Biz bunu adətən bu formada edirik ki, misal üçün, Azərbaycan tərəfi bütün texniki məsələləri və maliyyə məsələlərini öz üzərinə götürür. Xarici tərəfdaş isə sadəcə olaraq, tədris proqramlarını, texnologiyaları və müasir standartları ölkəmizə idxal edir.

Əlbəttə ki, gənclərin tərbiyə edilməsi ilə əlaqədar Təhsil Nazirliyinin çox böyük funksiyaları vardır. Gənclərin tərbiyə olunması, əlbəttə, ilk növbədə, ailələrdə baş verir. Mən çox şadam ki, Azərbaycan cəmiyyəti əsrlərboyu ailə dəyərlərini qoruyub saxlaya bilib. Ailədə verilən tərbiyə xalqımızın gələcəyini də təmin edəcəkdir. Ancaq bununla paralel olaraq, bizim həm orta, həm də ali məktəblərdə tərbiyə işinə yüksək, böyük diqqət verilməlidir. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunmalı, Vətənə bağlı olmalıdırlar, Vətəni sevməlidirlər. Xüsusilə, bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı öz Vətəni ilə fəxr edə bilər. Azərbaycan bu gün istənilən sahədə böyük uğurlar əldə edib.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki sirr deyil ki, bu gün bəzi hallarda bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər. Buna qətiyyən yol vermək olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm. Mən görürəm ki, yeni, müasir nəsil yetişir. Müstəqillik dövründə doğulmuş və ya formalaşmış nəsil yetişir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidir. Heç bir təzyiqə, hədə-qorxuya, əsassız ittihamlara baxmayaraq, Vətən məhəbbəti və milli dəyərlər onlar üçün hər şeydən üstün olmalıdır. Amma buna nail olmaq üçün onlar milli ruhda tərbiyə almalıdırlar. Əgər qloballaşma adı ilə bizə yad olan və faktiki olaraq manqurtlaşma, eyniləşmə siyasəti idxal ediləcəksə, onda bizim gənclərimiz gələcəkdə ölkəmizin maraqlarını qoruya bilməyəcəklər. Bu, təkcə Təhsil Nazirliyinin vəzifəsi deyil, bu prinsiplər, ilk növbədə, ailələrdə, məktəbdə, uşaq bağçasında, ali məktəbdə, orduda və cəmiyyətdə üstünlük təşkil etməlidir.

Mən bir daha demək istəyirəm ki, sizə bu gün böyük etimad göstərilir. Siz öz işinizlə bu etimadı doğrultmalısınız. Sizi təbrik edirəm və uğurlar arzulayıram.

Nazir Emin Əmrullayev dedi:

Möhtərəm cənab Prezident. Mən, ilk növbədə, Sizə təşəkkürümü bildirmək istəyirəm. Həqiqətən də bu, böyük etimaddır. Eyni zamanda, böyük məsuliyyətdir. Qeyd etdiyiniz kimi, Sizin rəhbərliyinizlə son dövrdə təhsil sahəsində həqiqətən də, müsbət dəyişikliklər baş verməkdədir. Bu dəyişikliklər istər şagirdlərin nailiyyətlərində, istərsə də bizim beynəlxalq reytinqlərdə əksini tapıb. Ən sevindirici hal ondan ibarətdir ki, bir çox dəyişənlər, yəni bir çox indikatorlar Təhsil Nazirliyi və yaxud da Azərbaycan hökuməti tərəfindən deyil, nüfuzlu beynəlxalq təşkilatlar və yaxud beynəlxalq olimpiadalarda şagirdlərimizin nailiyyətləri əsasında müşahidə edilir.

Siz də qeyd etdiyiniz kimi, təhsil sahəsi hazırda bir çox uğurlar əldə etmişdir. Siz bu uğurların bir qismini sadaladınız. O cümlədən də mən qeyd etmək istəyərdim ki, bu vektorun, bu müsbət istiqamətin davamlılığını təmin etmək qarşıda duran ən vacib məqsədlərimizdəndir. Eyni zamanda, Siz dövlət proqramını qeyd etdiniz. Mən fürsətdən istifadə edib, bir vətəndaş kimi, istərdim, ilk növbədə, Sizə minnətdarlığımı bildirim. Çünki bu proqram həm mənim, həm də minlərlə Azərbaycan gəncinin həyatını dəyişən bir proqramdır. Sizin bu təşəbbüsünüz həqiqi mənada bir çox insanın həyatını yaxşıya doğru dəyişmişdir. Çünki Siz də qeyd etdiniz ki, bu proqram xaricə oxumağa gedəndə vətəndaşdan hər hansı öhdəlik tələb etmirdi. Bu, daha çox mənəvi öhdəlik idi, nəinki maddi və ya hansısa hüquqi. Düşünürəm ki, hazırda proqram məzunlarının demək olar ki, böyük əksəriyyəti Azərbaycandadır və həmin investisiyanı geri qaytarmaq vaxtıdır. Yaxud, belə deyək, bunu davamlı olaraq etmək hər bir proqram məzununun mənəvi borcudur.

Sadaladığınız istiqamətlər üzrə müvafiq işlərin görülməsi təbii ki, qarşıda duran məsələdir. Təhsilin keyfiyyətinin artırılması və hər bir Azərbaycan vətəndaşının keyfiyyətli təhsillə əhatə edilməsi, o cümlədən də dövlət vəsaitinin, təhsilə ayrılan investisiyanın səmərəli istifadə olunması, düşünürəm ki, təhsildə qısa zamanda uğurların davamını gətirməyə imkan verəcək.

Sizə bir daha dərin minnətdarlığımı bildirirəm və qarşıya qoyulan vəzifələrin həlli üçün əlimdən gələni edəcəyimə söz verirəm. Sizə minnətdaram, təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun, sizə uğurlar arzulayıram.

# YAP-dan səhiyyə işçilərinə hədiyyə



Yeni Azərbaycan Partiyası koronavirusla mübarizə çərçivəsində humanitar aksiyalarını bu gün də davam etdirməkdədir. SİA-nın verdiyi məlumata görə, mart ayından etibarən başlanmış kampaniya çərçivəsində YAP bu gün də dəhşətli pandemiyanın qarşısının alınması məqsədilə dövlətin həyata keçirdiyi tədbirlərə ciddi və önəmli dəstəyini nümayiş etdirir.

Yeni Azərbaycan Partiyasının pandemiya əleyhinə mübarizə çərçivəsində təşkil etdiyi növbəti aksiya səhiyyə işçilərinə yardımın həyata keçirilməsi oldu. Belə ki, iyulun 27-də YAP səhiyyə işçilərinin COVİD 19 ilə mübarizəsində, xəstələrin müalicəsinin daha rahat təşkilində onlara kömək məqsədilə hər birindən 1000 ədəd olmaqla, üz siperi, qoruyucu maska və birdəfəlik geyimləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə təhvil verib. Tədbirdə iştirak edən Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə qeyd edib ki, dünyanı cənginə alan bu bəlaya qarşı mübarizə aparmaq üçün özümüzün və ətrafımızdakıların sağlamlığının qeydinə qalmaq, ruhdan düşməmək, çətinliklərin öhdəsindən gəlmək üçün səyləri birləşdirmək vacibdir. A.Mirzəzadə bildirib ki, bu gün dünyanın hər yerində, o cümlədən Azərbaycanda pandemiyanın dağıdıcı təsirlərinə qarşı mübarizə aparmaq üçün özünü riskə atan həkimlərdir, bu işin ən böyük yükü məhz onların üzərinə düşür.

# İtaliya mətbuatı erməni yalanlarını ifşa edir!

İtaliyanın "Agenzia Stampa Italiana", "Askanews", "Notizie Yahoo", "Agenzia Nova", "Giornale Diplomatico", "The Daily Cases" və sair kimi kütləvi informasiya vasitələri Azərbaycanın İtaliyadakı səfirliyinin Ermənistanın yeni təhdidləri və media təxribatlarını ifşa edən mətbuat açıqlamasını dərc edib.


agenziastampaitalia
INFORMAZIONE COMUNICAZIONE MEDIA

DOMUS | ESCLUSIVE ASI | POLITICA | CRONACA | SPECIALI ASI | ECONOMIA | CULTURA | SPORT | RADIO E TV | LETTERE IN REDAZIONE | CERCA

**Ambasciata della Repubblica dell'Azerbaigian. "L'anniversario dell'occupazione di Agdam tra nuove minacce e provocazioni mediatiche"**

Scritto da Redazione ASI · Categoria: Politica Estera · Pubblicato: 23 Luglio 2020

(ASI) "Continuano a circolare campagne mediatiche fantasiose da parte dell'Armenia nei confronti dell'Azerbaigian, mentre è sempre più importante che i mezzi di comunicazione prendano le distanze da notizie non veritiere. Una delle false novità è la notizia, diffusa dalla parte armena, che l'Azerbaigian abbia minacciato di lanciare missili sulla centrale nucleare di Metsamor, in Armenia.

Commentando questo argomento Hikmat Hajiyev, assistente del Presidente della Repubblica dell'Azerbaigian, ha sottolineato che durante le recenti provocazioni, sono state rivelate varie disinformazioni da parte dell'Armenia, che utilizza le opinioni espresse su base individuale per mascherare i suoi crimini. E' stata proprio l'Armenia ad affermare che avrebbe preso di mira le strutture petrolifere e di gas e le strutture critiche dell'Azerbaigian. Hikmat Hajiyev ha aggiunto che l'Azerbaigian non ha alcun obiettivo di colpire strutture strategiche critiche. "L'Armenia ha deliberatamente trasformato la questione di Metsamor in uno spettacolo. La stessa centrale nucleare di Metsamor rappresenta una grave minaccia per la regione, basata su una tecnologia obsoleta e questa centrale è diventata un veicolo per il contrabbando di sostanze radioattive", ha concluso l'assistente del Presidente dell'Azerbaigian.

Per quanto riguarda Metsamor, ormai da molti anni questa struttura è una delle centrali nucleari più pericolose al mondo e rappresenta una grave minaccia per tutta la regione, poichè la stessa è situata in un'area soggetta a terremoti, moralmente e fisicamente obsoleta, di cui parlano anche molte organizzazioni internazionali e l'Unione Europea.

E' importante ricordare che il distretto di Tovuz, bersaglio dei recenti attacchi militari dell'Armenia, è un'area di importanza strategica, perché attraversata dall'intera infrastruttura per la distribuzione delle risorse energetiche dell'Azerbaigian e del Mar Caspio nei paesi occidentali e nel mercato mondiale e per i collegamenti ferroviari e autostradali che connettono l'Est all'Ovest: l'oleodotto Baku-Tbilisi-Ceyhan (che rifornisce l'Europa, principalmente l'Italia), l'oleodotto Baku-Supsa, il gasdotto Baku-Tbilisi-Erzurum, il gasdotto South Caucasus Pipeline, prima parte del Corridoio Meridionale del Gas, di cui fa parte anche il Trans-Adriatic Pipeline - TAP (che giunge in Italia), così come la ferrovia Baku-Tbilisi-Kars e l'autostrada Baku-Tbilisi - progetti che aspirano a dare origine ad una nuova Via della Seta. Per cui l'obiettivo dell'Armenia è volto anche a destabilizzare questa area e impedire il funzionamento di questi progetti fondamentali, che creano accesso a nuovi mercati e a fonti di energia alternative per l'Europa. Non è un caso che l'Armenia abbia avviato un'operazione militare contro l'Azerbaigian tre mesi prima dell'inizio delle forniture di gas dell'Azerbaigian in Europa, inclusa l'Italia.

In questi giorni si sono diffuse numerose minacce da parte dell'Armenia di colpire anche la stazione idroelettrica di Mingachevir in Azerbaigian, che rappresenta la più grande centrale idroelettrica del Caucaso meridionale.

Le autorità dell'Armenia hanno dichiarato varie volte che "trasformeranno le città dell'Azerbaigian in rovine, come Adgam". E' di particolare rilievo denunciare questo atteggiamento proprio oggi, che ricorre il 27° anniversario dell'occupazione della città di Agdam, che da principale centro economico-culturale del Karabakh, è diventata una città fantasma, depredata e distrutta dall'esercito dell'Armenia e perciò definita "L'Hiroshima del Caucaso", alla cui occupazione fa riferimento la risoluzione n. 853 del consiglio di Sicurezza dell'ONU del 29 luglio 1993, che richiede l'immediato, completo e incondizionato ritiro delle forze armate dell'Armenia, ma che è ancora ad oggi inascoltata. " **Così in una nota l'Ambasciata della Repubblica dell'Azerbaigian.**

**Ultime Notizie**

**I disturbi del neurosviluppo nella routine dei controlli periodici: nuova strategia nazionale con i Pediatri di famiglia per il riconoscimento precoce**

(ASI) Roma. "Nei controlli pediatrici di routine entrerà anche il monitoraggio dei disturbi del neurosviluppo. Un nuovo strumento sarà infatti a disposizione dei Pediatri di Famiglia per la sorveglianza neuroevolutiva... POLITICA NAZIONALE

**Primo Camp Nazionale Daniele Cassioli**

(ASI) Si svolgerà a Tirrenia dal 25 al 30 luglio il primo Camp estivo "Daniele Cassioli" organizzato dalla neonata associazione "Real Eyes Sport" presieduta dal non vedente campione di sci... EVENTI

**Stati Uniti: "Cambiare governo in Cina". Sale la tensione Washington – Pechino, Borse Ue in profondo rosso**

(ASI) La tensione è cresciuta, in queste settimane, a causa dell'atteggiamento ostile di Pechino nei confronti di Hong Kong e per le responsabilità, attribuite da Washington al Dragone, in merito... POLITICA ESTERA

**Maduro lancia nuova missione agroVenezuela**

(ASI) Il primo mandatario venezuelano Nicolas Maduro per superare la grave crisi che ha colpito il paese ha lanciato il nuovo programma agroVenezuela per la produzione e l'esportazione di generi... POLITICA ESTERA

AZƏRTAC xəbər verir ki, məlumatlarda media vasitələrinin dezinformasiyadan çəkinməsinin çox vacib olduğu bir dövrdə Ermənistan tərəfindən davamlı olaraq Azərbaycana qarşı uydurma media kampaniyasının davam etdiyi və növbəti absurd xəbərlərdən birinin də Azərbaycan tərəfinin Ermənistandakı Metsamor Atom Elektrik Stansiyasına raket atması ilə hədələməsi xəbəri olduğu bildirilib.

Məlumatlarda Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən bu yalan xəbərin təkzib olunduğu diqqətə çatdırılaraq, əslində Ermənistanın öz cinayətlərini ört-basdır etmək, Azərbaycanın neft-qaz strukturları və əhəmiyyətli obyektlərini hədəf alacağı ilə bağlı fikirlər səsləndirdiyini vurğulayıb. H.Hacıyevin fikirlərinə istinadən, Azərbaycanın hər hansı bir strateji obyekti hədəf göstərmək siyasətinin olmadığı, Ermənistanın qəsdən Metsamor məsələsini şouya çevirdiyi, əslində köhnəlmiş texnologiyaya məxsus bu strukturun bölgə üçün ciddi təhlükə yaratdığı və radioaktiv maddələrin qaçaqmalçılığı üçün bir vasitəyə çevrildiyi qeyd edilib. Metsamor Atom Elektrik Stansiyasına gəldikdə, yazılarda bir çox beynəlxalq təşkilatlar və Avropa İttifaqı tərəfindən də qeyd olunduğu kimi, onun aktiv seysmik zonada yerləşməsi ilə yanaşı, istismar müddəti başa çatması səbəbindən bütün bölgə üçün ciddi təhlükə yaratdığı, bu səbəblərdən uzun illərdir dünyanın ən təhlükəli nüvə stansiyalarından biri hesab olunduğu bildirilib.

Məlumatlarda, eləcə də Ermənistanın son hərbi təxribatlarının hədəfi olan Tovuz rayonunun, xüsusilə də Azərbaycandan və Xəzər dənizindən enerji qaynaqlarının beynəlxalq bazarlara, o cümlədən Avropaya nəqli, xüsusilə də İtaliyaya xam neft daşıyan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Supsa neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, İtaliyaya qədər uzanan Trans-Adriatik boru kəmərinin də daxil olduğu Cənub Qaz Dəhlizinin başlanğıc hissəsi olan Cənubi Qafqaz boru kəməri, habelə İpək Yolunun yenidən canlandırılmasına əsas yaradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Bakı-Tbilisi magistralı kimi Şərqi Qərblə birləşdirən nəqliyyat dəhlizinin keçməsi nöqteyi-nəzərindən strateji ərazi olduğu xatırlanıb.

Məlumatlarda bildirilib ki, Ermənistanın bu hərbi təxribatları yeni bazarlara və alternativ enerji mənbələrinə çıxışı təmin etmək baxımından Avropa üçün də vacib olan bu layihələrin fəaliyyətinin qarşısını almaq məqsədi daşıyır və Azərbaycandan bir çox ölkələrə, o cümlədən İtaliyaya qaz nəql edəcək dəhlizin tam fəaliyyətə başlamasından 3 ay əvvəl baş verməsi təsadüfü deyil.

Yazılarda, eləcə də son günlərdə Ermənistan tərəfindən Cənubi Qafqazdakı ən böyük su elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını vurmaqla bağlı çoxsaylı təhdidlərin də yayıldığı qeyd olunub.

Həmçinin bildirilib ki, Ermənistan tərəfindən dəfələrlə "Azərbaycan şəhərlərini Ağdam kimi xarabalığa çevirəcəklərinə" dair bəyanatların verildiyi, Ermənistan ordusunun talan etdiyi, dağıdılmış Qarabağın əsas iqtisadi-mədəni mərkəzi və "Qafqazın Hiroşima"sı adlandırılan Ağdam düz 27 ildir ki işğal altındadır. Ağdamın işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurasının 29 iyul 1993-cü il tarixli 853 nömrəli qətnaməsinin qəbul edildiyi və Ermənistan silahlı qüvvələrinin bu ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasının tələb edildiyi vurğulanıb.



# Sevinc Fətəliyeva: "Dövlətimiz əsgər ailələrinə hər zaman həssaslıqla yanaşır"

"Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin davam etməsi, eləcə də qarşı tərəfdən atəşkəsin mütəmadi olaraq pozulması nəticəsində ərazilərimizdə yaşayış məntəqələrinə, infrastrukura ciddi ziyan dəyib. İyulun 12-dən etibarən Ermənistan Respublikası Silahlı Qüvvələri Tovuz rayonu istiqamətində xaincəsinə, qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrimizi, dinc əhalini iri çaplı silahlardan və ağır artilleriya qurğularından intensiv atəşə tutub. Bunun nəticəsində də həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə ciddi ziyan dəyib. Dəymiş ziyanın aradan qaldırılması məqsədilə Ölkə Prezidenti tərəfindən "Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikasının Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu Sərəncamla mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın qısa müddətdə qiymətləndirilməsi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə tapşırılıb". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, artıq dövlət başçısının Sərəncamının icrası ilə bağlı Tovuz rayonunda işlərə başlanılıb və təcili tədbirlər görülür. Bu məqsədlə işçi qrup yaradılıb, mütəxəssislər cəlb edilib, ekspertlər Tovuz rayonuna ezam olunublar. Vəziyyətlə bilavasitə yerində tanış olmaq ucun hücuma məruz qalmış yaşayış məntəqələrində hərbi təcavüzdən zərər çəkmiş dinc əhalinin, onların əmlaklarının, dövlət obyektlərinin vəziyyəti öyrənilir, ekspertlər tərəfindən obyektlərə müayinə və ekspertiza işləri aparılır. Dəymiş ziyanın qısa müddətdə qiymətləndirilməsi təmin ediləcək və buna uyğun olaraq hökumət tərəfindən Tədbirlər Planı hazırlanacaq.

"Verilən məlumatlardan da göründüyü kimi əsas ziyan Tovuz rayonunun Ağdam, Əlibəyli, Dondar Quşçu, Vahidli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərinə dəyib. İlkin qiymətləndirmələrə görə, dinc əhaliyə məxsus 35 evin müxtəlif dərəcədə ziyan çəkdiyi müəyyən edilib. Ermənilərin intensiv atəşi nəticəsində dövlət əmlakına da zərər dəyib. Bu ərazidə vətəndaşlara və dövlət əmlakına dəymiş zərərin aradan qaldırılması işləri dövlət başçısının şəxsi nəzarətindədir. Mülki əhaliyə və dövlət əmlakına dəymiş ziyanın aradan qaldırılması üçün bütün qüvvələr səfərbərliyə alınıb. Şübhə yoxdur ki, dəymiş zərər tezliklə aradan qaldırılacaq, infrastruktur və evlər bərpa olunacaq. Beləliklə də, həmin ərzilərdə həyat tamamilə öz məcrasına qayıdacaq", -deyən millət vəkilinin sözlərinə görə, bütün bunlar bir daha göstərir ki, Azərbaycan dövləti vətəndaşının yanındadır. Dövlətimiz Azərbaycanının ərazı bütövlüyü uğrunda vuruşanları, canını fəda edənləri heç vaxt unutmur, onlara və ailələrinə hər zaman həssaslıqla yanaşır.

S.Fətəliyeva onu da qeyd edib ki, Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan bütün hərbi qulluqçuların ailələrinin qayğıları öyrənilir və onların həlli istiqamətində addımlar atılır. Dövlət başçısı İlham Əliyevin tapşırığı ilə şəhid general Polad Həşimov və şəhid polkovnik İlqar Mirzəyevin ailəsinə ev verilib. Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Tovuz istiqamətində şəhid olan 12 hərbçi ilə bağlı Heydər Əliyev Fonduna tapşırıq verib. Şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğıları daim Fondun nəzarətində olacaq.

"Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində həlak olmuş şəhid hərbi qulluqçuların ailələrinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə müvafiq tədbirlərə başlanıb. Bütövlükdə, Azərbaycan dövləti ölkə ərazisində vətəndaşlarının təhlükəsiz yaşamasının qarantıdır. Tovuza, tovuzlulara dəyən zərər tezliklə aradan qaldırılacaq. Xalqımız əmindir ki, vətəndaşlarımızın, qəhrəman hərbçilərimizin arxasında güclü Azərbaycan dövləti dayanır"-deyən, deputat xatırladıb ki, cəbhəyanı rayonlarda infrastruktur bərpa olunur, yeni qəsəbələr salınır, yeni təsərrüfatlar, müəssisələr yaradılır. Eləcə də, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri dövlət hesabına evlə təmin edilir. Aprel döyüşlərindən sonra "Böyük Qayıdış"ın rəmzinə çevrilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində görülən işlər əyani misaldır.

yap.org.az

***Ceyhun Rasimoğlu***

# İordaniya Haşimilər Krallığının Azərbaycandakı səfiri XİN-ə çağırıldı



Bu ilin 27 iyul tarixində İordaniya Haşimilər Krallığının Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Xarici İşlər Nazirinin müavini Araz Əzimov ilə səfir Sami Abdulla Goşeh arasında görüş keçirilib.XİN-dən SİA-ya verilən məlumata görə, görüşdə nazir müavini Araz Əzimov İordaniya səfiri ilə, o cümlədən bu ölkənin Ermənistana silah satışı məsələsini müzakirə edib. Nazir müavini, Ermənistanın işğalçı siyasətinin nəticələrinin aradan qaldırılmadığı və hələ də ərazilərimizin beşdə birinin düşmən işğalı altında qaldığı, yüz minlərlə azərbaycanlının məcburi köçkün vəziyyətində yaşadığı və Ermənistanın iki dövlətin beynəlxalq sərhədində sonuncu hərbi təxribatının bu ölkənin təcavüzkar niyyətindən əl çəkmədiyini növbəti dəfə açıq şəkildə nümayiş etdirdiyi bir vaxtda İordaniya tərəfinin işğalçı ölkəyə silah satması ilə bağlı yayılan xəbərlərin geniş ictimaiyyətdə narazılıqla qarşılandığını səfirin diqqətinə çatdırıb. İordaniya səfiri Azərbaycan tərəfinin narahatlığını anladığını qeyd edib. Azərbaycanla mövcud olan əlaqələrin strateji xarakterini nəzərə alaraq, mövcud narahatlığın aradan qaldırılması üçün bütün səylərini göstərəcəyini vəd edib.

# Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmvətənlərimizə müraciəti birliyimizin və həmrəyliyimizin gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir

*Milli Məclisin deputatı Ceyhun Məmmədovun yap.org.az-a müsahibəsi*

***- Ceyhun müəllim, bildiyimiz kimi işğalçı Ermənistanın Tovuz rayonu istiqamətində hərbi təxribatının qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alındı. Tovuz döyüşləri xalqımızda, o cümlədən gənclərimizdə hərbi-vətənpərvərlik ruhunu daha da yüksəltdi. Bu barədə fikirlərinizi bilmək istərdik...***



- Ermənilərin bu hücumları təşkil etməkdə əsas məqsədi əhali arasında xof və çaşqınlıq yaratmaq, yeni ərazilər işğal etmək idi. Ancaq fəxrlə deyə bilərik ki, ermənilər bu dəfə də öz məqsədlərinə nail ola bilmədilər, bütün təxribatların qarşısı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alındı. Azərbaycan xalqı bir daha mərd və vətənpərvər olduğunu düşmənə layiqincə cavab verərək göstərdi. Deyə bilərəm ki, Aprel döyüşləri zamanı sarsıdıcı zərbə alan, hələ də bu günə kimi özünə gələ bilməyən erməni tərəfi növbəti dağıdıcı zərbəni Tovuzda aldı. Aprel zəfəri kimi, Tovuz döyüşləri də Azərbaycan tarixində silinməz izlərlə qalacaq.

2016-cı ilin Aprel döyüşlərində olduğu kimi, bu dəfə ermənilərin bütün cəhdlərinə baxmayaraq Azərbaycn xalqı dövlətlə birlik və həmrəylik nümayiş etdirdi. Bu döyüşlər gənclərimizdə-hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi. Gənclərimiz hər an vətənin azadlığı və müstəqilliyi uğrunda döyüşməyə, canlarından keçməyə hazır olduqlarını göstərdilər.

Aprel döyüşləri kimi iyul döyüşləri də illər ötməsinə baxmayaraq, Azərbaycan xalqınını heç zaman işğalla barışmayacağını, ermənilərin bu xalqın döyüş əzmini heç zaman qıra bilməyəcəklərini, birlik və həmrəyliklərini poza bilmiyəcəklərini göstərdi. Minlərlə gəncin gəncin cəbhə bölgəsinə axışması, küçələrə çıxaraq ölkə rəhbərliyi və xalqla birlik və həmrəylik etdirməsi bu fikri bir daha təsdiq etdi.

Onu da qeyd edim ki, iyun ayının 19-u bir qrup deputat həmkarımızla Tovuz və Ağstafa rayonlarına səfər etdik. Öncə şəhid Məmmədov Elşad Dönməz oğlunun, sonra ermənilərin atdığı mərmi nəticəsində dünyasını dəyişən 76 yaşlı Əziz Əzizovun ailəsinə baş çəkdik, həmin kəndin şəhidlər məzarlığını zayarət etdik. Sonra Tovuzun Cəlilli kəndində gizir Zeynallı İlqar Ayaz oğlu, Ağstafa rayonunun Kolxəlfəli kənd sakini İsmayılov Nazim Əfqan oğlu, Yuxarı Göyçəli kənd sakini Sadıqov Vüqar Lətif oğlu, Həsənsu kənd sakini Mustafazadə Elçin Arif oğlu, Köçəskər kənd sakini Babayev Yaşar Vasif oğlunun ailələrinə baş sağlığı verdik. Geri dönərkən Gəncə hərbi hospitalına baş çəkdik. Orada müalicə alan əsgərlərimizin səhhəti ilə maraqlandıq. Əhalinin əhval-ruhiyyəsinin, döyüş əzminin ən yüksək səviyyədə olduğuna bir daha əmin olduq. Həm ordumuzun, həm şəhid ailələrinin, həm də mülki vətəndaşlarımızın dövlətimizin diqqət və qayğısı ilə tam əhatə olunduğunu gördük. Bu gün Azərbaycan dövləti öz vətəndaşının yanındadır, ona lazım olan diqqət və qayğını göstərir. Prezident İlham Əliyevin Tovuzla bağlı son sərəncamları bunu bir daha təsdiqləyir.

***- Hazırda xaricdə yaşayan azərbaycanlılar Azərbaycan dövləti ilə həmrəylik göstərmək, Ermənistanın işğalçılıq siyasətinə etiraz etmək üçün müxtəlif ölkələrdə dinc aksiyalar təşkil edirlər. Amma bundan qıcıqlanan erməni tərəfi soydaşlarımıza qarşı zorakılıq, vandallıq törətdilər. Bu hadisələrə münasibətiniz necədir?***

- Son günlər dünyanın ayrı-ayrı ölkələrində baş verən hadisələr ermənilərin faşist mahiyyətini bir daha açıb ortaya qoydu. Adətən ermənilər dünyaya haray çəkirdilər ki, azərbaycanlılarla yaşamaq mümkün deyil, guya onlarla aqressiv davranırlar. Əslində, baş verənlər bir daha göstərdi ki, ermənilərin özləri aqressiv və vandalizmə meyilli xalqdırlar. Məhz xaricdəki fəal gəclərimizin aksiyalarında onların davranışları bunu bir daha sübüt etdi. ABŞ da olan məlum olay ermənilərin hansı psixologiya və təfəkkürlə yaşadıqlarını da nümayiş etdirdi.

Eyni zamanda, Azərbaycanın diplomatik uğurlarının artdığını hər kəs görmüş oldu. Çünki son yaşananlar onu göstərdi ki, diasporamız ermənilərə qarşı daha artıq müqavimət göstərə bildi. Dünya ictimaiyyəti bir daha şahid oldu ki, Azərbaycan xalqı sülhpərvər, ermənilər isə aqressiv və vəhşi bir toplumdur. Ermənilərin barbarcasına təşkil etdikləri aksiyalarda üzərində "Asala" terror təşkilatının adı yazılmış köynəklər geyinməsi onların terror, vandalizmə nə qədər sadiq olduqlarını göstərdi.

Gördüyünüz kimi, azərbaycanlılar sakit, dinc mitinqlər təşkil edirlər. Ermənilər isə bizim fəalların, tərəfdaşlarımızın aksiyasına aqressiya ilə yanaşır, kut alətlərə hücumlar təşkil edirlər. Eyni zamanda, ermənilər azərbaycanlıların belə bir fəal mübarizə formasında meydana çıxacaqlarını gözləmirdilər. Azərbaycanlıların vahid birlik nümayiş etdirməsi sözsüz ki, düşməni ciddi narahat etməyə başladı. Baş verənlərdən istifadə edərək erməni vəhşiliyini biz məhz bu kontekstdən bütün dünyaya bəyan etməliyik. Onların həm Dağlıq Qarabağda, Xocalıda insanlara, dinc əhaliyə qarşı misli görünməyən soyqırım və insanlıq əleyhinə cinayətlər törətdiyini bütün dünyaya bir daha bəyan etməliyik.

Ermənilər son hadisələrdə öz vəhşilikləri ilə onların həqiqi mahiyyətini ifşa etmək üçün bizə xeyli yeni fakt verdilər. Müxtəlif kanallarla erməni yalanlarının ifşası, təxribatlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində səylərimizi daha da gücləndirməliyik.

***- Erməni təxribatçılarının dinc aksiya iştirakçılarına qarşı zorakılıq törətməsi, soydaşlarımıza xəsarət yetirməsi həm də ciddi qanun pozuntusu, hüquqazidd əməllərdir. Həmin ölkələrin hüquq-mühafizə orqanlarının hadisələrə yanaşmasını necə qiymətləndirmək mümkündür?***

- Bir sıra ölkələrin hüquq mühafizə orqanları ermənilərin törətdikləri zorakılıq hallarının qarşısının alınması üçün zəruri tədbirlər gördülər. Güclü iğtişaşların baş verməməsi üçün zəruri tədbirlər gördülər.

Ancaq təəssüfkü bəzi ölkələrin hüquq mühafizə orqanları iğtişaşların və ermənilərin təxribatlarının qarşısını ala bilmədilər. Baxmayaraq ki, əvvəldən onlar bu iğtişaşlar barədə məlumatlandırılmışdılar. Həmin ölkələrin müvafiq qurumları ciddi tədbirlər görsəydilər bu kimi hallar baş verməz, ermənilər bu qədər azğınlaşmazdılar.

Cəza tədbirlərinə gəldikdə, bir sıra ölkələr adekvat və operativ reaksiya verdilər. Tez bir zamanda qanunu pozanlar tapılıb cəzalandırıldı və hazırda proses davam edir. Bir sıra ölkələrdə isə araşdırmalar davam edir. Belə halların gələcəkdə bir daha təkrarlanmaması üçün mütləq günahkarlar tapılmalı və cəzalandırılmalıdırlar. Bununla bağlı Azərbaycan tərəfi aidiyyəti qurumlara müvafiq müraciətlər ünvanlayıb. İnanırıq ki, tez bir zamanda bütün günahkarlar tapılacaq və cəzalandırılacaqlar.

***- Bu hadisələr erməni təxribatının xaricdə də davam edə biləcəyini göstərdi. Sizcə, belə bir şəraitdə Azərbaycan diasporu, diplomatik nümayəndəliklərimiz bundan sonra hansı addımlar atmalıdır? Bu baxımdan, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həmvətənlərimizə müraciətinin əhəmiyyəti nədən ibarətdir?***

- Son günlər baş verənlər göstərdi ki, bu kimi hadisələrin davamlı baş verme ehtimalı kifayət qədər yüksəkdir. Ermənilər ənənələrinə sadiq qalaraq növbəti təxribatlar törədə bilərlər. Diplomatik nümayəndələrimiz və diaspor təşkilatlarımız diqqətli olmalı, belə hadisələrin baş verme ehtimalları barədə fəaliyyət göstərdikləri və yaşadıqları ölkələrin müvafiq strukturlarını məlumatlandırmalıdırlar. Həm səfirliyimizin əməkdaşları, həm də diasporumuzun nümayəndələri ayıq-sayıq olmalı, təxribata uymamalıdırlar.

Qeyd etdiyiniz kimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələrlə bağlı həmvətənlərimizə çox aktual və adekvat müraciəti oldu. Müraciətdə qeyd edilir ki, azərbaycanlıların öz Vətənini dəstəkləmək üçün müvafiq dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmış dinc, vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib.

Bildirildiyi kimi, erməni təbliğat-təşviqat şəbəkəsi 30 ildən artıqdır ki, bu amansız cinayətlərə haqq qazandırmağa çalışaraq çoxsaylı diasporunun köməyi ilə məkrli anti-Azərbaycan təbliğatı aparır. Sirr deyil ki, ölkəmizə qarşı böhtan kampaniyalarının mütləq əksəriyyəti də məhz erməni diasporu tərəfindən inspirasiya edilir və maliyyələşdirilir.

Mehriban xanım haqlı olaraq müraciətində çoxsaylı qeyri-hökumət təşkilatlarını, o cümlədən insan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıb. Lakin nədənsə hələ onların səsləri eşidilmir. Halbuki, biz həmin beynəlxalq QHT-lərin Azərbaycanda insan haqlarının vəziyyəti ilə bağlı qeyri-obyektiv hesabatlarının şahidi olmuşuq. Əgər onlar bəyan etdikləri kimi, həqiqətən insan haqlarının müdafiəsi ilə məşğuldurlarsa ermənilərin soydaşlarımıza qarşı zorakılığına münasibət bildirməlidirlər.

Mehriban xanım Əliyeva müraciətində həmçinin, bütün dünya azərbaycanlılarını birgə hərəkət etməyə, azğınlaşmış düşmənə layiqli cavab vermək üçün bizim diasporun bütün potensialını birləşdirməyə çağırıb. "Unutmamalıyıq ki, qeyri-insani nifrət hissini əsas götürən vəhşilərə və banditlərə bənzəmək olmaz. Bizim mübarizəmiz yalnız hüquq müstəvisi çərçivəsində aparılmalıdır"-deyə, müraciətdə vurğulanır.

Təbii ki, Mehriban xanım Əliyevanın dəyərli çağırış və tövsiyələrinə mütləq əməl edilməlidir. Çünki düşmən çox hiyləgər və məkrlidir, məqsədə çatmaq üçün hər təxribata hazırdır. Bütövlükdə isə, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmvətənlərimizə müraciəti birliyimizin və həmrəyliyimizin güclənidirilməsi, baş hadisələrin obyektiv qiymətləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

## Tomas Qolts: **ASALA bütün dünyaya təhdiddir**



ASALA terror təşkilatı bütün dünyaya təhdiddir. Bunu Trend-ə amerikalı jurnalist, Montana Universitetinin professoru, ADA Universitetinin fəxri doktoru Tomas Qolts deyib. O bildirib ki, ASALA-nın fəaliyyəti təkcə Avropada deyil, həm də ABŞ-da yayılıb:

"Bu təşkilat demək olar ki, erməni diasporunun yaşadığı bütün ölkələrdə fəaliyyət göstərir. Onlar hələ də 1915-ci il qondarma "erməni soyqırımı" ilə bağlı qisas almağa çalışır". T.Qoltsun sözlərinə görə, təəssüf ki, ASALA bütün dünyada erməni icmaları üçün "demək olar ki, doğma" ekstremist qrupdur və icmalardan dəstək alır. Jurnalist bildirib ki, ASALA-nın "yatmış" qollarının gizli xarakteri sayəsində bu təşkilatın terror aktlarının qarşısının alınması çətinlik yaradır.

# Hikmət Babaoğlu: “Radikallar və xaricədə yaşayan bəziləri sinxron hərəkət edir, xalqımızın milli davasını hədəfə alırlar”



“Hazırda Azərbaycan bütün milli resursları-nı, o cümlədən diplomatik və informasiya resurslarını səfərbər edərək müxtəlif platformalarda erməni təxribatlarına cavab verir. Ön cəbhədə olduğu kimi, informasiya cəbhəsində də qətiyyətli və tutarlı addımların atılması düşmənə verilən olduqca mühüm cavab kimi qiymətləndirilməlidir”. Bu fikirləri Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. O qeyd edib ki, bu prosesdə xalqımız öz milli birliyini və həmrəyliyini nümayiş etdirərək dünyanın bir çox ölkələrində dinc nümayişlər keçirməklə Ermənistanın işğalçılıq siyasətini ifşa edir, beynəlxalq hüquqla tanınan haqqını tələb edir. Ərazi bütövlüyümüzn bərpa olunmasını istəyir: “Bu haqq milli haqqımız, bu dava milli davamızdır. Ancaq təəssüf ki, içərimizdə olan “beşinci kolon” nümayəndələri və xaricdə yaşayan bəzi fəal fərdlər milli mübarizəmizdə ermənilərin lehinə olan addımlar atır, bəyanatlar verirlər. Başda Əli Kərimli olmaqla bir qrup radikal xalqımızın nümayiş etdirdiyi milli birlikdən narahatlıq hissi keçirir, onun qətiyyətinə, mübarizə əzminə kölgə salmağa çalışır. Xaricdə yaşayan Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İskəndərli və digər bəziləri azərbaycanlıların keçirdikləri dinc nümayişləri ermənilərin prizmasından qiymətləndirirək onu gözdən salmağa çalışır, gərəksiz və lüzumsuz addım kimi qiymətləndirirlər. Belə yanaşma, əslində, xalqımızın milli davasına xəyanətdir”.

“Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, müxtəlif internet resurslarında fəal olan bu şəxslər, sanki, eyni mərkəzədən direktiv almış kimi sinxron hərəkət edir, xalqımızın milli davasını və milli maraqlarını hədəfə alırlar. Son günlər həmin şəxslərin mətbu fəaliyyətlərinin məhz dinc nümayişçilərimizin fəaliyyətinin tənqidinə, onun gözdən salınmasına fokuslanması bir daha onların azərbaycanafob mərkəzlərlə sinxron hərəkət etmələrini ortaya qoyur. Ancaq Azərbaycan xalqının milli yaddaşı bütövdür, obyektiv əsaslarda formalaşıb. Milli mübarizəmizdə kimin nə vaxt ona xəyanət etdiyini yaxşı yadında saxlayır və lazımi şəkildə cəzalandırmağı bacarır. Bu gün bu cəza ictimai qınaqdırsa, sabah seçki qutularının başında ona xəyanət edənlərin boykot olunmasıdır. Ona görə də hər kəs əmin olsun ki, xalqımızın nümayiş etdirdiyi bu milli birlik və həmrəylik qələbəmizi və ərazi bütövlüyümüzü təmin edəcək, ona mane olanlar isə yenə də siyasi sistemimizin autsayderləri olaraq qalacaqlar”,-deyə Hikmət Babaoğlu bildirib.

# DTX: Təxribat xarakterli paylaşımlar edən şəxslərin müəyyənləşdirilməsi davam etdirilir



Bəzi internet resurslarında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kiçik qızı Arzu Əliyevanın adından sosial şəbəkədə yayılmış müraciətdə, guya istifadəçilərə hərbi məsələlərlə bağlı paylaşım etməməyə çağırışlar yer almışdır. SİA bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadən məlumat verir. Məlumatda bildirilir ki, aparılmış ilkin araşdırmalarla qeyd olunan məlumatların saxta profillərdən istifadə edilməklə ictimai rəyi çaşdırmaq və sensasiya naminə yayımlandığı və belə məlumatların Arzu Əliyevaya heç bir aidiyyətinin olmadığı müəyyən edilmişdir: “Bildirirk ki, hazırda sosial şəbəkələrdə bu cür təxribat xarakterli paylaşımları edən şəxslərin müəyyənləşdirilməsi və barələrində qanuna müvafiq tədbirlərin görülməsi üçün fəaliyyət davam etdirilir”.

# YAP Gənclər Birliyi əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlara çağırış etdi

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlara son günlər erməni təxribatçılarının həm Azərbaycanla sərhəddə, eləcə də dünyanın müxtəlif şəhərlərində törətdikləri iğtişaşlarla əlaqədar çağırış edib. Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi DEMYC (Avropa Demokratik Gənclər Qurumu), IYDU (Beynəlxalq Gənc Demokratlar Birliyi), YEPP (Avropa Xalqları Partiyasının Gəncləri), ICAPP YW (Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının Gənclər Qolu), YOUTH CDI (Beynəlxalq Mərkəzçi Demokrat Gəncləri), SCO (Şanxay Əməkdaşlıq Təşkilatı), Rusiya, Türkiyə, İtaliya, Portuqaliya, Bosniya və Hersoqovina, Qazaxstan, Qırğızstan, Ukrayna, Rumıniya, Almaniya, Livan, İsrail və s. ölkələrin gənclər təşkilatları ilə əməkdşlıq edir. Bu təşkilatlara erməni təxribatına son qoyulması, erməni vandalizminin qarşısının alınması məzmununda çağırışlar ünvanlanmışdır.

Yeni Azərbaycan Partiyası
GƏNCLƏR BİRLİYİ

Çağırışda deyilir ki, iyul ayının 12-si 2020-ci il tarixindən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində hərbi təxribatlara başlamasına, eləcə də, bir çox xarici ölkələrdə Azərbaycanın diplomatik nümayəndəlikləri qarşısında erməni aqressiyasının şahidi olduq. Belə ki, Fransa, İngiltərə, İsveç, Polşa, Avstraliya, ABŞ, Hollandiya, Belçikada Azərbaycanın diplomatik nümayəndəliklərinin binalarına, habelə bu ölkələrdə dinc şəkildə fikirlərini bildirən azərbaycanlı nümayişçilərə qarşı erməni təxribatçıları tərəfindən törədilmiş zorakılıqlar bilavasitə vandalizm və terror ünsürlərini özündə əks etdirir, Azərbaycan icmalarının üzvlərinə, diplomatlara və əmlaklarına qəsdən ziyan vurmaq məqsədi daşıyan cinayət məsuliyyətinə səbəb olan hərəkətlər kimi xarakterizə olunur.

Bütün bu faktları əsas tutaraq, Azərbaycan tərəfi, müvafiq ölkələrin hüquq-mühafizə orqanları tərəfindən radikal erməni qruplarının törətdikləri vandalizm aktlarının araşdırılmasını və bu cinayətləri törədənlərin əməllərinə hüquqi qiymət verilməsini tələb edir.

# Zakir Həsənov Türkiyə tərəfinə başsağlığı verib



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Mərsinin Mut bölgəsində əsgərləri daşıyan avtobusun qəzaya uğraması nəticəsində qardaş Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının şəhid olması və yaralanması ilə əlaqədar Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülərə başsağlığı ünvanlayıb. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, başsağlığında deyilir: “Mərsinin Mut bölgəsində əsgərləri daşıyan avtobusun qəzaya uğraması nəticəsində qardaş Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının şəhid olması və yaralanması haqqında məlumat məni dərindən kədərləndirir. Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbr diləyirik. Ruhları şad, xatirələri əziz olsun. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm. Sizin acınız bizim də acımızdır. Allah rəhmət eləsin”.

# Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri erməniləri təşvişə salıb

Azərbaycanda Türkiyə hərbçilərinin iştirakı ilə genişmiqyaslı hərbi təlimlər keçiriləcək, deyə Ermənistan cəmiyyəti təşviş içindədir. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayılan informasiyaya istinadən xəbər verir ki, qardaş ölkə ilə Azərbaycanın birgə hərbi təlimlər keçirəcəyi barədə məlumatları Ermənistanın Müdafiə Nazirliyi yayıb. Məlumatda qeyd olunur ki, quru qoşunlarının iştirakı ilə təlimlər 1-5 avqust tarixlərində Bakı və Naxçıvanda keçiriləcək. Ermənistanın Müdafiə Nazirliyindən həmçinin bildirilir ki, iyulun 29-dan avqustun 10-dək Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlaxda keçiriləcək təlimlərdə hərbi aviasiya iştirak edəcəkdir. İşğalçı



ölkənin Müdafiə Nazirliyi qorxu hissi ilə qeyd edib ki, təlimlərin bir hissəsi olaraq canlı atəş açılması planlaşdırılır. Həmçinin açıqlanır ki, birgə təlimlərdə şəxsi heyət, zirehli maşınlar, artilleriya qurğuları və minaatanlar, habelə iki ölkənin Silahlı Qüvvələrinin hərbi aviasiyası və hava hücumundan müdafiə vasitələri iştirak edəcəkdir.

# Azərbaycan xalqı xarici ölkələrə sığınıb dövlətimizə və millətimizə qarşı böhtan atan bu ünsürlərin əsl riyakar, xain mahiyyətinə dərindən bələddir

Ermənistanın Tovuz rayonu istiqamətində təxribatının nəticəsiz qalması, hətta bu döyüşlərin düşmən üçün məğlubiyyətlə yekunlaşması, eyni zamanda, Azərbaycanda və dünyada azərbaycanlıların ordusuna, öz dövlətinə və Ali Baş Komandanına dəstək ifadə etmələri erməni lobbisini və havadarlarını ciddi şəkildə təşvişə salıb. Odur ki, ermənilər Azərbaycana qarşı əsas silahlarını aktivləşdirməyə- xaricdəki anti-Azərbaycan şəbəkənin daxilimizdəki antimilli ünsürlərlə sinxron şəkildə Azərbaycan dövlətinin və xalqının üzərinə hücumunu təşkil etməyə başlayıblar. Son günlər Əli Kərimli, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli, Tural Sadıqlı, Qənimət Zahid və digər bu kimi Azərbaycan düşmənləri ermənilərin tapşırığı ilə, erməni siyasi mətbəxinin tezisləri əsasında bəyanatlar verir və çıxışlar edirlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, bu üzdəniraq “azərbaycanlılar” xaricdəki həmvətənlərimizin Ermənistanın işğalçılıq siyasətinin əleyhinə olan aksiyalarını xuliqanlıq, quldurluq, vətənşüvənlik kimi qələmə verirlər: “Ötən həftə canlı yayım zamanı çıxış edən Sevinc Osmanqızı şübhəsiz, erməni siyasi mətbəxinin tezisləri əsasında danışaraq deyirdi ki, sizi inandırıram, heç erməni tərəfində belə təxribat niyyəti yoxdur və bu gün sivil mübarizə qaydasını pozan, bu qarşıdurmanı təşkil edən rəsmi Bakıdır. Azərbaycan dövlətinin və xalqının ünvanına yağdırılan bu şər-böhtanın adı açıq düşmənçilikdən başqa bir şey deyildir. Sevinc Osmanqızı ilə yanaşı, Ramiz Yunus, Cəmil Həsənli, Tural Sadıqlı kimi “sapı özümüzdən olan baltalar” da bu cür iyrənc fikirləri bölüşməkdədirlər. Bu şəxslər azərbaycanlıların vətənpərvərlik aksiyalarını ləkələməyə, onun mahiyyətini təhrif etməyə çalışır, bununla da, necə deyərlər, ermənilərin dəyirmanına su tökür, onların cinayətkar əməllərinə bəraət qazandırmağa cəhd edirlər. Əlbəttə ki, Azərbaycan xalqı xarici ölkələrə sığınıb dövlətimizə və millətimizə qarşı böhtan atan bu ünsürlərin əsl riyakar, xain mahiyyətinə dərindən bələddir. Amma istənilən halda diqqətli olmaq, antimilli ünsürlərin çirkin planlarının reallaşmasına imkan verməmək lazımdır.”

“Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ABŞ-ın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələrlə bağlı həmvətənlərimizə müraciəti istər erməni lobbisini, istərsə də “beşinci kolon”u ciddi şəkildə narahat etmişdir”, - deyən Vüqar Rəhimzadə əlavə edib ki, müraciətdən sonra əsas təxribatçılar beynəlxalq qanunlar qarşısında çətin vəziyyətə düşdülər: “Erməni millətçilərinin azərbaycanlılara qarşı nifrəti, aqressiyası o qədər artıb ki, onlar hətta özünü demokratiyanın beşiyi hesab edən Qərb ölkələrinin paytaxtlarında qanunsuzluq və hərc-mərclik törədirlər. Los-Ancelesdən, Brüsseldən və digər şəhərlərdən çəkilmiş, düşmənlərin həqiqi simasını göstərən zorakılıq və vandalizm kadrları xalqımıza qarşı onilliklər boyu aşılanan nifrət və Azərbaycanafobiya ideologiyasının hələ də Ermənistanda mövcud olduğunu və daha da şiddətləndiyini sübut edir. Bu da əlbəttə ki, Ermənistanın və erməni lobbisinin dünyada ciddi qınaqla, hətta sanksiyalarla qarşılaşmasına səbəb ola bilər. Mehriban xanım Əliyeva, eyni zamanda, hər gün insan hüquqlarından dəm vuran beynəlxalq təşkilatlara və QHT-lərə də müraciət etdi. Erməniləri narahat edən növbəti məqam da məhz budur. Burada artıq tərəflərdən biri fakt qarşısında qalacaq. Ya Avropa Şurası, ATƏT, “Freedom House”, “Amnesty International” və “Human Rights Watch” kimi beynəlxalq təşkilatlar Ermənistanla bağlı, ermənilərin vandalizm hərəkətləri ilə əlaqədar bəyanat verəcək, müvafiq sənəd qəbul edəcək, yaxud da bunu etməyib özlərinin ikiüzlü, ikili standartlara əsaslanan siyasət yürütdüklərini isbatlamış olacaqlar”.

Baş redaktor diqqətə çatdırıb ki, Mehriban xanım Əliyevanın çağırışına əsasən bütün dünya azərbaycanlıları birgə hərəkət etməli, azğınlaşmış düşmənə layiqli cavab vermək üçün diaspor-umuz bütün potensialını birləşdirməli, yağı düşmənə qarşı informasiya mübarizəmiz yalnız sivil metodlarla, hüquq müstəvisi çərçivəsində aparılmalıdır.

# Media nümayəndələrindən Prezidentə təşəkkür MƏKTUBLARI

***Məlum olduğu kimi, Azərbaycan Milli Mətbuatının 145 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlarla medianın inkişafında xüsusi xidmətləri olan bir qrup jurnalistə müxtəlif mükafatlar, fəxri adlar verilib. SİA-nın Prezidentin rəsmi saytına istinadla verdiyi məlumata görə, media nümayəndələri də öz növbəsində Prezidentə təşəkkür məktubları ünvanlayıblar. Həmin məktubların bir hissəsini təqdim edirik:***



**Sərvər Bayramov, Bakı, Azərbaycan**

Möhtərəm cənab Prezident.

İcazə verin, öncəliklə məni Azərbaycan Televiziyasının təmsilçisi olaraq "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif etdiyinizə görə Sizə həm öz adımdan, həm də çalışdığım televiziyanın bütün kollektivi adından təşəkkürümü bildirim.Məhz Sizin Azərbaycan mətbuatının inkişafına xidmət edən Sərəncam və tapşırıqlarınız nəticəsində medianın siması sürətlə dəyişir və çox sevinirik ki, vətənpərvər mətbuat və media nümayəndələri nəsli formalaşır. Ulu öndər Heydər Əliyevin KİV-ə qayğısının onun layiqli davamçısı olaraq Sizin tərəfinizdən davam etdirilməsi, sözün əsl mənasında Sizi mətbuatın dostuna çevirib.

Jurnalistlərin sosial problemlərinin həlli, onların fəxri adlar və mükafatlarla təltif edilməsi ilə bağlı sərəncamlarınız bizdə fəxarət hissi oyadır və media mənsublarının dövlətimizin ətrafında daha sıx birləşməsini təmin edir.Biz Azərbaycan Televiziyasının bütün kollektivi əmin edirik ki, bundan sonra da Sizin və ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanımızın tərəqqisi yolunda atacağınız addımlara dəstək verəcək, Sizin daxili və xarici siyasətiniz, aparılan islahatlar barədə cəmiyyətin maariflənməsi işinə layiqli töhfəmizi verəcəyik.

Cənab Prezident, biz həmişə Sizinləyik.

**Vüsalə Mahirqızı, APA Media Qrupun baş direktoru, Bakı şəhəri.**

Hörmətli cənab Prezident.

Azərbaycan mətbuatının yaranmasının 145 illiyinin qeyd edilməsi ilə bağlı imzaladığınız sərəncamlara, media adamlarına göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirəm. APA Media Qrupun əməkdaşları olaraq biz həmişə bu diqqəti hiss etmişik. Sizin sərəncamınızla gənc yaşda "Əməkdar jurnalist" fəxri adına layiq görülmüş azsaylı jurnalistlərdən biri olmağım, indi isə "Tərəqqi" medalı ilə təltif edilməyim tərcümeyi-halımın qürur duyduğum səhifələridir. Mən Sizə həm də baxışından, münasibətindən asılı olmayaraq bütün media sektoruna göstərdiyiniz diqqət, tolerantlıq, dostluq üçün təşəkkür edirəm.Bu günlərdə ölkəmiz üçün strateji əhəmiyyətli qərarlarınız, bütün sahələri əhatə edən islahatlarınız davam edir. Özünüzün ifadə etdiyiniz kimi, Sizin ən yaxın köməkçiləriniz olaraq bu islahat prosesinə işimizlə dəstək verə bildiyimizə inanırıq. Əminəm ki, biz Sizin qoruduğunuz və ən yaxşı təbliğatçısı olduğunuz bu dövlətdə hələ uzun illər proqressiv, kommunikasiyanın daha yaxşı qurulduğu mühitdə əməkdaşlıq edəcəyik.

Cənab Prezident, bu günlərdə təkcə Silahlı Qüvvələrimiz deyil, Azərbaycan xalqının hər bir nümayəndəsi Sizə həm də Ali Baş Komandan olaraq müraciət edir. Sizə Ali Baş Komandanımız olaraq davamlı qələbələr, özümə isə Sizdən qələbə xəbərinin açıqlandığı müsahibəni almağı arzu edirəm.

**AZƏRTAC-ın kollektivi adından Aslan Aslanov, İdarə Heyətinin sədri, Bakı şəhəri.**

Zati-aliləri.

Azərbaycan milli mətbuatının 145 illik yubileyi münasibətilə kollektivimizin üzvlərinin bir qrupunun fəxri adlara, "Tərəqqi" medalına və Prezidentin fərdi təqaüdünə layiq görülməsi haqqında sərəncamlarınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Sizin yüksək diqqət və qayğınız sayəsində agentliyin işinin müasir tələblər səviyyəsində qurulması üçün hər cür şərait yaradılıb. Kollektivimiz qarşısında duran vəzifələrin məsuliyyətini dərindən dərk edərək Sizin müdrik, uzaqgörən daxili və xarici siyasətiniz nəticəsində dünyanın sürətlə inkişaf edən ölkəsinə çevrilən, beynəlxalq aləmdə söz və nüfuz sahibi olan Azərbaycan həqiqətlərini daha geniş coğrafiyada yaymağı Vətən və xalq qarşısında, cənab Prezident, Sizin qarşınızda şərəfli borcu hesab edir.

Ali diqqətinizə məruzə edirəm ki, agentliyimiz üzvü olduğu beynəlxalq media təşkilatlarının saytlarında, eləcə də əməkdaşlıq alaqələri qurduğu 50 ölkənin 100-dən çox informasiya resursunda düşmənin Tovuz rayonu istiqamətində son hərbi təxribatı barədə xəbərlər yayılmasına nail olub və bu istiqamətdə işimizi davam etdiririk.

Möhtərəm cənab Prezident, sərhəddə ağır döyüşlər getdiyi bir vaxtda vətənpərvər insanlar dövlətimizə, ordumuza və şəxsən Sizə - Ali Baş Komandanımıza öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına axışdı.Bu, xalq-iqtidar birliyini nümayiş etdirən qürurverici mənzərə olaraq qəlbimizi riqqətə gətirdi.Bir qrup təxribatçı bu vətənpərvər addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə cəhd göstərsə də, öz məkrli niyyətinə çata bilmədi.Biz də bir jurnalist və vətəndaş olaraq səsimizi milyonların səsinə qatır, antimilli qüvvələrin bu təxribatını qətiyyətlə pisləyirik.

Sizin rəhbərliyinizlə həyata keçirilən demokratik islahatlar AZƏRTAC-ın dünya informasiya məkanında layiqli yer tutmasında mühüm rol oynamışdır.Hazırda öz kanalları ilə 8 dildə informasiya yayan agentliyimiz 5O-yə yaxın ölkənin milli xəbər agentliyi ilə informasiya mübadiləsi aparır, 3 beynəlxalq, 4 regional media qurumunda fəal təmsil olunur.Bütün bu uğurlar məhz Sizin sayənizdə dünya birliyində sayılıb-seçilən müasir müstəqil Azərbaycan dövlətinə, ölkəmizə beynəlxalq aləmdə artan etibarın göstəricisidir.

Zati-aliləri, Sizi əmin edirik ki, dövlətçiliyimizə, ulu öndərimiz Heydər Əliyev ideallarına sadiq olan kollektivimiz öz missiyasını yüksək səviyyədə yerinə yetirmək, etimadınızı layiqincə doğrultmaq üçün bundan sonra da əlindən gələni əsirgəməyəcək.

Ölkəmizin qüdrətlənməsi, beynəlxalq mövqelərinin daha da möhkəmlənməsi, işğalçı Ermənistanla diplomatiya və informasiya cəbhəsində qələbənin təmin edilməsi istiqamətində Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gördüyü işlərə dəstək verməkdə davam edəcəyik.

Möhtərəm cənab Prezident.

Sizə bir daha ən səmimi minnətdarlığımızı bildirir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik.

**Mir Şahin Ağayev, Bakı şəhəri.**

Möhtərəm cənab Prezident.

22 iyul 2020-ci ili yəqin ki, heç vaxt unutmayacağam. Bu gün mənim şəxsi taleyimin, jurnalist ömrümün ən təntənəli və qürurlu günüdür.Sizin məni 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni kimi çox yüksək mükafata layiq bilməyinizin, adi bir jurnalistin peşə fəaliyyətinə misilsiz qiymət verməyinizin məndən ötrü mənası bir media mənsubu kimi xüsusidir.Bu qiyməti mən daha əzmli, daha səmərəli fəaliyyətim üçün stimul kimi qəbul edirəm.Bu qiyməti Sizin mənə etimadınızın, inamınızın üzərimə qoyduğu məsuliyyət nişanı kimi anlayıram. İcazə verin, Sizi əmin edim ki, bundan sonrakı fəaliyyətim, "Real" Təhlil və İnformasiya Mərkəzində çalışan silahdaşlarımla birgə görəcəyim hər bir iş dövlətimizin media qüdrətinin artmasına, ideoloji cəbhənin önündə ləyaqətlə duruş gətirməyimizə həsr ediləcək. Məndən ötrü ən ali məqsəd, cənab Ali Baş Komandan, Sizin etimadınıza layiq olmaq, Vətənə, xalqa və dövlətə ləyaqətlə xidmət etməkdir. Azərbaycan Respublikasına xidmət edirəm.

**Xatirə Əliyeva, YAP-ın mətbuat xidmətinin əməkdaşı, Siyasi elmlər üzrə fəlsəfə doktoru, Bakı şəhəri.**

Möhtərəm cənab Prezident.

145 illik yol qət edən mətbuatımızın inkişaf tarixinin müstəqillik dövrü ideyaları dünənimizin, bu günümüzün və gələcəyimizin əsası olan ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1998-ci ildən çoxminli mətbuat nümayəndələrisırasında addımlayan, cəmiyyətin güzgüsü kimi dəyərləndirilən mətbuatın keçdiyi inkişaf yolunu diqqətlə izləyən və iştirakçısı olan, Prezident Administrasiyasının akkreditə olunan jurnalisti kimi ulu öndər Heydər Əliyevin keçirdiyi görüşlərdə iştirak etmiş, onun media nümayəndələri ilə yaratdığı səmimi münasibətin şahidi olmuşam. Bu səmimiyyət hər zaman məndə qürur hissi doğurub.

Hörmətli cənab Prezident, Sizin imzaladığınız "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam, 22 iyul-Milli Mətbuat günündə onlarla jurnalistə fəxri adlar verməklə sevinc bəxş etməyiniz media ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Bu sevinci yaşayan, Sizin Sərəncamınızla "Əməkdar jurnalist" adını alanlar arasında mənim də adımın olmasından böyük qürur hissi keçirdim.

Möhtərəm cənab Prezident, Sizə sonsuz təşəkkürümü bildirir, Azərbaycanın daha da möhkəmlənməsi, davamlı inkişafı yolunda yorulmaz fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**Səyyarə Səyyaf, Xəzər Televiziyası, Bakı şəhəri.**

Çox hörmətli cənab Prezident.

Milli Mətbuat günü münasibətilə imzaladığınız sərəncamla məni "Tərəqqi" medalı ilə təltif etdiyiniz üçün Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Ümumən mətbuatımıza və şəxsimə göstərdiyiniz etimad mənim məsuliyyətimi daha da artırır. Bundan sonrakı fəaliyyətim boyunca da Azərbaycan muğamı, musiqisi, ədəbiyyatı və incəsənətinin təbliğatçısı olacağam. Vətənim Azərbaycanın mədəni irs nümunələrinin daha da tanınması və mənimsənilməsi üçün çalışacağam.

Çox hörmətli cənab Prezident, mənə göstərdiyiniz bu diqqət və etimada görə Sizə bir daha təşəkkür edirəm. Dövlətimizin inkişafı, onun möhkəmlənməsi, xalqımızın firavanlığı və rifahı naminə yürütdüyünüz bu qətiyyətli fəaliyyətinizdə Sizə möhkəm cansağlığı və yeni nailiyyətlər arzu edirəm.

*Ardı Səh. 8*

# Media nümayəndələrindən Prezidentə təşəkkür MƏKTUBLARI

Əvvəli Səh. 7

**Elnur Məmmədovdan, Bakı, Azərbaycan**

Möhtərəm cənab Prezident.

Azərbaycan Milli Mətbuatının 145 illik yubileyi ilə əlaqədar KİV əməkdaşlarına fəxri adların verilməsi və təltif olunmaları haqqında Sərəncamlarınızda "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin əməkdaşı olaraq adımın yer alması məni hədsiz sevindirdi. 23 illik rejissorluq fəaliyyətimi "Tərəqqi" medalı ilə qiymətləndirdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Tanrı Sizi qorusun.

**Məmmədov Tural Əhməd oğlu, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC- nin "İnformasiya Proqramları Studiyası"nın direktoru, Bakı şəhəri.**

Möhtərəm cənab Prezident.

İyulun 22-də Sizin müvafiq Sərəncamınızla mən də "Tərəqqi" medalı ilə təltif olunmuşam. Fəaliyyətimə verdiyiniz bu yüksək qiymət mənim üçün çox mühüm əhəmiyyət daşıyır. Bu, mənim üzərimə daha çox məsuliyyət qoyur. Sizi əmin etmək istəyirəm ki, bundan sonra da ölkədə baş verən ictimai-siyasi hadisələrin ictimaiyyətə operativ və obyektiv çatdırılmasında səylərimi əsirgəməyəcəm.

Cənab Prezident, Sizinlə fəxr edirəm. Fəxr edirəm ki, Sizin rəhbərliyinizlə ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticələrindən xüsusi reportajlar, süjetlər, xəbərlər hazırlamaq məhz bizim nəslin payına düşüb.

Mənə göstərdiyiniz bu yüksək diqqətə, fəaliyyətimə verdiyiniz ali qiymətə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun.

**Elçin Mirzəbəyli, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru, Bakı şəhəri.**

Hörmətli cənab Prezident.

Azərbaycan Milli Mətbuatının 145 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, mətbuatın inkişafında xidmətləri olan jurnalistlərə fəxri adların verilməsi, media nümayəndələrinin orden və medallarla təltif edilməsi, qəzet redaksiyalarına birdəfəlik maddi yardımın ayrılması ilə bağlı imzaladığınız Sərəncamlar Sizin Azərbaycan mətbuatına, jurnalist əməyinə verdiyiniz yüksək qiymətin bariz nümunəsidir.

Hörmətli cənab Prezident, Sizin sərəncamızınla "Əməkdar jurnalist" fəxri adına layiq görülən media təmsilçilərinin sırasında adımın olmasından qürur hissi keçirir, mənə və baş redaktoru olduğum "Xalq cəbhəsi" qəzetinə göstərdiyiniz yüksək etimada və diqqətə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**Elçin Şıxlinski, Azərbaycan Jurnalistlər Birliyinin sədri, Bakı şəhəri.**

Hörmətli cənab Prezident.

Biz çox mürəkkəb bir zəmanədə yaşayırıq. Yaşadığımız hər bir gün daban - dabana zidd hadisələr, uğur və qələbələr, ürəyimizi dağlayan olaylar və onları əvəzləyən nailiyyətlərlə zəngindir. Bununla belə, bizim ən böyük sərvətimiz - müstəqilliyimiz, Azərbaycanımızın hazırkı və gələcək inkişafı, cəmiyyətimizin bu zəmində çiçəklənməsidir. Sizin bu yöndə gördüyünüz işləri dəyərləndirməmək imkansızdır.

Məmur - vətəndaş münasibətlərindəki dəyişikliklər, ölkəmizin özünümüdafiə və ordumuzun qüdrətinin artması, dünya siyasət meydanında uğurlarımız, rəngarəng və müxtəlif zümrələri təmsil edən Azərbaycan cəmiyyətinin birliyi, pandemiyanın ağır şərtləri altında və yağı düşmənin sərhədlərimizin toxunulmazlığına xələl gətirmək istədiyi bir zamanda xalqımızın ruh yüksəkliyi nümayiş etdirməsi onu göstərir ki, Siz ölkə rəhbəri kimi bütün bu proseslərin qaynağı, ilhamvericisi və yönləndiricisisiniz.

Mənim üçün Sizin tərəfinizdən "Vətənə xidmətə görə" kimi ali bir ordenlə mükafatlandırılmaq böyük şərəfdir. Hər birimiz üçün Vətənə xidmət etmək ən ümdə istəkdir.

**"Mingəçevir" qəzeti redaksiyasının kollektivi adından Mirsədi Daşdəmirov, Baş redaktor**

Möhtərəm cənab Prezident.

Biz "Mingəçevir" qəzeti redaksiyasının kollektivi olaraq Vətənimizin tərəqqisi və inkişafı naminə həyata keçirdiyiniz əməli işləri ürəkdən bəyənir və yekdilliklə müdafiə edirik. Sağ olun ki, varsınız, Azərbaycanın bu gününün və sabahının etibarlı təminatçısı və qarantısınız. Biz Sizinlə fəxr edirik.

Cənab Prezident, Azərbaycan Milli Mətbuatının 145 illik yubileyi münasibətilə ölkə jurnalistlərinin əməyinin mükafatlandırılması ilə bağlı verdiyiniz Sərəncamla mən də Vətənin yüksək mükafatına - "Tərəqqi" medalına layiq görülmüşəm. Bu, həmişə Sizinlə olan redaksiya kollektivimizin əməyinə verilən yüksək qiymətdir. Buna görə Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

**Tarıverdiyeva Leyla Cavad qızı, "day.az" saytının redaktoru, Bakı şəhəri.**

Hörmətli cənab Prezident.

Bu il Milli Mətbuat Günü mənim üçün ikiqat bayrama çevrildi. Mənə Azərbaycanın Əməkdar jurnalisti adı verdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu, əməyimə verilən ən yüksək dəyər və mənim üçün böyük şərəfdir. Dövlət Sizin simanızda jurnalistləri daim dəstəkləyib və dəstəkləyir. Bizim vəzifəmiz isə Azərbaycanın və Azərbaycan xalqının rifahı naminə işləmək, ölkəmizin həqiqətlərini dünyaya çatdırmaq və onun maraqlarını informasiya məkanında təbliğ etməkdir. Azərbaycana qarşı başlanmış informasiya müharibəsi cəbhədə gedən döyüşlərdən heç də az sərt deyil. Biz jurnalistlər bu müharibədə Sizin əsgərlərinizik və ordumuz kimi sonadək möhkəm dayanmağa hazırıq. Bir daha çox sağ olun, cənab Prezident.

**Vüqar Həsənovdan, Bakı, Azərbaycan**

Çox hörmətli cənab Prezident.

Milli Mətbuatımızın 145 illik yubileyi ərəfəsində "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunduğum üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Bu hadisə mənim üçün çox əhəmiyyətlidir. Fəxr və qürur hissi duyuram ki, təltif olunan həmkarlarımın sıralarında yer almışam. Bundan sonra da dövlət maraqlarımızı rəhbər tutub, vəzifəmdən irəli gələn öhdəliklərimi layiqincə yerinə yetirəcəyəm. Əməyimə verdiyiniz qiymət və göstərdiyiniz daimi dəstək üçün Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

**Oqtay Əliyevdən, Bakı, Azərbaycan**

Möhtərəm cənab Prezident.

Siz ölkəmizə rəhbərlik edən gündən yazılı və elektron mətbuata xüsusi diqqət, böyük qayğı göstərmisiniz. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan mətbuatla iş siyasəti Sizin rəhbərliyinizlə ardıcıl və uğurla davam etdirilir. 145 yaşına gəlib çatan milli mətbuatımızın yeni, işıqlı dövrü Sizin ölkəmizə rəhbərlik etdiyiniz illərə təsadüf edir. Xüsusən də biz, televiziya işçiləri bu illər ərzində Sizin birbaşa qayğınızı, diqqətinizi hiss etmişik.

Cənab Prezident, "Azərbaycan Milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamınız və yubileylə bağlı mətbuat işçilərini təltif etməyiniz bizə göstərilən qayğının təcəssümüdür. Televiziya yaradıcılığı sahəsində mənim də əməyimi yüksək qiymətləndirdiyinizə və "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq gördüyünüzə görə Sizə təşəkkür edirəm. 52 illik həyatımda aldığım ən böyük mükafat məni çox sevindirdi. Bu sevinc hissini bəxş etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Ölkənin siyasi, beynəlxalq, iqtisadi, sosial qayğıları içində vaxt tapıb, mətbuata dəyər verməyiniz Sizin böyüklüyünüzü və əvəzolunmazlığınızı göstərir. Bütün sahələrdə ölkəmizi uğura, zirvəyə doğru aparan bir şəxsiyyət kimi adınızı tarixə yazmısınız. Sizin imzanız ilə fəxri ad almaq xüsusilə qürurvericidir.

**Vüsal Məmmədov, AzVision.az saytının baş redaktoru, Bakı şəhəri.**

Hörmətli cənab Prezident.

Bu gün Sizin fəxri adlarla təltif etdiyiniz jurnalistlərin arasında olmaq mənim üçün böyük şərəf və qürurdur. İnsanın əməyinə, zəhmətinə qiymət verilməsi hər zaman onu fərəhləndirir. Bu qiyməti verən sənin dövlətin və onun başçısı olanda isə həmin fərəhə xoşbəxtlik də qarışır. Qiymət vermək hər şeydən əvvəl, dəyərləndirən tərəfin böyüklüyünü və alicənablığını göstərir. Verdiyiniz fəxri adı məhz bu düşüncə ilə qəbul edirik. Sizin verdiyiniz bu qiyməti mən həm şəxsən özümə, həm də rəhbərlik etdiyim AzVision.az kollektivinə inamın təzahürü, eyni zamanda, bir etimad krediti kimi qəbul edirəm. Biz hər zaman ancaq dövlətimizin maraqlarına uyğun çalışmışıq, bundan sonra da həmin istiqamətdə bilik və bacarığımızı əsirgəməyəcəyik. Bizim dövlətimizə sevgimiz təbii ki, təmənnasızdır, amma bu sevginin həm də qarşılıqlı olduğunu görmək çox gözəldir. Azərbaycana xidmət etmək xoşbəxtlikdir. Çox sağ olun ki, bu xoşbəxtliyi ürəklə yaşamağımıza imkan yaradırsınız. Sizə hədsiz minnətdaram.

**Sahil Kərimli, "Trend" Analitik İnformasiya Agentliyinin Baş redaktorunun müavini, Bakı şəhəri.**

Hörmətli cənab Prezident.

Azərbaycan milli mətbuatının 145 illik yubileyi münasibətilə məni "Əməkdar jurnalist" fəxri adına layiq görməyiniz mənə əvəzsiz fəxr və qürur hissi yaşatdı. Fəaliyyətimə böyük qiymət verdiyiniz üçün Sizə dərin təşəkkürümü bildirirəm.

Möhtərəm cənab Prezident, Siz həmişə Azərbaycan mətbuatına xüsusi diqqət və qayğı göstərmisiniz. Kütləvi İnformasiya Vasitələrinin inkişafına ayırdığınız çoxsaylı dövlət yardımları, mətbuat işçilərinin mənzil-məişət problemlərinin həlli, jurnalistlərin fəxri adlar, dövlət mükafatları ilə təltif edilməsi bu diqqət və qayğının bariz nümunəsidir. Təsadüfi deyil ki, Siz jurnalistləri öz köməkçiləriniz adlandırırsınız. Sizin bu Ali etimadınız üzərimizə böyük məsuliyyət, şərəfli vəzifələr qoyur, daha əzmlə işləməyə yeni stimul və ruh verir. Sizi əmin etmək istəyirəm ki, mən də gələcək fəaliyyətimdə bu etimadı var gücümlə doğruldacağam.

**Zahid Cəfərovdan, Bakı, Azərbaycan**

Hörmətli cənab Prezident.

Sizin Sərəncamınızla bir qrup mətbuat nümayəndəsi "Əməkdar jurnalist" fəxri adına layiq görüldü. Bu, Sizin mətbuat nümayəndələrinə göstərdiyiniz yüksək diqqət və qayğısının növbəti bariz nümunəsidir. Mükafatlandırılanlar arasında adımın olması mənim üçün qürurvericidir.Bu, eyni zamanda, gələcək fəaliyyətimizdə daha məsuliyyətli olmağımız və səmərəli fəaliyyətimiz üçün bizi stimullaşdırır.

Hörmətli cənab Prezident, Milli Mətbuatımızın 145 illik yubileyi ərəfəsində jurnalistlərin əməyini yüksək qiymətləndirdiyinizə görə Sizə dərin təşəkkürümü bildirir və Sizi əmin etmək istəyirəm ki, bundan sonra da dövlətimizə sədaqətlə xidmət edəcəyəm.

**Şakir Eminbəylidən, Bakı, Azərbaycan**

Möhtərəm cənab Prezident.

Məni də digər dəyərli həmkarlarım kimi "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif etdiyinizə görə Sizə təşəkkür edirəm.

Bu mükafat tərəfinizdən kiçik fəaliyyətimə verilən növbəti böyük dəyərdir.Vətənə, dövlətə, xalqa, millətə xidmətdən zövq almaq gözəl hissdir.Bu mənada ölkədə qibtə edəcəyim, şəxsən və çox yaxından tanıdığım birinci şəxs Sizsiniz.Xalq qarşısında xidmətiniz bir nümunə, bir örnəkdir.Bu örnəkdən faydalanaraq dövlət və Vətən naminə bundan sonra da borc saydığım, bacardığım işi yerinə yetirəcəyəm.Çünki, timsalınızda gördüyüm kimi, bu zövqlü və həzz ala biləcəyimiz ən böyük dəyərdir.

Cənab Prezident, Sizə təşəkkür edirəm.

**"İki sahil" qəzetinin kollektivi adından Vüqar Rəhimzadə, Baş redaktor, Əməkdar jurnalist**

Möhtərəm cənab Prezident.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Siz hər zaman mətbuatın inkişafına dəstəyinizi və töhfənizi vermisiniz.Mətbuatımızın yubileylərinin qeyd edilməsi, media nümayəndələrinin təltif olunması, jurnalistlərin mənzil-məişət probleminin həlli istiqamətində hər zaman xoş duyğularla qeyd edilən təqdirəlayiq addımlar atmısınız, sərəncamlar imzalamısınız, mətbuat sahəsində zəhməti olanları mükafatlandırmısınız.

Mətbuatımızın 145 illik yubileyi də bu mənada xüsusi qeyd edilməlidir. Məhz, dünyanı cənginə alan koronavirus pandemiyasına və Ermənistanın hərbi təxribatlarına qarşı mübarizə tədbirlərinin gücləndirildiyi bir zamanda Sizin mətbuat nümayəndələrini təltif etməyiniz, medianın, televiziya sahəsinin maddi-texniki bazasının gücləndirilməsi haqqında sərəncamlar imzalamağınız böyük sevinc hissinə və sonsuz ruh yüksəkliyinə səbəb oldu. Bu sevincdən pay düşənlər arasında "İki sahil"in əməkdaşları da var. Bu mühüm addımı jurnalist əməyinə diqqətinizin bariz nümunəsi kimi qəbul edir, Sizə dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, "İki sahil" qəzetinin kollektivi bundan sonra da həyata keçirdiyiniz siyasətin ən qabaqcıl təbliğatçısı və sadiq dəstəkçisi olacaq.

Sizə ölkəmizin inkişafı, dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

**İlhamə İsabalayevadan, Sumqayıt, Azərbaycan**

Hörmətli cənab Prezident.

Sizin ölkədə kütləvi informasiya vasitələrinin inkişafına verdiyiniz dəstək hər zaman hiss edilib. İstər maddi, istər mənəvi baxımdan verdiyiniz dəstəklə daim jurnalistlərin yanında olduğunuzu hiss etdirmisiniz, onların fəaliyyətinə stimul vermisiniz, problemlərinin həllinə müxtəlif formalarda yardım etmisiniz. Bu gün deyə bilərik ki, Azərbaycan jurnalistikasının inkişafı üçün əzmlə çalışan, əlindəki qələmi ilə Vətənə layiqincə xidmət edən hər bir KİV nümayəndəsi bu və ya digər formada layiqli qiymətini alır.

Cənab Prezident, artıq 20 ildir ki, jurnalistika sahəsində vicdanla, yorulmadan, alnıaçıq çalışıram. Sizin tərəfinizdən "Tərəqqi" medalı ilə təltif edilməyim mənim 20 illik jurnalistlik fəaliyyətimə verilən ən böyük

# Media nümayəndələrindən Prezidentə təşəkkür MƏKTUBLARI

dəyərdir. Verdiyiniz bu qiymət mənim üçün böyük stimul, qurur mənbəyidir. Bu sevinci mənə, eləcə də təltif edilən digər həmkarlarıma yaşatdığınıza, jurnalistlərə verdiyiniz mənəvi dəstəyə görə, cənab İlham Əliyev, Sizə minnətdarlığımı bildirirəm. Əminəm ki, "Tərəqqi" medalına layiq görülən və fəxri ad alan hər bir həmkarım Sizin bu yüksək etimadınızı doğruldacaq və bundan sonra Vətənə daha böyük əzmlə xidmət edəcək. Təşəkkür edirəm, cənab Prezident.

**Səbinə Həsənovadan, Bakı, Azərbaycan**

Möhtərəm cənab Prezident.

Hər şeydən öncə Sizə ölkəmiz üçün etdiklərinizə görə bir vətəndaş kimi təşəkkür edirəm.Məhz Sizin sayənizdə Azərbaycan Respublikasının nüfuzu gündən-günə artır, ölkəmiz sabitlik və inkişaf məkanına çevrilib.Siz dünya siyasi elitasında özünəməxsusluğu, intellektuallığı, xüsusi strategiyası ilə seçilən və ən əsası millətin birlik və bərabərliyini təsis etməyi bacarmış örnək bir dövlət başçısısınız.Mediaya başqa heç bir prezidentin bacarmadığı qədər yaxın olmağınız, söz və ifadə azadlığının inkişafına dəstəyiniz çoxlarına nümunədir. Bu gün milli mətbuatımıza dövlət qayğısını hiss etmək biz jurnalistlərə qürur, güvən verir. Bu hissi yaşatdığınız üçün Sizə səmimi qəlbdən təşəkkür edirəm.

Jurnalistlərin əziz dostu, göstərdiyiniz etimada görə Sizə minnətdaram. Dövlətimizin inkişafı və ərazi bütövlüyümüzün bərpası istiqamətində apardığınız mübarizədə, Azərbaycan həqiqətlərinin, haqlı mövqeyimizin dünyaya çatdırılmasında Sizin yanınızdayıq. Bütün çətinliklərin qaşısında xalqı adına məğrur dayanan Prezidentimiz, Sizə işlərinizdə uğurlar, cansağlığı diləyirəm. Tanrı Sizi qorusun.

**Elçin Namazov, "İki sahil" qəzetinin bölmə müdiri, Bakı şəhəri.**

Hörmətli cənab Prezident.

Sizin iyunun 30-da milli mətbuatın 145 illik yubileyinin keçirilməsinə dair imzaladığınız Sərəncam və o cümlədən 22 iyul-Milli Mətbuat Günündə ölkə jurnalistlərini fəxri adlar və mükafatlarla təltif etməyiniz Azərbaycan mətbuatının inkişafına göstərdiyiniz qayğının və diqqətin daha bir bariz nümunəsidir. Eyni zamanda, məhz iyulun 22-də Azərbaycan milli mətbuatının 145 illik yubileyi ilə əlaqədar tədbirlər təşkil etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç yüz min, Azərbaycan RespublikasınınMilli Televiziya və Radio Şurasına üç milyon manat ayırmağınız bir daha göstərdi ki, Siz söz azadlığının inkişafına, demokratik və qərəzsiz mətbuatın formalaşmasına və təkmilləşməsinə yeni töhfələr verməkdəsiniz.

**Cənab Prezident, məhz bu kimi humanist addımlarınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk.**

Möhtərəm cənab Prezident, Sizin 22 iyulda imzaladığınız sərəncamlarla ölkəmizin digər tanınmış və qabaqcıl jurnalistləri ilə bərabər "İki sahil" qəzetinin bölmə müdiri olaraq məni də "Tərəqqi" medalı ilə təltif etmisiniz. Mənim və təltif olunan digər jurnalistlərin çətin və şərəfli əməyini yüksək qiymətləndirdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**Kamran Qasımov, Real Televiziyasının xüsusi müxbiri, Abşeron rayonu.**

Möhtərəm cənab Prezident.

Milli Mətbuatımızın 145 illik yubileyi münasibətilə məni Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomuna layiq görməyiniz mənim üçün böyük şərəfdir. Azərbaycan mediasında Vətənimizə, dövlətimizə xidmət edən peşə sahibi kimi hansı qürur hisslərini keçirdiyimi təsəvvür edə bilmirəm. Bu Sizin jurnalistlərin fəaliyyətinə verdiyiniz ali diqqət və qayğının təzahürüdür. Bu gün bizim üzərimizə düşən məsuliyyət dövlətimizin, xalqımızın ali maraqlarına xidmət edən peşəkar və düzgün informasiya mühitini formalaşdırmaq, vətənpərvərlik ruhumuz, bilik və bacarıqlarımızla Ali Baş Komandanımızın, Prezidentimizin ətrafında sıx birləşməkdir. Bu bütün missiyaların ən şərəflisidir və mən də ömrüm boyu bu missiyanın icraçısı olacağam. Məni bu ali mükafata layiq gördüyünüz üçün Sizə bir daha dərin təşəkkürümü bildirməkdən qürur duyuram.

**Allahverdi Mehdiyev, "Azərbaycan" qəzetinin əməkdaşı, Bakı şəhəri.**

Hörmətli cənab Prezident.

Dövlətə rəhbərlik edəndən bəri yürütdüyünüz siyasət cəmiyyət həyatının bütün sahələrində sistemli islahatlarla müşayiət olunur.İslahat prosesi mediadan da yan keçmir.Milli mətbuat ənənələrinin qorunub saxlanması, medianın ictimai-siyasi həyatda yerini və müasir cəmiyyət quruculuğu prosesində rolunu həmişə diqqət mərkəzində saxlayırsınız.Dövlətçilik ənənələrinə bağlı olan, milli maraqları rəhbər tutan mətbuatın inkişafını prioritet vəzifə kimi qarşıya qoyaraq ardıcıl tədbirlər görürsünüz.Bu baxımdan milli mətbuatımızın 145 illik yubileyinin keçirilməsi haqqında verdiyiniz Sərəncam ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.Yubiley ölkəmizdə geniş qeyd olunmuşdur.Bu münasibətlə milli mətbuatın inkişafında xidmətləri olan bir sıra jurnalistləri mükafatlandırmısınız.Təltif olunanlar arasında mən də varam. Məni "Əməkdar jurnalist" fəxri adına layiq gördüyünüzə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**Ramazanov Qaşqay Ziyəddin oğlu, "Yeni Azərbaycan" qəzetinin əməkdaşı, Bakı şəhəri.**

Möhtərəm cənab Prezident.

Azərbaycan Milli Mətbuatının 145 illik yubileyi ilə əlaqədar 22 iyul 2020-ci il tarixində imzaladığınız "Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri nümayəndələrinin təltif edilməsi haqqında" Sərəncamınız mənə ikiqat bayram sevinci bəxş etdi.

Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərimi yüksək qiymətləndirərək məni "Tərəqqi" medalı ilə təltif etdiyinizə görə Sizə minnətdarlığımı çatdırmaq istəyirəm. Səmimi olaraq bildirirəm ki, dövlət başçısı tərəfindən təltif olunmağım müstəqil dövlətimizin gələcəyi naminə daha böyük əzmlə və həvəslə çalışmağım üçün stimul verir. Eyni zamanda, Azərbaycan mətbuatında uzunmüddətli fəaliyyətimə verdiyiniz dəyərə görə dərin məmnunluq hissi keçirir və bu təltifi çalışdığım "Yeni Azərbaycan" qəzetinin kollektivinə göstərilən diqqət və qayğının təzahürü hesab edirəm.

## Qeydiyyata alınmış işsizlərlə bağlı yeni qərar



***Baş Nazir Əli Əsədov yeni növ koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz və işaxtaran kimi qeydiyyata alınmış şəxslərin özünüməşğulluq istiqamətinin seçilməsi və özünüməşğulluğun təşkili məqsədilə həyata keçirilən təlimləri keçmədən müvafiq əmlakla təmin edilməsi barədə Qərar imzalayıb.***

Nazirlər Kabinetindən SİA-ya verilən məlumata görə, Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz və işaxtaran kimi qeydiyyata alınmış şəxslərin özünüməşğulluğunun təşkilini təmin etmək məqsədilə, "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin üçüncü abzasına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır ki, yeni növ koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında (bundan sonra - yerli qurumlar) işsiz və işaxtaran (qanunvericiliyə uyğun olaraq hüququ olan) kimi qeydiyyata alınmış özünüməşğulluğa cəlb edilən şəxslər 2020-ci ildə bu məqsədlə təşkil olunan təlimlərə cəlb edilmədən, yerli qurumların köməkliyi ilə tərtib etdikləri biznes planlar əsasında seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün natura şəklində material, avadanlıq və digər əmlakla təmin olunsunlar.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi xüsusi karantin rejimi bitdikdən və ya onlayn təlim proqramları istifadəyə verildikdən sonra bu Qərarın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərin müvafiq proqramlar üzrə təlimlərə cəlb edilməsini təmin edəcək, özünüməşğulluğun təşkili məqsədilə onlayn təlim proqramlarının hazırlanmasını sürətləndirəcək, həmçinin bu Qərardan irəli gələn digər məsələləri həll edəcək.

## Bakıya yeni Şollar su kəməri çəkiləcək



Xaçmaz rayonunun Şollar qəsəbəsindən Bakıya III su kəməri çəkilməsi planlaşdırılır. XəzərXəbər xəbər verir ki, bu, Prezident İlham Əliyevin dünən təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda öz əksini tapıb. Sənəddə deyilir ki, "Azərsu" ASC Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə bu ilin avqust-dekabr aylarında III Şollar su kəmərinin mənbəyinin yaradılması ilə bağlı texniki-iqtisadi əsaslandırma hazırlayacaq və layihələndirməni həyata keçirəcək.

## İran mətbuatı ermənilərin dinc aksiyalar keçirən azərbaycanlılara qarşı təxribatlarından yazır



İranın bir sıra kütləvi informasiya vasitələri dünyanın müxtəlif şəhərlərində ermənilərin dinc azərbaycanlı nümayişçilərə qarşı törətdikləri təxribatlardan yazır. AZƏRTAC xəbər verir ki, İranın mehrnews.com, mashregnews.ir, iribnews.ir, yjc.ir saytları ermənilərin qanunazidd hərəkətlərinə toxunaraq qeyd ediblər ki, ABŞ və Avropada erməni gəncləri dinc azərbaycanlı nümayişçilərə hücum edərək xəsarət yetiriblər. Nəzərə çatdırılıb ki, hadisə ilə əlaqədar ABŞ-ın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət edilib və ondan cinayət törətmiş ermənilərin məsuliyyətə cəlb olunması tələb edilib.

Materiallarda qeyd olunub ki, ermənilər müxtəlif ölkələrdə Azərbaycanın diplomatik nümayəndəliklərinə hücum edərək işğal olunmuş Dağlıq Qarabağın azad edilməsini tələb edən azərbaycanlıları döyüblər. Diqqətə çatdırılıb ki, iyulun 12-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun Tovuz rayonundakı mövqelərinə hücum cəhdi olub və düşmənə layiqli cavab verilib. Bu təxribatın nəticəsində bir neçə gün davam edən döyüşlər olub. Döyüşlər zamanı hər iki tərəfdən itkilər olub. Qeyd olunur ki, minlərlə vətənpərvər insan Bakının küçələrinə çıxaraq Azərbaycan Prezidentinə, ordusuna dəstək ifadə edib, torpaqların azadlığı uğrunda döyüşlərə hazır olduqlarını bildiriblər.

# "Azərbaycanda erməni təxribatına qarşı milli birlik və həmrəylik nümayişi"

***2020-ci ilin İyul döyüşləri Azərbaycan xalqı üçün xalq-iqtidar-ordu birliyinin növbəti təzahürü, cəmiyyətimizin Ali Baş Komandanımıza, Prezidentimizin siyasətinə dərin etimadı, Ordumuzla böyük fəxarət, şəhidlərimizlə yüksək qürur və xalqımızın, dünya Azərbaycanlılarının milli birlik, həmrəylik ruhu ilə yadda qaldı.***



*Şəmsəddin HACIYEV,*
*YAP Səbail rayon təşkilatının sədri, iqtisad elmləri doktoru, professor*

Düşmən ölkənin təxribatları ilə başlayan İyul döyüşləri Silahlı Qüvvələrimizin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı üçün təhdid olan istənilən hadisəyə, təxribata, təcavüzə hazırlıqlı olduğunu, Azərbaycan əsgərinin səngərdə, ön cəbhədəki ayıq-sayıqlığını, Azərbaycan xalqının mərdliyini, bütün dünya azərbaycanlılarının milli həmrəyliyini, Azərbaycanın işğalla heç vaxt barışmayacağını və Azərbaycan xalqının öz ərazi bütövlüyünün qorunması və bərpası uğrunda hər zaman gözlənilən müharibəyə hazır olduğunu növbəti dəfə sübut etdi.

2020-ci il iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində keçirilən Azərbaycan Orduсuna möhtəşəm dəstək yürüşü həmin iradənin təzahürü idi. İyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin təxribatları ilə pozulan atəşkəs rejimi təkcə Silahlı Qüvvələrimizi ayağa qaldırmadı, hadisələrin sonrakı inkişafının göstərdiyi kimi, bütün xalqımızı səfərbər etdi. Cəbhə xəttindən yayılan rəsmi məlumatlar orada vəziyyətin nə qədər gərgin olduğunu göstərirdi.

Yüksəkrütbəli hərbi qulluqçularımız Azərbaycan əsgəri ilə səngərdə, müdafiənin ön xəttində çiyin-çiyinə qəhrəmanlıqla vuruşaraq işğalçı Ermənistanın iyulun 12-dən etibarən sərhəd xəttində törətdiyi təxribatların qarşısını qətiyyətlə aldı və düşmənin xain həmlələrini puç etdi. Düşmən nəinki hədəflədiyi Tovuz yüksəkliklərini ələ keçirməyə, heç bir santimetr də olsun öz postlarından irəli getməyi bacarmadı, əvəzində işğalçının sərhəd boyunca çoxsaylı dayaq məntəqələri, uzunmüddətli atəş nöqtələri, səhra idarəetmə məntəqəsi, hərbi nəqliyyat vasitələri, avtomobil texnikası, düşmənə məxsus kazarma, xeyli sayda canlı qüvvəsi, döyüş texnikası məhv edildi. Hərbi qulluqçularımızın Azərbaycan sərhədinin toxunulmazlığını qətiyyətlə qoruması və düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirməsi vətəndaşlarımızda və bütün dünya azərbaycanlılarında döyüş və qələbə ruhunu əhəmiyyətli dərəcədə yüksəltdi. Bu ağır döyüşlərdə general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev də daxil olmaqla 12 nəfər hərbi qulluqçumuz qəhrəmancasına şəhid oldular. Azərbaycanın ərazi bütövlüyü uğrunda İyul döyüşlərində qəhrəmancasına şəhid olan hərbi qulluqçularımıza Allahdan rəhmət, ailələrinə, bütün Azərbaycan xalqına səbir diləyirəm. Yaralılarımıza tezliklə sağalıb Vətənin keşiyinə, cəbhədə yoldaşlarının sıralarına dönməyi arzu edirəm.

Onu da qeyd edək ki, bəşəriyyəti təhdid edən COVID-19 pandemiyasına qarşı mübarizə aparılan bir zamanda, qlobal atəşkəs çağırışlarına məhəl qoymadan, qlobal həmrəylik və birliyə ehtiyac olan bu günlərdə düşmən tərəfinin başlatdığı bu döyüşlər onun hansı mənəviyyat daşıyıcısı olduğunu da ortaya qoydu. Buna baxmayaraq, xalqımızın milli birlik və həmrəylik göstərərək ordumuzun, dövlətimizin və Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyini bəyan etməsi gözlənilən hadisə idi.

Bölgələrimizdə və Bakı şəhərində insanların axın-axın küçələrə çıxaraq Ordumuza dəstək şüarları səsləndirməsi haqqında yürüşlərin başladığı elə ilk saatlarda xəbər tutdum. Əminəm ki, o dəstək şüarlarını eşidən, o insan selini görən hər bir Azərbaycan vətəndaşı o anda böyük qürur və fərəh hissi keçirirdi. Azərbaycan xalqı mərd xalqdır, tarix boyu öz torpağı və azadlığı uğrunda düşmənlə şərəflə, ləyaqətlə mübarizə aparan xalqdır. Torpaq bizim üçün milli şərəf məsələsidir. Azərbaycan xalqı o gecə Bakı küçələrindəki milli həmrəylik yürüşü ilə bütün dünyaya bir daha öz cəsarətini və milli birliyini, işğal altındakı torpaqlarımızı hər an azad etməyə hazır olduğunu və bir qarış da olsa torpağını düşmənə verməyəcəyini bir daha nümayiş etdirdi.

İndi təsəvvür edin ki, əzəli düşmənimiz Ermənistan Qarabağa aid olmayan və ondan 300 km uzaqda olan Tovuzda Azərbaycan sərhədini pozub və müharibəyə başlayıb. Ölkə təhlükədədir, düşmən strateji əhəmiyyətli yüksəklikləri ələ keçirmək və böyük bir ərazini nəzarətdə saxlamaq niyyətindədir. Ön cəbhədə ayıq-sayıq dayanan qəhrəman hərbçilərimiz nəinki düşmən təxribatının qarşısını mətanətlə alır, hətta onlara sarsıdıcı zərbələr endirir. Bu gün Ali Baş Komandanın əmri olsa, Azərbaycan Ordusu düşmən ərazisinə keçmək və düşməni elə öz ərazisində əzmək gücündədir. İyul döyüşləri Azərbaycan xalqının bu əmrə nə qədər hazır olduğunu bir daha göstərdi. Səngərdə ağır döyüşlər gedən hər gün, hər saat hər bir Azərbaycan vətəndaşı diqqətlə gözləyirdi ki, Ali Baş Komandan bu əmri versin və xalqımızın çoxdankı arzusu gerçəkləşsin. Ordumuzun gücündən, düşmənə verdiyi layiqli cavablardan ruhlanan, ilhamlanan Azərbaycan gəncliyi, vətəndaşlarımız heç kimin göstərişi olmadan, öz təşəbbüsləri ilə əllərində Azərbaycan bayrağı Bakıda, bölgələrimizdə küçələrə axışır, çox keçmir ki, bir-iki saat ərzində bu yürüş böyük bir izdihama çevrilir. Bakı küçələrindəki yürüş boyu hamı bir ağızdan qəhrəman əsgərlərimizə, ordumuza, Ali Baş Komandanımıza dəstək şüarları səsləndirir, polisimiz bu dinc milli həmrəylik-dəstək yürüşünə nəinki mane olmur, əksinə vətəndaşlarımıza qoşularaq dəstək şüarları səsləndirirlər və bu möhtəşəm izdiham Milli Məclis binasının qarşısına gəlir. Sosial şəbəkələrdə yürüş canlı yayımlanırdı, hamımız izləyirdik, Milli Məclisin önündə bir insan seli var idi və xalqımızın bu milli birlik nümayişi hər birimizi qürurlandırırdı. Orada olan minlərlə insan ordumuza dəstək ifadə edərək onları daha da irəliyə getməyə, düşmən postlarını məhv etməyə, cəbhəyə gedib ərazi bütövlüyümüz və işğal altındakı torpaqlarımızı azad etmək üçün səfərbərlik elan olunması haqqında istəklərini bildirirdilər. Belə bir şəraitdə bu izdihamla yumruq kimi birləşmək, bir olmaq əvəzinə təəssüf ki, bəlli qüvvələrə xidmət edən bir qrup təxribatçı bu xoşməramlı xalq yürüşünü tamamilə başqa istiqamətə yönəltməyə cəhd etdilər. İnsan hələ də inana bilmir ki, içimizdə bu dərəcədə şüursuz, milli ruhdan uzaq tör-töküntülər var. Onlar bu təxribatları ilə nəyə nail oldular? Birmənalı olaraq heç nəyə, yalnız özlərini biabır və rüsvay etdilər, onların bu dözülməz hərəkətləri bütün Azərbaycan xalqının, ictimaiyyətin haqlı qınağına və nifrətinə tuş gəldi.

Hesab edirəm ki, Bakı şəhərində Azərbaycan Ordusuna dəstək yürüşü və təqdir olunası həmin tədbir zamanı dövlətçiliyə zərbə vurmağa, milli birliyi pozmağa, qarşıdurma yaradacaq situasiyalara yol açmağa xidmət edəcək o cəhdlərə Yeni Azərbaycan Partiyasının yaydığı bəyanatda çox düzgün, dəqiq və sərrast qiymət verilib. Bəyanatın ruhu və hadisələrə verilən qiyməti isə partiyamızın yüz minlərlə üzvü kimi, mən də bəyənir və müdafiə edirəm.

Fərəhləndirici haldır ki, bu çətin, mürəkkəb bir zamanda, Vətənimizin ağır günlərində respublikamızda fəaliyyət göstərən müxtəlif siyasi partiyalar və təşkilatlar da yüksək siyasi mədəniyyət nümayiş etdirərək, bu prosesdən geri qalmamış, müstəqillik tariximizdə ilk dəfə olaraq siyasi proqram və platformalardan asılı olmayaraq, siyasi baxışlarını bir yana qoyaraq, milli həmrəylik göstərərək Ali Baş Komandanın yanında olduqlarını bəyan etmişlər.

Azərbaycanda fəaliyyət göstərən 43 siyasi partiyanın cəbhədəki son təxribatlar ilə əlaqədar yaydığı milli həmrəylik bəyanatı Azərbaycan xalqının birliyinin, Vətən, ümummilli, ümumxalq dövlətçilik maraqlarının siyasi, partiya, şəxsi maraqlarından üstün olmasının əyani nümayişidir. Məhz bu prinsiplər əsl demokratik, sivil cəmiyyətlərə xas olan prinsiplərdir - xalqın, dövlətin, Vətənin maraqları hər şeydən üstün olmalıdır.

Mən bir daha bilərəkdən və ya bilməyərəkdən bu təxribata alət olanlara üzümü tutub demək istəyirəm: Ay gənclər! Vətən təhlükədə olanda iqtidar, müxalifət bölgüsü ola bilməz. Hamımız bir millət, bir xalqın nümayəndələriyik, bu məqamda yumruq kimi bir olmalı, milli birlik, həmrəylik nümayiş etdirməli, bir nöqtəyə vurmağı bacarmalıyıq. Vətənə, xalqa, orduya müxalif olmaq olmaz. Hər birimiz Ali Baş Komandanımızın, Ordumuzun yanında olmalıyıq. Əli silah tutanlar ön cəbhədə, digərləri arxa cəbhədə mümkün olan bütün sahələrdə, xüsusilə informasiya müharibəsində, beynəlxalq tribunalarda erməni yalanlarını, təxribatlarını, döyüş zamanı mülki obyektləri, dinc sakinləri hədəf alan düşmənin terrorçu xislətini ifşa etməli və hər birimiz öz işimizin müsəlləh əsgəri kimi əzəli düşmənlərimizlə mübarizə aparıb onlara sarsıdıcı zərbələr endirməliyik. Bizim vahid bir amalımız var - düşmən tapdağı altındakı torpaqlarımızı geri qaytarmaq, Dağlıq Qarabağı, Azərbaycanın qəlbi olan doğma Qarabağımızı azad etmək, millətimizin şərəfini ucaldaraq işğal ləkəsini xalqımızın üstündən silmək. Bu hər birimizin müqəddəs vətəndaşlıq və vicdan borcudur. Vətən uğrunda döyüşüb bu yolda şəhid olmaqdan uca və şərəfli ölüm varmı? Biz Ali Baş Komandanımıza inanırıq, bilirik ki, yaxın zamanlarda Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və işğaldan azad olunmuş bütün torpaqlarımız üzərində üçrəngli bayrağımız qururla dalğalanacaqdır. "Qarabağ mütləq azad ediləcək. Onu azad edən komandan nə gözəl komandandır; o ordu nə gözəl ordudur!" (Məhəmməd Peyğəmbərin (s.ə.v.) Hədisi-şərifində İstanbul haqqında buyurduqlarına iqtibasən). Bu Böyük Qələbə günü, bu şanlı zəfərlər uzaqda deyil. Bir kərə yüksələn bayrağımız bir daha enməyəcəkdir.

İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab Prezidentin hamı üçün ibrət olan nitqindəki bir məqama diqqət çəkməyi lazım bilirəm: "Həyat dəyişir və yeni çağırışlar üzə çıxır. Belə olan halda, əlbəttə ki, biz öz planlarımıza da düzəlişlər etməliyik və edirik. Bu düzəlişlərin əsas məqsədi ölkəmizin uğurlu inkişafını sürətləndirmək, bunu təmin etməkdir". Təbii ki, bu müdrik sözlər, gələcək qarşısında məsuliyyət hiss edən bir Liderin düşüncələridir və hesab edirəm ki, bütövlükdə, cəmiyyətimiz, xüsusən gənclərimiz ölkə rəhbərimizin gələcəyə hədəflənən bu fikirlərinin arxasında nələrin dayandığına diqqət çəkməlidirlər. Onu da qeyd edək ki, dövlət başçısı, partiyamızın Sədri iyulun 14-dən 15-nə keçən gecəki yürüşün mahiyyətini dəyişmək, ona kölgə salmaq istəyən qüvvələrə, onların 28 il əvvəlki situasiyaların yaranmasında göstərdikləri "xidmətləri" bir daha qeyd etməklə, yenə də düşmən dəyirmanına su tökdüklərini xatırlatdı. Mən istərdim ki, möhtərəm Prezidentimizin bu sözlərini bir daha Azərbaycan ictimaiyyətinə çatdırım: "Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqların itirilməsi bir daha demək istəyirəm ki, o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərc-mərclik salmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər. O vaxt o bölgədə fəaliyyət göstərən Azərbaycan Xalq Cəbhəsinin batalyonları və onların komandirlərinin bir neçəsi xəyanət etmişlər. Baxmayaraq ki, onların tərkibində cəsur və Vətənə bağlı insanlar döyüşürdülər, öz canlarını qurban vermişlər. Ancaq o vaxt Azərbaycan Xalq Cəbhəsinin başında dayananlar nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək üçün torpaqları satdılar və beləliklə, ovaxtkı hakimiyyəti yıxa bildilər. O vaxt bizim torpaqlarımızın itirilməsi bilavasitə Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar fəaliyyəti ilə bağlıdır. Ona görə Ermənistan hər zaman bu imkanlardan faydalanıb. İndi də özləri gizlətmirlər ki, o vaxt Azərbaycanda xaos, anarxiya idi, onlar bundan istifadə edib torpaqlarımızı zəbt etdilər".

*Ardı Səh. 11*

# “Azərbaycanda erməni təxribatına qarşı milli birlik və həmrəylik nümayişi”

Əvvəli Səh. 10

İndi həmin hava ilə yaşayanlar hər məqamda ölkəmizdəki ictimai-siyasi stabilliyi və əmin-amanlığı pozmağa, aparılan əsaslı islahatlara, sürətli inkişafa, Azərbaycan xalqının rifahının yüksəlməsinə, itirilmiş torpaqların qaytarılmasına istiqamətlənən dövlət siyasətinin ardıcıl uğurlarına kölgə salmağa çalışırlar. Onlar təbii ki, “bulanıq su axtarışındadırlar”, lakin axtardıqlarını Azərbaycanda tapa bilməyəcəklər. Elə buna görə də Azərbaycan üçün pis olan hər şey onlar üçün fürsət kimi görünür. Bunun üçün də yığışdıqları hər məclisdə neftin bazar qiymətlərinin 14 dollara düşməsini “ən gözəl xəbər” kimi qarşılayırdılar. Belə bir mənəviyyatla yaşayan insanlara hansı adın verilməli olduğunu isə xalqımız yaxşı bilir. Xalqımız onu da yaxşı bilir ki, bugünkü Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. Bu gün yenə cəmiyyətdə bölücülük fəaliyyəti ilə məşğul olmağa cəhd edən dağıdıcı radikalların hakimiyyətdə olduğu dövrdə - Azərbaycanın 1992-1993-cü ilin birinci yarısında necə acınacaqlı vəziyyətdə olduğu orta və yaşlı nəslin yaxşı yadındadır. Tamamilə dağılmaq, məhv olmaq, parçalanmaq ərəfəsində olan Azərbaycanda 1993-cü ilin iyununda xalqın təkidli tələbi və dəstəyi ilə rəhbərliyə gələn Ulu Öndər Heydər Əliyev böyük xilaskarlıq missiyasını yerinə yetirərək Azərbaycanın müstəqilliyini qorumaq və möhkəmləndirmək üçün 10 il ərzində mümkün olan hər şeyi etdi, ölkənin istisnasız olaraq ictimai-siyasi, sosial-iqtisadi həyatının bütün sahələrində gələcək dinamik inkişaf üçün real baza formalaşdırdı.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən başlayaraq həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində ölkəmiz malik olduğu resurslardan, geosiyasi və geoiqtisadi üstünlüklərdən bacarıqla istifadə edərək, dünya iqtisadiyyatına və dünya birliyinə milli maraqların prioritetliyi əsasında ən rasional şəkildə inteqrasiya olundu, hüquqi dövlət quruculuğuna və vətəndaş cəmiyyətinin formalaşmasına nail oldu, sosialyönümlü bazar iqtisadiyyatı modelinə keçidi tam başa çatdırdı. Prezident İlham Əliyev tərəfindən aparılan düşünülmüş, qətiyyətli, uzaqgörən, çevik və praqmatik siyasət nəticəsində ölkəmizin milli maraqları və təhlükəsizliyi tam təmin edildi, ictimai-siyasi sabitlik bərqərar olundu, iqtisadiyyatın dinamik inkişafına nail olundu. Bu dövr ərzində ölkəmizdə müasir tələblərə, minilliyin çağırışlarına, qarşıya qoyulan strateji vəzifələrə cavab verən səmərəli dövlət idarəçiliyi sistemi yaradıldı və onun beynəlxalq nüfuzu, siyasi çəkisi xeyli yüksəldi. Son illərdə dövlət müstəqilliyimiz daha da möhkəmlənmiş, sözün tam mənasında əbədi və dönməz xarakter almışdır. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən tam müstəqil bir dövlətdir və heç kimdən asılı olmayaraq öz milli maraqlarına uyğun siyasət həyata keçirmək iqtidarındadır. Azərbaycan öz dövlətçilik tarixində heç vaxt indiki qədər müstəqil olmamışdır. Bu gün Azərbaycan 3 qitəni və 3 dənizi birləşdirən nəhəng transmilli enerji və nəqliyyat layihələrini reallaşdırmış, regionda və beynəlxalq təşkilatlarda söz sahibi olan ölkədir. Son bir neçə ayda baş verən hadisələr bu dediklərimizin əyani sübutudur. Cənab İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının sədri statusunda pandemiya ilə mübarizədə qlobal həmrəyliyə çağırış etməsi və bu çağırışın dünyanın 130-dan çox dövlət və hökumət başçıları tərəfindən dəstəklənməsi nəticəsində BMT-nin Baş Assambleyasının 31-ci xüsusi sessiyasının çağırılması Azərbaycan Prezidentinə, ölkəmizə dünya dövlətlərinin regional və beynəlxalq arenadakı rəğbəti, etimadı sayəsində mümkün oldu. Azərbaycan altı aydan çoxdur ki, bütün dünyanı öz məngənəsinə alan, dünya iqtisadiyyatını sarsıdan, istisnasız olaraq bütün dünya ölkələri üçün qlobal sınağa çevrilən yeni koronavirus (COVID-19) pandemiyası dövründə də qlobal çağırışlara cavab verən ölkə olduğunu birmənalı olaraq sübut etdi. Təsadüfi deyildir ki, möhtərəm Prezidentimiz qlobal pandemiya ilə mübarizə üçün beynəlxalq həmrəylik və səfərbərlik çağırışını dünyada ilk səsləndirən və bu istiqamətdə ilk real addımlar atan dövlət başçısıdır. Fərəhləndirici haldır ki, ölkə başçımızın pandemiya ilə mübarizədə cəmiyyətimizdə birlik, bərabərlik, mütəşəkkillik, həmrəylik rəmzinə çevrilən “Biz birlikdə güclüyük!” çağırışı bu gün dünya ictimaiyyətinin şüarına çevrilir və ümumbəşəri xarakter alır.

Artıq heç kimdə şübhə doğurmayan faktdır ki, qlobal pandemiya dünya iqtisadiyyatı üçün ciddi böhran və yeni çağırışlar yaratdı. Dünya iqtisadiyyatının və ayrı-ayrı regionların, milli iqtisadiyyatların itkiləri, özünübərpa üçün tələb olunan müddət, müxtəlif sektorlardakı kiçilmə hazırda əsas müzakirə mövzularıdır. Bir çox ölkələr ağır iqtisadi itkilər və təxirə salınan sosial proqramlarla üzləşdilər. Azərbaycan isə ölkə rəhbərinin apardığı düşünülmüş, kreativ, uzaqgörən siyasət nəticəsində pandemiyadan ən az əziyyət çəkən və iqtisadi cəhətdən ayaqda qalan azsaylı ölkələrdəndir. Bu ilin 6 ayının iqtisadi göstəricilərinə nəzər yetirsək, dediklərimiz öz təsdiqini tapar. Belə ki, pandemiyanın təbii nəticələri olaraq Azərbaycanda ÜDM 2,7% aşağı düşsə də, kənd təsərrüfatı 2,2%, qeyri-neft sənayesi istehsalı 11%-dən çox artmışdır. Əlbəttə ki, əgər koronavirusun fəsadları olmasaydı, bu artım daha da yüksək olacaqdı. Pandemiyadan ən çox zərər görən sahələr təbii olaraq turizm (48% tənəzzül) və tikinti sektorlarıdır (14,5% tənəzzül). Bunlarla yanaşı, sevindirici haldır ki, bu yarımildə dövlət büdcəsinin gəlirləri proqnoza qarşı 2,9 faiz və ya 338 milyon manat çox icra olunmaqla 12 milyard 23 milyon manat təşkil edib. Pandemiya dövründə bütün iqtisadi çətinliklərə, xüsusilə neftin dünya bazarındakı qiymətinin bir neçə dəfə aşağı enməsinə baxmayaraq, ölkəmizdə heç bir sosial proqram ixtisar olunmadı, sərt karantin rejimində əhaliyə və biznes sektoruna lazımi səviyyədə iqtisadi dəstək göstərildi. Cənab Prezidentin bu müşavirədə vurğuladığı kimi, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək. Bütün bunlar Azərbaycanda sosial dövlət quruculuğunun və Azərbaycan Prezidentinin siyasətinin mərkəzində vətəndaşın rifahının, sağlamlığının və təhlükəsizliyinin olduğunun təzahürüdür. Pandemiya dövründə biz dövlətin iqtisadiyyatın fors-major şəraitində idarəçiliyinin yeni modelinin şahidi olduq. Bu dövrdə üç əsas hədəf icra olundu: 1) ölkədəki makroiqtisadi sabitlik qorundu; 2) əhalinin işyerləri və məşğulluğu qorundu; 3) şəffaflığın artırılması və əlavə gəlir mənbələrinin tapılması nəticəsində büdcə gəlirləri iqtisadiyyatın dayanıqlığının təminatçısı oldu. Bu amillər postpandemiya dövründə də iqtisadiyyatın özünübərpasının əsasını təşkil edəcək və daxili tələblə investisiyaların stimullaşdırılması üçün iqtisadiyyata müsbət impulslar verəcəkdir. Büdcənin fiskal yükünün artmasına baxmayaraq, ölkəmizin strateji valyuta ehtiyatları bu fors-major dövrdə azalmadı və Azərbaycan dünyanın 120 ölkəsindən fərqli olaraq iqtisadi yardım, kredit üçün heç bir beynəlxalq təşkilata müraciət etmədi, əksinə, özü 30-dan çox ölkəyə pandemiya dövründə yardım göstərdi. Qeyd olunanlar bir daha deməyə əsas verir ki, Azərbaycan 27 il ərzində özünü tam təmin edən, müstəqil siyasət yürüdən və iqtisadi dayanıqlığı ilə seçilən uğurlu sosial dövlət modeli yaratmağa nail olub. Bütün bu rəqəmlər, kəmiyyət və keyfiyyət göstəriciləri, eləcə də neftin dünya bazarındakı qiymətinin artıq 45 ABŞ dollarından yüksək olması deməyə əsas verir ki, Azərbaycan 2020-ci ildə də bütün sosial və investisiya proqramlarını uğurla icra edəcək və növbəti ildən etibarən iqtisadiyyat sürətli və dinamik şəkildə özünübərpa fazasına keçəcəkdir.

Bu gün, sözün əsl mənasında, siyasi, iqtisadi cəhətdən müstəqil olan və bu siyasəti ilə beynəlxalq ictimaiyyətin rəğbətini qazanan, beynəlxalq təşkilatlarda fikrinə, təşəbbüslərinə hörmətlə yanaşılan, beynəlxalq münasibətlərdə özünü etibarlı tərəfdaş kimi doğruldan, Cənubi Qafqaz regionunun lider ölkəsinə çevrilən Azərbaycan, həm də hərbi gücü ilə seçilir. Azərbaycan Ordusu bu gün ən müasir hərbi silahlarla təchiz olunmuş dünyanın ən güclü 50 ordusu sırasındadır. Ordumuz yüksək hərbi-texniki təminatı ilə yanaşı, Azərbaycan əsgərinin döyüş qabiliyyətinin, qələbə ruhunun və milli vətənpərvərliyinin yüksək səviyyədə olması ilə də fərqlənir. Son günlərdə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha göstərdi ki, şəhidlərimizin qisası alındı, bu torpağı Vətən edən şəhidlərimizin qanı yerdə qalmadı və qalmayacaqdır. Azərbaycan bir qarış da olsa torpağını düşmən tapdağı altında qoymayacaqdır. Azərbaycan Ordusu sərhədlərinin toxunulmazlığını qorudu və bundan sonra da qoruyacaqdır. Xain düşmənlə hər döyüşdə inamlı qələbəmiz düşmən tapdağı altındakı torpaqlarımızı azad etmək üçün güclü və qüdrətli orduya malik olduğumuzu göstərməklə, Böyük Qələbəyə xalqımızın əminliyini və inamını daha da yüksəldir.

Yeri gəlmişkən, bir neçə gün öncə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqımıza müraciətində bunun nə dərəcədə qorxulu tendensiyalar yaradacağı fikrini xüsusi qeyd etməyi vacib hesab edirəm: “Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən “feyk”lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd - çaxnaşma, nifaq salmaq və daxili “cəbhə” yaratmaq, düşkünlük və məğlubiyyət əhval-ruhiyyəsini artırmaqdır. Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalı olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə güclü birlik, ağıl və iradə ilə möhkəmlənən olur”.

Bu məqamda döyüşlər boyunca işğalçı Ermənistanın internet resurslarında, sosial şəbəkələrdə dezinformasiyalarına, təxribat mahiyyəti daşıyan əsassız xəbərlərinə bir daha diqqət çəkmək istərdim. Cəbhədən yalan-yanlış xəbərlər verməklə, öz itkilərini gizlətmək, Azərbaycan haqqında həqiqətə uyğun olmayan xəbərlər yaymaqla işğalçı, əslində, tək döyüş meydanında yox, bir neçə cəbhədən Azərbaycanı hədəfə alır. Beynəlxalq internet resurslarında, sosial şəbəkələrdə Azərbaycan gənclərini çaşdırmaq məqsədi güdən çoxsaylı təxribatlara şahid oluruq. Bu günlərdə gənclərimiz informasiya müharibəsinin əhəmiyyətini və məsuliyyətini bir daha dərk etdilər. Müharibə şəratində olan ölkəmizin hərbi qulluqçuları dövlət sərhədlərimizin toxunulmazlığını və Azərbaycan vətəndaşlarının təhlükəsizliyini düşmənlə üz-üzə ön cəbhədə layiqincə təmin edir və düşmənin xain təxribatlarına qətiyyətli cavablar verirlər. Hər bir Azərbaycan gənci də bu gün gedib səngərdə əlində silah Vətənin müdafiəsi və Azərbaycanın haqq səsi naminə vuruşmağa hazırdır, lakin düşmən yalnız cəbhədə deyil, düşmən beynəlxalq internet resurslarında, sosial şəbəkələrdə də pusqudadır. Bu səbəblə hər bir Azərbaycan gənci bu gün sosial şəbəkələrdə, internetdə düzgün davranış qaydalarını bir daha nəzərdən keçirməli və mümkün olan hər yerdə, istənilən tribunada layiqli şəkildə Azərbaycanın haqq səsini ucaltmağı bacarmalıdır.

2016-cı il Aprel qələbəsi, 2018-ci il Günnüt zəfəri və 2020-ci il İyul döyüşlərində düşmənə layiqli cavab və sarsıdıcı zərbələr, bir neçə gün ərzində Azərbaycanda mütləq əksəriyyətini gənclərin təşkil etdiyi 55 minə yaxın vətəndaşın könüllü cəbhəyə getmək üçün müraciətinin qeydə alınması, ABŞ Konqresinin Qeydiyyat Komitəsində Ermənistanın Azərbaycan ərazisini işğal faktını dövlət səviyyəsində ilk dəfə tanıyan 296 saylı düzəlişi qəbul etməsi, Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi, hər keçən gün bizi Böyük Qələbəmizə, Azərbaycanın ərazi bütövlüyünün bərpasına yaxınlaşdırır. O gün uzaqda deyil. İndi isə Ali Baş Komandanımızın, Prezidentimizin ətrafında daha sıx birləşmək və millət olaraq bir yumruq kimi olmaq vaxtıdır.

# Erməniпərəstliyin buynuzu olmur ki...

## Yaxud, kor-kor, gör-gör reallığından baxış

***Avropanın müxtəlif ölkələrində yaşayan, çalışan və təhsil alan soydaşlarımızın milli vətənpərvərlik ruhundan çıxışlar edərək, Ermənistanın işğalçılıq və təcavüzkar siyasətinə qarşı etiraz səslərini ucaltması ermənilərin özlərindən daha çox, erməni lobbisi ilə iş birliyinə gedən, erməni maraqlarının müdafiəsi vasitəsi ilə kirli pullar - qrantlar və s. vəsaitlər əldə edən sapı özümüzdən olan baltaları ciddi şəkildə narahat etməyə başladı. Əgər xarici ölkələrdə yaşayan ermənilər soydaşlarımıza qarşı sanki vəhşiləşmiş çaqqal sürüləri kimi - birinin üzərinə on-on beş nəfərlə hücum edib, xəsarətlər yetirirdilərsə, milli xainlər daha betərini etməkdədirlər.***



İsmail Cəlilov
21 s ·

MƏCBUR ETDİNİZ, TAM VİDEOYA BAXIM. Həyatımdan kəsilib atılan yarım saat. Heç olmasa, ƏSL pornoqrafiyaya baxsaydım, həzz alardım. Pornoqrafiyaya baxdım, hə, amma həzz alınacaq pornoqrafiya deyildi bu... Osmanqızı kanalındakı artıq montaj edilib yayılan videoya baxa-baxa etdiyim əlavələr: (TAM video deyə bilmirəm buna, çünki naməlum hissələri kəsilib təqdim olunur)





Firdovsi Ibrahimov
8 s ·

Dəyərli Həmvətənlərim. Hər biriniz kimi Sevinc Osmanqızının çıxışını axıra kimi dinlədim. Vicdanım qarşısında yazmaq məcburiyyətində qaldım. Belə bir çıxışı ancaq bir erməni etsəydi təəccüb etməzdim.
Ama Sevincin çıxışına da təəccüb etmədim. Sizdən fərqli olaraq onu Bakıda yaşayarkən bir həkim kimi çox yaxşı tanıyırdım. O zaman bir həkim kimi onun davranışları və ən əzizlərinə olan davranışlarına çox təəccüblü qalmışdım. Zamanla bütün daşlar yerinə oturarmış.
Nəticə olaraq Sevinc ciddi psixi çaxnaşma içində olan biri idi. Psixyatrlar yaxşı bilirlər. Xarakterdə parçalanma və hezeyanlar yaşayan biridir. Bu qərarlarına görə də daha Bakıda yaşayırkən öz ən yaxın əzizində də fəlakətə səbəb oldu.

### Onlar atdıqları hər bir kirli addımlarına görə məhz Azərbaycan xalqı qarşısında cavab verməlidirlər

Başda Sevinc Osmanqızı, Qənimət Zahid, Vidadi İsgəndərləri və sairləri olmaqla onlar xalqımıza, dövlətçilik maraqlarımıza, milli ruhumuza qarşı ermənidən betər erməniçilik xislətləri sergiləməklə sübut etdilər ki, artıq belələrinə qarşı hüquqi qiymət verilməli, onlar atdıqları hər bir kirli addımlarına görə məhz Azərbaycan xalqı qarşısında cavab verməlidirlər.

S.Osmanqızının millətimimizi "vətənşivən" adlandırıb, erməniləri "sivil" kimi görməsi, V.İsgəndərlinin əlinə silah alaraq, onu Azərbaycan dövlətinə və hakimiyyətinə qarşı çevirəcəyini deməsi, Q.Zahidin hətta qardaşı oğlunun ermənilər tərəfindən vəhşicəsinə döyülməsinə rəğmən, bu hadisəyə susqun davranması və bu kimi digər bənzər hallar özü-özlüyündə hər şeyi bütün çılpaqlığı ilə ictimai rəyin diqqətinə çatıb. Əlbəttə ki, xalqımız da bu ünsürlərin "hansı yuvanın quşları" olduqlarını bir daha təsbit etmiş oldular.

Yeri gəlmişkən, bu məxluqların hər birinin ayrı-ayrılıqda psixiki pozuntularının olması şübhələri də deмək olar ki, reallığa çevrilməkdədir. Erməni pulu-parası, düşmən ağuşunda bəslənmələri onların gözlərini və hisslərini o qədər kor edib ki, artıq ümumiyyətlə, azərbaycanlı olduqlarını unudublar.

### Sevinc Osmanqızının həkimi olmuş Firdovsu İbrahimov: "Sevinc ciddi psixi çaxnaşma içində olan biri idi... Xarakterdə parçalanma və hezeyanlar yaşayan biridir..."

SİA xəbər verir ki, bu arada, sosial şəbəkələrdə S.Osmanqızının həkimi olmuş Firdovsi İbrahimov onun son erməni mövqeyindən çıxışına münasibət bildirib.

O, facebook hesabında yazır: "Dəyərli Həmvətənlərim. Hər biriniz kimi Sevinc Osmanqızının çıxışını axıra kimi dinlədim. Vicdanım qarşısında yazmaq məcburiyyətində qaldım. Belə bir çıxışı ancaq bir erməni etsəydi təəccüb etməzdim.

Ama Sevincin çıxışına da təəccüb etmədim. Sizdən fərqli olaraq onu Bakıda yaşayarkən bir həkim kimi çox yaxşı tanıyırdım. O zaman bir həkim kimi onun davranışları və ən əzizlərinə olan davranışlarına çox təəccüblü qalmışdım. Zamanla bütün daşlar yerinə oturarmış.

Nəticə olaraq Sevinc ciddi psixi çaxnaşma içində olan biri idi. Psixiatrlar yaxşı bilirlər. Xarakterdə parçalanma və hezeyanlar yaşayan biridir. Bu qərarlarına görə də daha Bakıda yaşayırkən öz ən yaxın əzizində də fəlakətə səbəb oldu.

Nəticə olaraq Sevincin davranışı məndə təəccüb yaratmadı. Çünkü belə adamlar çox asanlıqla düşmən ölkələrin xarici kəşfiyyatının əlində çox ucuz oyuncağa çevrilirlər. Belələrini çox ucuz və çirkin kampaniyaları üçün istifadə edirlər. Zaman keçdikcə manqurtlaşan sevincin bir gün öz atasını da suçlamasını görsəniz təəccüb etməyin".

### ABŞ-da yaşayan müxalif jurnalist İsmayıl Cəlilov: "Azərbaycan imicinin bandit, xuliqan olduğunu təsbit etməkdən ötrümü savaşdınız", deyir. Buna diqqət çəkirəm: 50 nəfər 3,000-5,000 adam tərəfindən döyülürsə, məgər, bu 50 nəfərə "bandit, xuliqan" gözü ilə baxılırmı? Kim belə baxır? Sevincmi?"

ANALİTİK FAKT

ABŞ-da yaşayan müxalif jurnalist İsmayıl Cəlilov Sevinc Osmanqızının video-çıxışına münasibət bildirib. O statusunda yazıb ki, S.Osmanqızı yalnız özünə və ona havadarlıq edənlərə xoş olmaq üçün montajlar edib: "Osmanqızı kanalındakı artıq montaj edilib yayılan videoya baxa-baxa etdiyim əlavələr: (TAM video deyə bilmirəm buna, çünki naməlum hissələri kəsilib təqdim olunur)

1) Bu çıxış, qarşı tərəfə çox legitimlik vermiş oldu. Deyəcəklər, baxın, öz jurnalistiniz etiraf edib. Bunun, bu çıxışının sədaları çox yerdən gələcək hələ.

2) Osmanqızı TV-də, öz kanalında bu video artlq montaj olunub. Niyə? Canlı yayımın videosudursa, niyə kəsik-kəsik edib paylaşılır? Kəsdiyi yerlərdə nə deyilib? Mən buna canlı baxmamışam. Baxıb irad tutanlar 12:34 baxsın. Ondan əvvəl də, sonra da montaj yamaqları var. Niyə?

3) Özü deyir ki, oraya gələnlər, bilmədən bir təxribata cəlb olunublar (16:29). Yaxşı, bu təxribat nədən ibarət idi? Əks nümayiş keçirmək azərbaycanlıların haqqıdır. Oradakı azərbaycanlılar nə təxribat işlədiblər?

4) "Konsulluq deyirmi, sizi nə gözləyir?" (16:51). Konsulluğu tənqid etmişəm, ortalıqdadır. Amma konsulluq hardan bilsin ki hücum olacaq? Normalda nümayişçilər, kontr-nümayişçilərdən ayrı tutulur. Axı videonun əvvəlində özü də Türkiyə səfirliyi qarşısından kardrlar göstərib, özü də dəfələrlə oraya getdiyini deyib? Elə hallarla üzləşibmi orada?

5) 17:10 (təqribi) Deyir ki, "səfirlər, konsulluq işçiləri beynəlxalq konvensiyalar tərəfindən mühafizə olunur" və s. Bunu getsin ASALA erməni terorçu təşkilatı tərəfindən qətlə yetirilmiş Türkiyə diplomatlarına desin. 1970-ci illərdə bir sıra Türk diplomatı ASALA tərəfindən Avropada öldürülüb. Sevinc bunu bilməmiş olmaz. Bu nə məntiqdir belə?

6) 11:00. "Azərbaycan imicinin bandit, xuliqan olduğunu təsbit etməkdən ötrümü savaşdınız", deyir. Buna diqqət çəkirəm: 50 nəfər 3,000-5,000 adam tərəfindən döyülürsə, məgər, bu 50 nəfərə "bandit, xuliqan" gözü ilə baxılırmı? Kim belə baxır? Sevincmi? Azərbaycan tərəfi nə mənə, nə də ağlı başında heç kimə bandit və xuliqan kimi görünmədi axı.

7) 21:00 civarlarında Türk diplomatlarının qətlə yetirilməsini yada salıb. Özü özünü təkzib edir bu. Bir də, Sevinc, bir əsr bundan əvvəl olmayıb, google-da axtarış ver və bax.

8) 21:28 "Mən sizi inandırım ki heç erməni tərəfində belə niyyət yoxdur." Sən bilərsən, Sevinc... "Bu sivil qarşıdurmanı pozan Azərbaycan tərəfidir". Necə? Nə ilə? Kontr-protestlə? Bu nə məntiqdir belə?

9) Los Ancelesdə konsulluq var. Səfirlik, yalnız ölkənin paytaxtında olur, o da Vaşinqtondur. Yani, xüsusi dərrəkaya malik olanlar üçün: KONSULLUQ LOS ANCELESDƏ. SƏFİRLİK-VAŞİNQTONDA. Qitənin o biri tayında. Amerikada yaşayan jurnalistimiz bunu necə bilməyə bilər axı?

10) Özünü orada keçirilən tədbirin həmtəsisçisi kimi qələmə verən Turgut Əliyev ilə müsahibəmiz ortalıqda. Orada toplaşanlar, konsulluğu qorumaq üçünmü getmişdilər, yoxsa əks-nümayiş keçirmək üçün? Konsulluğu qorumaq söhbəti hardan çıxıb ortalığa? Bildim. SEVİNCİN TƏXƏYÜLÜNDƏN".

Bu kimi hiddətli və haqlı etirazlara səbəb olan çıxışlar yüz minlərlədir artıq. Bütün dünyada yaşayan və millətini, dövlətini, xalqını sevən azərbaycanlılar erməni ünsürlərinin xidmətində dayanan bu satqınları lənətləyir və onların azərbaycanlı adını daşımağa haqlarını itirdiklərini bildirirlər. Hər halda, uzun illərdir deyilənlər, yazılanlar, irəli sürülən erməniпərəstlik iddiaları əbəs deyilmiş və bizləri "çətinə düşən kimi" onları erməniпərəstlikdə suçlamağımıza lağ edənlər indi gözlərin dörd açıb, bu faktlara daha dərindən baxsınlar.

Sonda isə demək istərdim ki, erməniпərəstliyin buynuzu-flanı olmur ki, hər şey ortada və göz önündə. Necə deyərlər, kor-kor, gör-gör...

**Rövşən RƏSULOV**

# Satqınların sonu, aqibəti

*Bu yolla Sevinc Osmanqızı, Arif Məmmədov və...bağışlanılmayan cəzalarını almalıdırlar!!!*

Müşahidələr göstərir ki, satqınlıq, ermənəyə nökərçilik, təhqir, söyüş radikal müxalifətin əsas fəaliyyət prinsipinə çevrilib. Siyasi naqislik və zəiflik bu düşərgə mənsublarının əsl mahiyyətini açıb ortaya qoyur. Hakimiyyətə, ictimaiyyət nümayəndələrinə, ziyalılara, eləcə də onların şər-böhtan kampaniyalarına dəstək verməyən insanlara qarşı qeyri-əxlaqi davranışlar, təhqirlər radikal müxalifətin əxlaq probleminin olduğunu tam sübuta yetirir. Əslində, bu əxlaqsız mübarizə metodunun özünü "müxalifətçiyəm" deyənlər üçün heç də yad olmadığını göstərən yaxın keşmişdə kifayət qədər sübütlar var. Bunun üçün cəmiyyətə özünü "ana müxalifət" kimi sırımaga çalışan Əli Kərimli və onun silahdaşlarının sırasına nəzər yetirmək kifayətdir. Qənimət Zahid, Azər Əhmədov, Natiq Ədilov, Xədicə İsmayıl, Sevinc Osmanqızı, Qənimət Zahid, Arif Məmmədovların ... vaxtilə yayılmış videoları hələ də unudulmayıb. Bu satqınların təmsil olunduğu düşərgənin öz əxlaqsızlıqlarını siyasi mübarizə səhnəsinə daşıması ola bilsin ki, onlar üçün normal haldır. Adını "siyasi mübarizə" qoyub qarşılarındakı insanları küçə söyüşləri ilə təhqir edən bu insanlar onları ilk növbədə öz ailə üzvlərinin izlədiyinin yəqin ki, fərqindədirlər. Amma görünür onlar öz ailələrinə bunu da rəva görürlər.

Araşdırmalar göstərir ki, radikal düşərgə təmsilçiləri öz güclərini Avropadakı məlum antiazərbaycançı şəbəkədən alırlar və fəaliyyətlərini də buna uygün koordinasiya edirlər. Əxlaqı korlanmış "sosial media qəhrəmanları" Avropada oturub Azərbaycan əleyhinə təbliğat aparırlar və radikal düşərgə təmsilçilərinə konkret istiqamət verirlər. Amma maraqlısı odur ki, xaricdəki siyasi buqələmunlar etiraz formalarını açıq və sivil formada göstrərmək üçün məkan olaraq izdihamlı yerləri yox, ayaqyollarını seçirlər. Bununla da mahiyyət etibarilə "ayaqyolu müxalifəti" funksiyasını daşıdıqlarını göstərirlər.

"Ayaqyolu müxalifəti"nə başçılıq edən Əli Kərimli və onun birbaşa nəzarətində olan cəbhə trolları da ən təhqiramiz ifadələrlə insanların heysiyyatına toxunurlar. Onlar üçün müqəddəs dəyərlər artıq yoxdur. Əxlaq problemləri mövcud olan bu şəbəkənin konkret missiyası var: bizi dəstəkləməyənlər düşmənlərimizdir. Ancaq bir əxlaqsızlıq, mənəviyyatsızlıq baş verdikdə isə bunu sosial şəbəkə vasitəsilə tirajlayırlar.

Vidadi İsgəndərli olayında cəbhə trollarının böyük canfəşanlıq etmələri bu baxımdan diqqətdən yanınmadı. Atasının qəbrinin təhqir olunması yalanı üzərində siyasi divident qazanmağa çalışan belə insanlardan başqa nə gözləmək olar?

### Şəbəkə virusların "dəstəkçisi" - Sevinc Osmanqızı nə istəyir?

Əslində bu təəccüb də doğurmur. Çünki vətənini, dövlətini, hətta ailəsini belə satan mənəviyyatsız Sevinc Osmaqızı haqqında işlətmək yerinə düşür. Bu o S.Osmanqızıdır ki, özünü az qala Tomris üstəgəl Burla Xatun obrazlarını cəmləşdirərək "mərhəmətli, savadlı, şəfqətli, amma qətiyyətli, sarsılmaz və iradəli qadın" obrazı yaratmağa çalışır. Məqsədi isə, həmişə Azərbaycanın inkişafı, tərəqqisi, insanlarımızın inkişaf etmiş Qərb dövlətlərindəki kimi yaşaması deyil. Qətiyyən, o tam əksini arzulayır: qiyam, üsyan, vətəndaş müharibəsi, qan gölü. Bax, bugün açıq-aydın onun iç üzü, xisləti göründü. Bu günlərdə "Osmanqızı TV" kanalında etdiyi etdiyi çağırışlarında da aydın şəkildə vətəndaş müharibəsinin olması arzusunda olduğunu aydın şəkildə bildirir. Ancaq bu arzu da arzu olaraq qalacaq və bu virusla birlikdə o dünyalıq olacaqsan, İnşallah!

Çünki Azərbaycan artıq dünya birliyində demokratik prinsiplərin inkişafına önəm verən, müstəqil siyasət yeridən dövlət kimi tanınır. Və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası, düşünülmüş xarici siyasət, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən köklü islahatlar dövlətimizə yeni uğurlar qazandırmış, onun mövqeyini daha da möhkəmləndirmişdir.



### Satqınçılığın gerçək üzü...

Bu satqınçılığın gerçək üzü bəli, Sevinc Osmanqızıdır! Bu o Sevinc Osmanqızıdır ki, bu gün sosial şəbəkələrdə onunbunun sifarişlərini canla-başla həyata keçirən, əvəzində filan qədər dollar, avro ələ edənlərə, Vətəninin maraqlarını amerikan, ingilis və s. ölkələrin xəfiyyələrinə satan Sevinc Osmanqızıdır! Bir fərd ki, öz ailəsinə, soyadına qarşı xəyanət edirsə, ondan bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür. Çünki mən, o, digər vətənsevər jurnalistlər, qələm adamları heç vaxt (!) öz peşəsinə, dövlətinə, dövlət başçısına xəyanət etməyib, etməyəcək də! Xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır. Lakin Sevinc kimiləri üçün isə, xəyanət etmək ən adi bir məsələdir. Və ondan bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür.

### Sevinc Osmanqızı - Əli Kərimli fərq yoxdur

Əli Kərimli düşüncəsi, diktator xəslətliliyi eyni ilə Sevinc Osmanqızında da var. Mütəmadi olaraq, sosial şəbəkələrdən istifadə edən insanlar, yaxşı bilirlər ki, Sevinc Osmanqızı yalan danışmağı çox yaxşı bacarır. Çünki Osmanqızı həmin 5-10 minlərin yaşadığı Azərbaycanın əleyhinə olan planlarda yer alıb. Sevinc Osmanqızı bu qədər yalanla, Vətəni satmaqla qrant almaq birbaşa ermənilərin vurub partlatdığı vertolyotda şəhid olan atası Osman Mirzəyevin ruhunu təhqir etmiş olur. Və Sevinc Osmanqızı - Əli Kərimli satqınçılıq xarakterləri bir daha onu sübut edir ki, hər ikisi eyni bezin qırağıdır, fərq yoxdur.

Bir də dərk etməyə nə əqli, nə də əxlaqı imkan vermir. İllər böyu rusun, farsın, ermənin, ingilisin, amerikalının, norveçlinin maşası, quruqbulayanı ola, belə əxlaqsız və mənəviyyatını bütünlüklə qrantlara satan bir nakəsdən başqa nəyi gözləmək olar?! Pul müqabilində mitinqə qatılan 2800-3000 nəfər qaragüruhçunu, şəkil çəkdirib, ondan arayış alaraq, Avropaya "siyasi mühacir" statusunda getmək istəyən tör-töküntüləri xalqla səhv salan S.Osmanqızı, Ə.Kərimli kimi nəsli, nəcabətini ermənilişdirən nacinsdən nə gözləmək olar?. Əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi satqınlardan çıxar. Avropadakı sülüngəclər sanırlar ki, mitinqlər etməklə, "hakimiyyət xalqla hesablaşacaq". Doğurdan da bədbəxtsiniz! Çünki Sevinc Osmanqızı "Osmanqızı TV" adı ilə "Youtube" kanalı üzərindən yayımladığı videolar, canlı bağlantılar, apardığı müzakirələr, səsləndirdiyi qərəzli fikirlər də bu qəbildəndir. Ancaq bir məqamı da anlamalısan, Sevinc Osmanqızı- qanun hamıyı şamil edilir - əxlaqlıyı da , əxlaqsıza da, siyasətçiyə də, sadə vətəndaşa da. Və bu gün özünü tərəfsiz, "xalq fədaisi" kimi Azərbaycan cəmiyyətinə sırımaq istəsən də xalq sənin kim olduğunu görür və bilir. Ancaq ...

### İngilisdilli əyalət tribunası S.Osmanqızı...

Bəlkə, Sevinc Osmanqızı atası Osman Mirzəyevin ermənilərin əli ilə şəhid olmasını da "unudub". Unutmayıb. Çünki onun üçün ermənilərlə bir olmaq hər şeydən üstündür. Bax, budur, satqınlıq və əxlaqsızlıq!. Məhz bu gün Ermənistan silahlı qüvvələrinin son günlər cəbhədə və Azərbaycanla sərhəddə gərginliyi daha da artırdığı, təxribatlar törətdiyi, ermənilərin dünyanın bir sıra ölkələrində həmvətənlərimizə qarşı hücumlar təşkil etdiyi bir vaxtda erməni jurnalisti deyərdim, Sevinc Osmanqızı düşməni müdafiə edən fikirlər səsləndirib, çağırışlar edib.

Soydaşlarımızı əli on minlərlə azərbaycanlının qanına batmış erməni terrorçularına qarşı sivil mübarizə aparmağa çağıran Sevinc Osmanqızı sözün həqiqi və məcazi mənasında bununla da düşmən dəyirmanına su töküb. O, iddia edib ki, guya bu gün sivil qarşıdurmanı pozan Azərbaycan tərəfidir. "Bu qarşıdurmanı təşkil edən Azərbaycan tərəfidir", deyən S.Osmanqızının Azərbaycan xalqı, dövləti əleyhinə səsləndirdiyi fikirlər ermənilərin çoxdan axtardıqları bəhanələrdir. Bəli, düşmən çoxdandır bizim hansısa birimizin dilindən bu sözləri axtarırdı ki, ondan istifadə edərək, "baxın, azərbaycanlılar özləri öz əməllərini işfa edirlər", - desinlər. "Onlar (xaricdə yaşayan azərbaycanlılar - red) nəyə görə səfirliyin müdafiəsinə qalxmalıdırlar?" - sualını verən jurnalist ermənilərin üzərində ASALA terror təşkilatının adı olan paltarlar geyinən ermənilərin Azərbaycanın xaricdəki diplomatik konsulluqlarının binalarına təşkil etdiyi hücumları "görmürmü"? Olmaya ermənilərin küçələrdə döyüb xəsarət yetirdikləri soydaşlarımızın axan qanını, yaralarını da görmür? "Mən yenə də davanın kim başlaması məsələsinə girməyəcəm. Bunu ayırd etmək çətin məsələdir və əhəmiyyətli məsələ də deyil", - deyən Osmanqızı əlavə edir: "Bu, Azərbaycanın milli maraqlarının müdafiəsi deyil". Və Sevinc Osmanqızı bununla da özü barəsində tam, dolğun, əslində əvvəllər də mövcud olan xoşagəlməz imic haqqında aydın təsəvvür formalaşdırır. Deyəsən Osmanqızı iyulun 12-dən 16-dək sərhəddə gedən döyüşlərdə erməni təxribatının qurbanı olan şəhidləri də unudub... Unutmayıb, hər şeyi satmağa adət edib - mənliyini, ailəsini, torpağını, vətənini, dövlətini... Soruşmaq istərdik: Neyləmisən? Sən hansı haqla özünü "xalqın fədaisi" hesab edirsən? Elə buna görə də ingilisdilli əyalət tribunası olan S.Osmanqızını nə qədər vəhşi, faşist adlandırsaq da, ondan da ağır bir söz axtarışına çıxdım. Tapdığım söz insan yox, İBLİS oldu. Bəli, S.Osmanqızı iblisdir. Əgər vaxtı ilə Sarkisyan belə, etiraf edir ki, Xocalıda insanları bilə-bilə qırıblar- deyirsə, bu iblis və onun kimilər - Arif Məmmədovlar, Orduxanlar, Fəxrəddinlər, Vidadilər, Yunuslar, Xədicələr və sırası, mənşəyi bu ünsürlər erməni təəssübkeşləri bunu anlamır. Çünki bu qərəzli, üfunət dolu, idbar, antiAzərbaycan, yalnız qara-qura ilə məşğul olan bu iblis xislətlilərin hamısı Avropada oturub gecə-gündüz Azərbaycan əleyhinə aksiyalar təşkil etməklə hökumətin əleyhinə fikirlərlə daha çox qrant almaq davası aparmaqdadır.

Və sonda bu satqınlar bilməlidirlər gec-tez xalqın qarşısında ən ağır cəzalarını alacaqlar, özü də bağışlanılmayan cəzalarını!

***Rəfiqə HÜSEYNOVA***

## "Osmanqızı son bəyanatı ilə azərbaycanlı olmaqdan imtina edib"

"Ağlımıza gəlməzdi ki, hansısa azərbaycanlı qanı daşıyan şəxs son hadisələri şərh edərkən "Ermənidə günah yoxdur", "Xaricdəki qarşıdurmaları Azərbaycan özü təşkil edir" kimi açıqlamalar verə biləcək səviyyəyə enər. Özü də belə bir bəyanatı vaxtilə ermənilərin törətdiyi terror nəticəsində vəfat edən Osman Mirzəyevin qızı Sevinc Osmanqızı verə...Osmanqızı son bəyanatı ilə təkcə hər hansı bir insana məxsus müsbət keyfiyyətlərdən deyil, həm də azərbaycanlı olmaqdan imtina edib. Onun verdiyi bəyanatla eynilik təşkil edən açıqlama ilə keçmiş səfir Arif Məmmədov, həmçinin özünü hüquq müdafiəçisi kimi qələmə verən Vidadi İsgəndərli də çıxış edib. Bu, ilk növbədə onların bir mərkəzdən idarə olunduqlarını isbat etməkdədir. Həm də harda Azərbaycanın əleyhinə işləyən qüvvələr varsa, onların yanında peyda olan, ölkəmizə qarşı işləmək üçün bütün variantlarda istifadəyə yararlı bir insan olduqlarını sübuta yetirməkdədirlər". Bunu SİA-ya Əməkdar jurnalist Elman Babayev deyib.



Onun sözlərinə görə, əslində Osmanıqızı və onun kimilərinin indiyə qədər Azərbaycan əleyhinə etdikləri bütün çıxışlara diqqət yetirmək kifayət edirdi ki, nə mal olduqları görünsün: "Bu çıxışlar həmişə Azərbaycan dövlətini gözdən salmaq üçün səsləndirilən yalanlarla, ermənilərin maraqlarına uyğun yanaşmalarla zəngin olub. Amma açıq şəkildə ermənilərin müdafiəsinə qalxmağa "cürətləri" çatmayıb. İndi "Ermənidə günah yoxdur"- deyib açıq tekstlə ermənilərin müdafiəsinə qalxmaq artıq Osmanqızıda və onun kimilərdə əxlaqi, mənəvi keyfiyyətlərin tam aşınmasını göstərir.

Bu insanlar bir daha nümayiş etdirirlər ki, belələrində insana məxsus heç bir dəyər anlayışı yoxdur, təkcə tanıdıqları dəyər puldur və onlar üçün mənfəət hər şeydən öndə gəlir. Azərbaycana qarşı hər cür çirkin kampaniyada yer alan bu şəxslərin bir amalı var-ölkəmiz əleyhinə daha çox işləmək və daha çox pul əldə etmək! Erməni diasporasının əlində alətə çevrilənlər artıq ən iyrənc yola belə əl atıb ermənilərin müdafiəsinə qalxırlarsa, bu onların hər mənada sonudur.

Azərbaycana yanaşmada həmişə ermənilərlə bir cərgədə yer alanlardan müsbət nəsə gözləmək də yersizdir. Amalı, inamı pul olanlar üçün Vətən anlayışı olmur. Bu şəxslər etdiklərindən xəcalət çəkmək hisslərini də itiriblər və ortaya düşüb özlərini qəhrəman, xilaskar obrazında təqdim etməyə çalışırlar.

Bu cür qüvvələr doğrudan da, təhlükəli qüvvələrdir, çünki özbaşına hərəkət etmirlər, müəyyən bir mərkəzdən, planlaşdırılmış siyasi xətdən çıxış edirlər. Azərbaycanın uğurlarına sevinmək hisslərini çoxdan dəfn etmiş bu insanlar qızışdırıcı metodlarla ölkədə xaos mühitinin yaranması üçün hər yola baş vururlar. Ölkəmizin həm cəbhədə, həm daxildə qazandığı nailiyyətlər düşmən xislətli adamlarda qıcıq, xainlik yaradır və onları pis əməllərdə şərik olmağa sürükləyir. Qeyd etdiyimiz adamlar bu qəbildəndir, hazırda Azərbaycan, mövcud hakimiyyət əleyhinə hər cür pislik üçün yenidən hərəkətə keçiblər.

Məqsəd odur ki, Azərbaycan tutduğu xətdən imtina etsin. Etmədikdə isə hər cür qarayaxma kampaniyasını, böhtanı, ittihamı dövriyyəyə buraxırlar. Bununla yanaşı, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artmasını, hər il ölkəmizin dünyada imicini gücləndirən, gücünə güc qatan beynəlxalq səviyyəli addımların atılmasını qəbul edə bilmirlər.

Əslində Azərbaycanın uğurlarına sevinən, onun mənafeyini güdən, qanında bu millətin qanını daşıyan hər bir fərd görülən işlərin miqyasını dərk edər, nəinki xain ssenarilərə dəstək verər; xaricdə oturub, ölkəsi əleyhinə çirkin kampaniya aparar. Təəssüf ki, vəziyyət məhz belədir! Azərbaycana xain gözlə baxanlar sırasında qanı özümüzdən olanlar da yer alıb. Belə anti-Azərbaycan qüvvələri çalışır ki, Azərbaycan hər cür böhtanla beynəlxalq qınaq obyektinə çevrilsin, ictimai narazılıq artsın, ölkədə qarmaqarışıq bir vəziyyət yaransın, bundan istifadə edən maraqlı çevrələr Azərbaycan üzərindən özlərinə gərəkli olan ssenariləri başlatsınlar. Fəqət, hansısa çirkli planların hansısa qüvvələr üzərindən Azərbaycanda təkrarlanması imkanları yenə də minimuma enəcək. Çünki xalqa iyrənc, qorxunc planlarda alət olmaq yox, məhz Azərbaycanın düşmənə qarşı daha da güclü olması lazımdır ki, mövcud hakimiyyət, ilk növbədə bu siyasəti həyata keçirir. Gücünü xalqdan alan bir hakimiyyət düşmənə yanaşmada necə etməlidirsə, məhz belə də edir! Cəmiyyət isə azərbaycanlı qanı daşıyıb ermənişən bir qrup insanın niyyətlərini anlayacaq qədər sayıqdır. Nə qədər çalışsalar da, iyrənc yollara baş vursalar da, Azərbaycan istənilən təzyiqlər qarşısında qorxusuz, özünə güvənən, özünə arxayın, inamlı, qürurlu dayanır və dayanacaq!".

# Türkiyədən yazırlar: Osmanqızının ötürdüyü mesajlar nəyə hesablanıb, bunu bilirik...



***Görəcəksiniz, əvvəlcə "Amnesty İnternational", dalınca da beynəlxalq "Sərhədsiz Reportyorlar" təşkilatı müstəqil (?!) jurnalist Sevinc Osmanqızına qarşı yaranan ictimai qınağı "mənəvi terror" adlandıracaq, onların burdakı əlaltıları isə iqtidarı günahlandıracaqlar ki, kadrlarda səsləndirilən fikirlər kontekstdən çıxarılıb, qayçılanıb, əslində orda guya Sevinc Osmanqızı Qarabağı elə bizim torpaqlar kimi göstərib, burda heç bir erməni dəyirmanına su tökməkdən söhbət belə gedə bilməz. Bəli, əfəndilər, indidən bu məsələ belə pərvazlanmağa başlayıbsa, hər şeyi yuxarıda yazdığım kimi görəcəksiniz, Sevinc Osmanqızından "Raif Bədəvi" və "Ənsaf Heydər" düzəltməyə cəhd göstərəcəklər...***

Əslində, bu ssenari tanış ssenaridir, illərdir Əli Kərimlisindən başlayaraq, lap belə Günel Mövluduna kimi, Sevinc Osmanqızı da bunların başında gələnlərdəndir, ucuz təbliğat maşınları ilə gündəmdə saxlamağa cəhd göstərirlər. Gah Orduxan çıxır bu aksiyalar məni aradan götürməyə hesablanmışdı deyir, gah Günel Mövlud həmin aksiyaları dəstəkləmədiyini qeyd edib humanizm göz yaşlarına boğularaq "sülhə gəlin, ey insanlar" çağırışını edir, gah yarımçıq inqilabçı Qiyasbala intihara cəhddə bulunur, belə-belə həmin üzdəniraq təşkilatların da əlinə kart keçir ki, Azərbaycana qarşı təzyiqlər etsin. Diqqət edin, Sevinc Osmanqızı həmin verilişdə bir əsas xətti ştrix kimi təqdim edir tamaşaçılarına: hücum edən tərəf Azərbaycandır, hər iki məkanda da: həm cəbhədə, həm də xaricdə keçirilən aksiyalarda. Bu tezis ona kim tərəfindən ötürülüb o da bəllidir: dünyadakı antimilli mərkəzlər. Həmin mərkəzlərin də ermənilərlə həmrəy olduğuna dair heç kimsənin şübhəsi olmasın və əminəm yoxdur da. Bir məqam da diqqətimi çəkdi kadrda: ABŞ-da bir azərbaycanlı gəncin dediyi bir söz. Sevinc Osmanqızı bir neçə dəfə həmin ifadənin altından qırmızı xətt çəkirmişcəsinə dilə gətirir: BİZ SONUNA KİMİ SAVAŞDIQ... Burada diqqət etməli olduğumuz iki məqam var:

1.Osmanqızı burada tamaşaçılarının şüuraltısına mesaj göndərir: məğlubluq kompleksini körükləyir. Guya əsas hadisə kimi ABŞ-da keçirilən mitinqlər götürülür, alt qatda isə I Qarabağ müharibəsi ilə bağlı sublimal mesaj var. Yəni, diqqət edirsinizsə, deyilən cümlə yarımçıqdır və bitməyib: BİZ SONUNA KİMİ SAVAŞDIQ... Sonrasında isə... Sonrasında məğlub olduq... Əgər məğlub olacaqdınsa, nə gərək var idi savaşmağa?! Bakıda və ümumilikdə Azərbaycanda artan vətənpərvərlik əhvali-ruhiyyəsi bu tezisi Osmanqızının önünə qoyanları narahat etdiyini də nəzərə alsaq, məncə məhz bu məqamda məğlubluq kompleksinə vurğu göndərmələri anlaşılandır.

2.Heç kəsə sirr deyil ki, imperialist qüvvələrin və onların Azərbaycandakı əlaltılarının illərdir ölkədə regionlararası ədavəti qızışdırma cəhdləri Osmanqızının xəstə təfəkkürü ilə birləşəndə ortaya atılan tezis də bir tərəfdən tamaşaçılara ötürülür: VƏTƏNŞİVƏNLİK! Xalqın jarqon təfəkküründə kimin şivənlik etdiyini nəzərə alsaq və "Vətən" kəlməsinin hardasa "ANA" kəlməsi ilə sinonim kimi işlədildiyini bildiyimiz üçün məsələnin olduqca təhlükəli məqamlara gedib çıxa biləcəyini hesablamaq elə də çətin olmaz. Yəni, ABŞ-da və digər Avropa ölkələrində yaşayan azərbaycanlılara mesaj verilir: Qarabağ münaqişəsi o ərazilərdə yaşamış insanların lokal münaqişəsidir və Azərbaycanın digər bölgələrindən olan vətəndaşlara bunun nə aidiyyatı? Sosial mediada bəzi regionda maraqlı qüvvələrin nəzarətində olan profillər vasitəsi ilə ötürülən mesajla necə də səsləşir, elə deyil? Amma Sevinc Osmanqızı da, onun ağaları da, onların müttəfiqləri bir şeyi nəzərdən qaçırırlar: Azərbaycan xalqı anasını da, Vətənini də qorumağı bacarır, ayrıca kimin nə şüvənliyi edəcəyini və etdiyini də çox gözəl bilir. Daha çox şeylər də yazmaq olardı: amma adam şəhid Osman Mirzəyevin ruhundan həya edir. Sevinc Osmanqızının bizdən fərqli olaraq belə şeylər vecinə belə deyil.

***Oktay Hacımusalı,***
***Türkiyə Jurnalistlər Birliyinin Ankara təmsilçisi***

# "Sevinc Osmanqızı bir başa erməni mövqeyi sərgiləyir"



***Bütün dünyada Azərbaycanın diaspora fəalları Ermənistanın cəbhədə təxribatlar törətmələrinə etiraz əlaməti olaraq silsilə etiraz aksiyaları keçirir və erməni terrorçularının cəzalandırılması tələbləri ilə çıxışlar edirlər.***

Bu arada ermənipərəst mövqedən çıxış edən Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli və digərləri xaricdə azərbaycanlıların Ermənistanın işğalçılıq siyasətinin əleyhinə olan aksiyalarını xuliqanlıq, quldurluq və vəhşilik kimi qələmə verirlər. Bu cür üzüdönüklük və riyakarlıq, yaramazlıq nədən qaynaqlanır? "Yurddaş" partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, düşmən Ermənistan ona sahiblik edən qüvvələrin, himayədarlarının fətvası ilə yenidən üstümüzə gəlmək istədi, lakin bu dəfə də ordumuz ermənilərin çoxsaylı canlı qüvvəsini və zirehli texnikasını məhv etməklə, onları geri otuzdurdu: "Bildiyiniz kimi, ordumuz Tovuzla sərhəddə düşmənə çox ciddi zərbələr vurub, hələ uzun müddət düşmən Ermənistan bu zərbələrdən özünə gələ bilməyəcək. Lakin ermənilər öz itkilərini başqa müstəvilərdə bərpa etmək istəyirlər. Bu gün Avropanın, Amerikanın və digər ölkələrin şəhərlərində, küçələrində azğınlıq, həyasızlıq edən radikal erməni gəncləri həmin ölkələrdə təhsil alan, yaşayan və müxtəlif səbəblərlə həmin ölkələrə getmiş və orada qalmış həmvətənlilərimizə qarşı sözün həqiqi mənasında vəhşiliklər törədir, vandalizm aktları törədir, soydaşlarımıza qarşı fiziki güc tətbiq edirlər. Artıq bizim həmvətənlərimizdən çoxlu sayda ağır xəsarət alanlar var. Bütün bunların qarşısını almaq üçün millətimiz, dövlətimiz çox ciddi şəkildə istər diplomatik, istər hüquqi, istərsə də siyasi müstəvidə ciddi addımlar atır və ermənı vandalizminin qarşısının alınması üçün dövlət strukturları bütün səylərini artırır".

M.Səfərli onu da bildirdi ki, ermənilərin, əslində bu gün küçələrdə sərgilədikləri davranış onların genetik zəifliklərindən, qorxaq erməni xislətindən irəli gəlir: "Lakin burada məni daha çox narahat edən məsələ adını azərbaycanlı qoyub erməni dəyirmanına su tökən insanların anormal davranışlarıdır. Uzun illərdir Amerikadan sosial şəbəkələr və "Yutub" vasitəsi ilə verilişlər yayımlayan Sevinc Osmanqızı bu gün bir başa erməni mövqeyi sərgiləyir. Unutmaq lazım deyil ki, bu qadının atasını da, məhz ermənilər 1990-cı ildə vertolyot qəzasında öldürüblər. Yəni bu xanımın ermənilərə belə bir məhəbbətinin olması Azərbaycan xalqında nifrət hissi yaradıb. Bir sözlə, Sevinc Osmanqızının sərgilədiyi ermənipərəst mövqe ona qarşı dərin nifrət yaradır. Sevinc Osmanqızının müxalifətçilik mövqeyini başa düşmək olar, yəni hər an əlinə fürsət düşən kimi, Azərbaycan dövlətinin gördüyü işlərə qarşı yalandanpalandan nə gəldi danışır, amma ermənilərlə bağlı bu mövqedə olması S.Osmanqızı xalqın nifrətini özünə qarşı yönəldir. Eyni məsələni Arif Məmmədov haqqında da demək olar. Keçmiş diplomat Arif Məmmədovu da başa düşmək olmur ki, o, nə haqla ermənilərin tərəfindədir və hansı haqla erməniləri müdafiə edir. O cümlədən də, Vidadi İsgəndərli haqqında da bunu demək olar. Bu gün Vidadi İsgəndərli də durub erməniləri müdafiə edir. Bu insanların bu cür hərəkətləri başa düşülən deyil. Ümumiyyətlə, bütün dünya bilir ki, ermənilər işğalçı tərəfdir. İşğalçıya azərbaycanlı olduğunu iddia edən şəxslərin haqq qazandırması onların azərbaycanlı olmalarına şübhələr yaradır".

***Gülyana***



**Təhmasib Novruzov**

# Kökü üstdə bitməyən ot və ya anoloqu olmayan naxələflik

Yaşadığımız dünyada çox, lap çox qəribəliklərlə qarşılaşmışıq. Haqqın nahaq üzərində, müvəqqəti olsa belə qələbəsinə də şahidlik etmişik, göz görə-görə qatığı qara adlandıranları da görmüşük, aslandan törəyib çaqqal olanları da tanımışıq. Amma indi gördüyümüz, eşitdiyimiz,içimizdən qovrula-qovrula müşahidə etdiyimiz naxələfliyin dünya tarixində anoloqu olmayıb, güman ki, bundan sonra da olmayacaq.

Hayların Tovuz təxribatının ardınca dünyanın bir sıra ölkələrində - ABŞ-ın Los-ancelos şəhərində, Belçikada, Polşada, Fransada və erməni lobbisinin güclü olduğu digər bölgələrdə dinc Azərbaycan əsilli vətəndaşlara, eləcə də Azərbaycanın səfirlik və konsulluqlarına qarşı ermənilərin törətdikləri zorakılıqlar hər kəsi son dərəcə hiddətləndirir. Təbii ki, hiddətimizlə, qəzəbimizlə addımlar atıb düşmənin və onu vassal edənlərin əlinə təbliğat rıçaqı verməməliyik. Əksinə, erməniçiliyin, erməni vandallığımın nə demək olduğunu bu hadisələrdən istifadə edib dünyaya yaymalıyıq. Burası məlum. Amma məlum olmayan, adamda hiddətlə yanaşı qeyri-adi kədər və təəssüf hissi yaradan odur ki, okeanın o tayında oturub bu hadisələrin məhz Azərbaycan tərəfindən təşkil olunduğunu deyən "azərbaycanlı" da var.

Əslində atasını (ən azı rəsmi sənədlərə əsasən)tanımasaydıq, onun həqiqətən azərbaycanlı olduğuna şübhə edərdik. Amma neyləyəsən ki, atasına görə onun erməni olduğunu da iddia edə bilmirik. Mən 20 noyabr 1991-ci ildə, Qarakənd üzərində vurulan helikopterdə şəhid olmuş Osmən Mirzəyevi şəxsən tanıyırdım. Qarabağda apardığı çəkilişlərdə hər zaman onun ən yaxın bələdçisi olmuşam. Bütün varlığı ilə vətəninə, millətinə bağlı, qorxmaz, hünərli biri idi rəhmətlik. İllərdir ki, ABŞ-da oturub Azərbaycana, Azərbaycan dövlətinə qarşı piyar kompaniyasının önündə getməsinə rəğmən, məhz ağır günlərdə dəfələrlə çörək kəsdiyim bir qeyrətli kişinin qızı kimi, onun barəsində susmağa üstünlük verirdim. Düşünürdüm ki, cavandı, hələ qanmır, yaxşını pisdən ayırmaqda çətinlik çəkir. Nə vaxtsa ağlı başına gələcək, elədiklərinin tək özünün deyil, əslinin, şəcərəsinin, başlıcası Vətən naminə canından keçmiş atasının adına ləkə vurmaqdan çəkiləcək. Amma, atalar demiş, sən saydığını say, gör fələk nə sayır! Bu dəfə son hadislərlə bağlı elə iyrəncliklər törətdi ki, artıq susmağa təhəmmülüm qalmadı...

Əminəm ki, onun son çıxışlarından hər kəsin xəbəri var. Tək-tük xəbəri olmayanlara da mən xatırladım. Sitat: "Bütün bunların arxasında Azərbaycan dövləti dayanır, rəsmi Bakı törədir bütün bunları..." Sitata son!

Bunu şəhidimiz Osman Mirzəyevin qızı Sevinc deyir. Los-Anncelosda, Belçikada baş verənləri , yəni ermənilərin Azərbaycanlılara hücumlarını şərh edib də, sonunda həmin sözləri deyir. Sən demə Azərbaycan dövləti, "rəsmi Bakı" erməni lobbisi ilə, ASALA erməni terror təşkilatı ilə (Əstəğfurullah) iş birliyi qurub, öz millətini döydürürmüş! Anlayırsınızmı məntiqi? Gələk ora ki, Osmandan olub Osman adına ləkə vuran, kökündən ayrı düşmüş xanımın bu sözləri niyə deməsinə! Təbii ki, bunları özbaşına demir. Biz həmişə deyişik, yenə deyirik, xaricdə oturub Azərbaycana qarşı qarayaxma kompaniyası aparanların hər birinə maliyyə ya ermənilərdən gəlir, ya da ermənipərəst qüvvələrdən. Sevincin də apardığı piyar kompaniyasının maliyyə mənbəyinin erməni olduğu elə onun bu çıxışından aksioma çevrildi. İnsan zatını,kökünü nə qədər ayaqlar altına atar ki, öz millətinə, öz dövlətinə qarşı bu qədər qənim kəsilsin? Yazımın əvvəlində də qeyd etdiyim kimi, tarix çox xəyanətlər görüb. Düşmənlə gizli dostluq edib onlara hərbi sirləri verənlər də olub, hakimiyyətdən narazı olub onun əleyhinə kompaniya aparanlar da olub, amma açıq-aşkar düşmənin mövqeyindən çıxış edib, bütün dünyaya öz millətini vəhşi, barbar təqdim etməyə cəhd eliyən birinci dəfə görürük. Xəyanətin də bir həddi-hüdudu var. Bu adamın özünün özünə dəyər verən biri olmadığını çoxdan bilirdik, Amma şəhid ailəsi kimi şərəfli, ali statusu olan bu "xanım"ın belə müqəddəs ada da dəyər verməməsi çox, həm də çox cansıxıcıdı. Axı bir şəhid övladının, həm də ermənilər tərəfindən şəhid edilmiş bir kişinin övladının dili necə gəlir bu sözləri söyləməyə? Özü də indiki həssas dönəmdə! Hakimiyyətdən narazı olmaq da təbiidir, hakimiyyəti tənqid etmək də təbiidir. Hakimiyyət milyonlarla insanın hər birini istədiyi kimi yaşada bilməz və bu dünyanın bütün ölkələrində belədir. Ancaq hakimiyyətə olan etirazını millətinə, xalqına, dövlətinə ən iyrənc qarayaxma ilə izhar eləmək nə insanlığa yaraşır, nə mənsub olduğu kökə.

Xülasə, Sevincin bu çıxışı ilə bağlı bir kitab nifrət səpələyə bilərdim. Amma burda fikirlərimə yekun vurub bir-iki klmə ilə tamamlamaq istəyirəm. Atalarımız otun kökü üstdə bitdiyini deyiblər. Dünya o qədər dəyişib ki, öt artıq özünün deyil, başqasının kökü üstdə bitir - Sevinc Osmanqızı kimi! İnsan dosta da xilaf çıxa bilər, qonşuya da, qohuma da, son məqamda elinə,obasına da. Bu da pislənən naxələflikdir, təbii. Millətinə, dövlətinə, nəslinin, şəcərəsinin adına, ən sonda müqəddəs şəhid varisi adına naxələfliyin anoloqu yoxdur. Bunu da bir adam bacardı - Sevinc Osmanqızı! Dünyanın sonumu gəlir, görəsən?

# Milli ailə dəyərlərinin mahiyyəti

***Xalqımız vətənə hədsiz məhəbbəti, torpağa bağlılığı, el-obaya sonsuz sevgisi, ağsaqqala, ağbirçəyə dərin hörməti, ailəyə sədaqəti, qayğısı, ibrətamizliyi ilə tanınır, sayılır, seçilir. Heç şübhəsiz, bu həmişəyaşar, yüksək bəşəri keyfiyyətlər arasında ailə dəyərləri - ağsaqqallıq, ağbirçəklik institutu böyük maraq doğurur, müstəsna məna və məzmun kəsb edir. Ağsaqqallıq və ağbirçəkliyin cəmiyyətdə oynadığı rol, tutduğu mövqe və bütün bunların öyrənilməsi, tədqiqi, son zamanlar getdikcə zəifləmə səbəbləri tədqiqatçıların mühüm tədqiqat obyektlərindən biri olmaqla yanaşı, həm də mənəvi mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

XX-XXI əsrlər mədəniyyətlərin mübarizəsi əsri kimi özünü göstərdiyinə görə, Azərbaycan xalqının mənəvi mədəniyyətinin öyrənilməsi və təbliği, eyni zamanda gələcək nəslə çatdırılması qarşıya əsas məqsəd kimi qoyulmalıdır. Son 30 ildə isə Ermənistanın işğalçı siyasəti nəticəsində Qərbi Azərbaycan, Qarabağ və ona bitişik ərazilərdəki tarixi torpaqlarımızın, doğma bölgələrimizin bir çox qeyri-maddi və maddi sərvətləri talana uğramış, dəyərlərimiz aşınmaya məruz qalmış, qaçqın və məcburi köçkün soydaşlarımız doğma diyarlarından qovulub çıxarılmış, bütün bunların sonucunda ailə dəyərlərimiz - ağsaqqallıq və ağbirçəklik institutumuz zəifləmiş, deformasiyaya məruz qalmışdır. Müasir cəmiyyətdə qədim ağsaqqal və ağbirçəklik dəyərlərinə söykənən milli ailə institutunun mövcud vəziyyətinin araşdırılması və bu ictimai-sivil yaşam fəlsəfəsi vasitəsilə daşınan mənəvi dəyərlərin aktivləşdirilməsi yollarını öyrənmək cəmiyyətimiz qarşısında çox vacib bir məsələ kimi durur

Onlar təlim-tərbiyə örnəyi, görgötür abidəsi, şərəf, ləyaqət və hikmət mənbəyi sayıla bilər. A.Maslounun artıq bizə tanış olan, insanın harmoniyası, təhlükəsizliyi, qabiliyyətlərinin maksimal inkişaf imkanları və özünü reallaşdırma prinsipləri üzərində qurulan "ideal cəmiyyət" modelindən istifadə etmək olar. O, insanın şüurunun humanist yolla dəyişdirilməsi və mədəniyyətin sosial institutlarını yenidən təşkil etməklə onun pozitiv dəyişdirilməsini nəzərdə tutur. Özünü qorumada, təhlükəsizlikdə və sülhdə, məhəbbətdə və birgəlikdə, özünütəsdiqdə və tanınmada, yaradıcılıq vasitəsi ilə özünün aktuallığında və təkmilləşməsində olan sosial tələbatlar, həmçinin fizioloji tələbatlar ailə idarəçiliyi üçün aktualdır. Ailədə onlar məhəbbət və bağlılıqla, valideynlər və övladlar, qardaşlar və bacılar, nəvələr, babalar və nənələr arasındakı qan qohumluğu və borc hissi ilə şərtlənən spesifik ailə tələbatları ilə də tamamlanırlar. Ailə motivasiyasını daha yaxşı başa düşmək məqsədi ilə A. Maslounun konsepsiyasını geniş interpretasiyada aşağıdakı kimi təqdim etmək olar:

1. Fizioloji tələbatlar (aclıq, susuzluq, yuxu, sağlamlıq və s.).
2. Təhlükəsizlik tələbatları (əminlik, təhlükədən qorunma, sabitlik və nizam-intizam, ruhi dinclik və s.).
3. Sosial tələbatlar (ailəyə mənsub olma, təqdir edilmə, ictimai həyat, məhəbbət və dostluq, ailə rifahı və xoşbəxtlik).
4. Hörmətdə tələbat (özünəhörmət, tanınma, uğur, status).
5. Özünü aktuallaşdırma tələbatı (təkmilləşmə, nailiyyətlər, şəxsiyyətin inkişafı).
6. Öyrənmə və başqalarını maarifləndirmə tələbatı.
7. Estetik duyğu və gerçəkliyin dəyişdirilməsi tələbatı.
8. Allaha inam, dərk etmə və məhəbbətdə tələbat.

Tarixən dünyagörüşü, həyata baxışı, dərin müşahidə qabiliyyəti olan müdrik ağsaqqallar həmişə mizan-tərəzini

saxlayar, hökmlü, hünərli olduğu qədər də məsləhətli, mərhəmətli, rəhmli olardılar, bir əlində qılınc, bir əlində

qalxan tutar, bir əllərində od, bir əllərində su olardı. Dəyərli əsərlərdən də öyrənmişik ki, elin ağsaqqalı səliqəsahmanlı olar, ağır oturar, ağır durar, davranışı, duruşu, ağayana yerişi, müdrikliyi, sadəliyi, səmimiliyi, sədaqətliliyi, fikrinin aydınlığı, dərin düşüncəsi ilə seçilərdi.

Yaşına görə deyil, başına görə ağsaqqal, ağbirçək sayılan şəxslər hazırcavab, az danışan, inamlı danışan, hikmət söyləyən, sözübütöv, əməlisaleh, zəhmətsevər, işgüzar, işbilən, gözü-könlü tox, tamahsız, təmənnasız, qəlbi təmiz, ürəyi təpərli, hünərli, arzusu geniş, sarsılmaz, el arasında başı yığnaqlı, qeylü-qallı, məclislərdə, mərasimlərdə başda oturan, məclis yaraşığı olardı. Onlar elin yolgöstərəni, adətənənələrimizin, milli-mənəvi dəyərlərimizin daşıyıcısı, 8 qoruyucusu, inkişaf etdirəni kimi milli-mənəvi dəyərlər sistemimizdə kultlaşıblar.

Ağsaqqallıq, eləcə də ağbirçəklik son dərəcə çətin, mürəkkəb, məsuliyyətli bir vəzifə, böyük zəhmət, min bir əziyyət, məhrumiyyətlər bahasına başa gələn ictimai missiya, məişət-sosial vəzifə sayılır. Ağsaqqalara, yaşlılara, torpağın qədrini bilmiş, vətənini sevmiş, valideynlərinə, ağbirçək və ağsaqqallarına pənah gətirmiş, arxalanmış, güvənmişdir. Müxtəlif tarixi dövrlərdə - ibtidai icma dövründə, qəbilə dövründə, feodalizm və sosializm, eləcə də kapitalizm formasiyalarında toplumun inam bəslədiyi, dəyər vediyi, hörmət göstərdiyi, bəzi hallarda isə qorxduğu, çəkindiyi ağbirçəkliyin, ağsaqqallığın tarixi insanlığın tarixi, cəmiyyətin yaranması ilə bir dövrə təsadüf edərək zaman-zaman inkişaf etmiş, tarixi mərhələlərdən 9 keçmişdir. Azərbaycanda bu tarixin yaşı iki milyon ilə qədərdir.

Bəşəriyyətin ilkin çağlarından - insanlığın ilk vaxtlarından ağsaqqallar və ağbirçəklər kiçik insan dəstələrinə, kollektivlərə başçılıq etmiş, onların qayğıları ilə yaxından məşğul olmuşlar. Ağsaqqallar, bəzi vaxtlarda isə ağbirçəklər (məsələn, amazon qadınlarda, yaxud Nizami Gəncəvinin əsərlərində, "Min bir gecə" nağıllarında, dastanlarda göstərilən qadın başçılar, xanımlardan ibarət icmalar və s.) bütün hallarda başçılıq, rəhbərlik missiyasını ləyaqətlə yerinə yetirmiş, birliyi, bütövlüyü təmin etmişlər.

Elin başçısı kimi, ölkə ağsaqqalı daha çətin, daha məsuliyyətli vəzifədir. Ağsaqqal həm də nəsil və ya dövlət başçısı, daha müdrik, təcrübəli, siyasətçi və uzaqgörən, səlahiyyətli, geniş təsir dairəsinə malik, yenilməz hökmlü, cəsarətli, dünyagörmüşlərə, çətinliklərə sinə gərmişlərə sınaqdan çıxmış insanlar arasında daha çox rast gəlinir. Belə ixtiyarların həyat təcrübəsi zəngindir, onlar öz əməlləri, uzaqgörənlikləri ilə sayılıb-seçilirlər. Bu şərəfli vəzifə əsasən başdan-binadan, nəsildən, əsildənkökdən gəlir. Hər ixtiyar yaşında olana ağsaqqal səlahiyyəti verilməz. Ağsaqqallıq yaşda deyil, başdadı, işdə, əməldədi. Ağsaqqallığın çoxçalarlı keyfiyyətlərini özündə birləşdirən cavan və ya orta yaşlılar arasından da ağsaqqal hesab edilən şəxslər çıxa bilər.

Tarixçilərin və etnoqrafçı tədqiqatçıların da vurğuladığı kimi, insan oğlu, bəşər övladı dünyaya gəldiyi gündən üstündə yaşadığı inamlı, güclü əqidəli insan olmalıdır.

Tarixi düşüncəmizdə bu hikmət dünyasında Dədə Qorqud ağsaqqalların ağsaqqalı, müdriklərin müdriki, ucaların ucası kimi özünəməxsus yerə - mövqeyə malikdir. Dədə Qorqud elə havadar olan, arxa duran, el üçün yanan, el üçün canından keçməyə hazır olan ər - ərən kimi təqdim edilir. Hər şeyin bilicisi, çətinliklərdən baş çıxaran uzaqgörəndir:

loğman, münəccim Dədə Qorqud öz xeyir-duası ilə oğuzlara məsləhət verən, tədbir görən, onları döyüşə səfərbər edən, zəfərə səsləyən, qələbəyə ruhlandıran ilhamçı, xilaskar qəhrəmandır.

Söz yox ki, yalnız Dədə Qorqud deyil, dastan-folklor düşüncəmizdə, tariximizdə Zərdüşt Peyğəmbər, 10 Cavanşir, Babək, Şah İsmayıl Xətai, Koroğlu da elin ağsaqqalı, insanların - cəmiyyətin inandığı mənəvi ata vəzifəsində görsənir. Mənəvi mədəniyyət son əsrlərdə sivilizasiyanın, elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq etnik mənsubiyyətin əsas göstəricisi kimi çıxış etməkdədir.

XX-XXI əsrlər mədəniyyətlərin mübarizəsi əsri kimi özünü göstərdiyinə görə, Azərbaycan xalqının mənəvi mədəniyyətinin öyrənilməsi və təbliği, eyni zamanda gələcək nəslə çatdırılması qarşıya əsas məqsəd kimi qoyulmalıdır. Son 30 ildə isə Ermənistanın işğalçı siyasəti nəticəsində Qərbi Azərbaycan, Qarabağ və ona bitişik ərazilərdəki tarixi torpaqlarımızın, doğma bölgələrimizin bir çox qeyri-maddi və maddi sərvətləri talana uğramış, dəyərlərimiz aşınmaya məruz qalmış, qaçqın və məcburi köçkün soydaşlarımız doğma diyarlarından qovulub çıxarılmış, bütün bunların sonucunda ailə dəyərlərimiz - ağsaqqallıq və ağbirçəklik institutumuz zəifləmiş, deformasiyaya məruz qalmışdır.

Müasir cəmiyyətdə qədim ağsaqqal və ağbirçəklik dəyərlərinə söykənən milli ailə institutunun mövcud vəziyyətinin araşdırılması və bu ictimai-sivil yaşam fəlsəfəsi vasitəsilə daşınan mənəvi dəyərlərin aktivləşdirilməsi yollarını öyrənmək cəmiyyətimiz qarşısında çox vacib bir məsələ kimi durur.

***Vahid Ömərov, f.ü.f.d. dos***

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

28 iyul

# Son səhifə

## "Neftçi"nin yeni transferi: "Titul mənim üçün çox önəmlidir"



***"B**urada ancaq yaxşı şeylər gözləyirəm. Komanda yoldaşlarımla böyük işlər görə bilərik". Bu sözləri "Neftçi"nin yeni transferi Talisson Diaz klubun televiziyasına müsahibəsində deyib.*

"Ağ-qaralar"dakı hədəflərindən danışan braziliyalı müdafiəçi klubun tarixinə düşmək istədiyini bilidirib: "Bu böyük klubda oynamaq fürsətim olduğu üçün çox sevincliyəm. Hamımız birlikdə çalışmalıyıq ki, qarşıdan gələn çempionat və Avroliqa oyunlarında daha irəli getmək üçün əlimizdən gələni edək.

Əsas məqsədim bu komandanın formasını geyinməklə bacarıqlarımı göstərə bilmək, komanda yoldaşlarımla birgə mənə inanan insanların etimadını doğrultmaqdır. Titullar qazanmaq istəyirəm. Bu, mənim üçün çox önəmlidir. Məqsədim adımı bu böyük klubun tarixinə yazaraq, mövqeyimi "Neftçi"də daha da çox bərkitməkdir".

## "Barselona"dan Messi açıqlaması




"Barselona"nın prezidenti Josep Maria Bartomeu komandanın kapitanı Lionel Messinin gələcəyi haqda danışıb. Qol.az "Mundo Deportivo"ya istinadən xəbər verir ki, o, argentinalı hücumçunun komandada qalacağına inandığını deyib: "Messi bir neçə dəfə karyerasını "Barselona"da başa vurmaq istədiyini söyləyib. Onun yeni müqavilə imzalayacağından şübhəm yoxdur". Qeyd edək ki, Messinin Kataloniya təmsilçisi ilə müqaviləsi 2021-ci ilin yayında başa çatır. Onun adı bir çox Avropa klubu ilə hallanır.

## Xəbərdarlıq: Evdən işləmək nisbəti artırılsın

Yaponiya hökuməti işçilər arasında artan koronavirus halları səbəbindən şirkətlərdən uzaqdan işləmə nisbətinin 70-80 faizə qaldırılmasını istəyib. İqtisadiyyat naziri Yasutoşi Nişimura hökumətin şirkətləri məsafəli işləri artırmağa və digər sosial məsafə tədbirlərini həyata keçirməyə təşviq edəcəyini deyib.



Nazir əlavə edib ki, məsafədən işləmək nisbəti təxminən 30 faizə enib. O, həmçinin şirkətləri fasiləsiz növbələr tətbiq etməyə və işdən sonrakı iş yeməklərindən çəkinməyə çağırıb. Yaponiyada işdən sonra bar və restoranlara gedən 40-50 yaş qruplarında infeksiyaya daha sıx təsadüf edilir. Mütəxəssislər yoluxmanın bu yaş kontingentində aşkarlanmasından narahatdırlar. Tokio və digər böyük şəhərlərdə yeni yoluxma hallarının artması, epidemiyanın ikinci dalğasının yaranması ilə bağlı narahatlıq doğurub.

## Türkiyədən ŞAD XƏBƏR: COVID-19-a qarşı peyvənd istehsal undu




"2 milyon ədəd COVID-19 peyvəndi istehsal etdik və oktyabrın sonunda kliniki testlərə başlayacağıq".

Bu sözləri komandası ilə birlikdə özünü karantinə alan və koronavirusa qarşı effektiv müalicə üsulu tapmaq üçün işlər görən türkiyəli professor Ərcümənt Ovalı deyib.

İHA-ya açıqlama verən professor bildirib ki, gələn il fevralın sonunda peyvənd üzərində işlər yekunlaşacaq. "Testlər davam edir. Türkiyədə reallaşdırılan heyvanlar üzərindəki testlər uğurla tamamlanıb. Son mərhələ testlər üçün ABŞ-dan 22 iyunda sınaq heyvanları gələcəkdi, amma gecikmə yaşandı. Onlar 10 avqustda gələcək. Koronavirusa ilk yoluxan geni dəyişdirilmiş siçanlar göndəriləcək. 1 ay üzərlərində sınaq aparacağıq. Kliniki sınaqlar isə oktyabrda başlayacaq", - Ə.Ovalı vurğulayıb.

Qeyd edək ki, professor ilk olaraq peyvəndin 23 apreldə hazır olacağını açıqlamışdı. Türkiyənin Səhiyyə naziri Fahrettin Koca isə bu açıqlamaya sərt reaksiya verміş, sosial media vasitəsilə insanların hissləri ilə oynamamağı tövsiyə etmişdi. Professor bu tənqiddən sonra sosial media hesabını bağlamışdı.

## Luçesku Təyinatından 4 gün sonar istefa verdi

Dörd gün əvvəl Kiyev "Dinamo"suna baş məşqçi təyin edilən Mirça Luçesku komandadan ayrılmaq qərarına gəlib. Qol.az xəbər verir ki, bunu Ukrayna mətbuatına açıqlamasında rumıniyalı mütəxəssis özü deyib. 75 yaşlı mütəxəssis "Dinamo" azarkeşlərinin ona düşmən münasibəti göstərdiyi üçün bu qərarı verdiyini bildirib: "Belə anlarda klubun çox ehtiyac duyduğu azarkeşlərin dəstəyi olmadan, düşmən münasibəti bəslənən yerdə işləmək mümkün



deyil. Bir neçə il əvvəl yaşadığımız rəqabətə qayıtmaq istədim. Tribunadakı azarkeşlərin sevinməsini istədim. Ukrayna buna layiqdir. Lakin mən azarkeşlərin öz klublarına qarşı bu münasibətini qəbul edə bilmərəm".

Qeyd edək ki, Luçesku daha əvvəl Ukraynada 12 il ( 2004-2016) "Dinamo"nun əzəli rəqibi olan Donetsk "Şaxtyor"unun baş məşqçisi olub.

## Şəkidə 6 tona yaxın narkotik vasitə yandırılıb

Şəki Şəhər Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayonun Öyrət kəndi ərazisində yabanı halda bitən narkotik tərkibli çətənə kolları aşkar edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, ümumi çəkisi 5 ton 600 kiloqram olan çətənə kolları kökündən çıxarılıb və yandırılaraq məhv edilib. Faktla bağlı araşdırma aparılır.

## Başsağlığı

"SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev və qəzetin kollektivi tanınmış jurnalist Qafar Çaxmaqlıya həyat yoldaşı Rəhilə xanımın vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

"Nəqliyyat Təlim-Tədris Mərkəzi" MMC-nin rəhbərliyi kollektiv adından polis polkovniki İlham Rəcəbovun vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**